**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL İNSTİTUTU**

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN ƏDƏBİYYAT FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUM)

**(V-XI siniflər)**

**BAKI – 2024**

**MÜNDƏRİCAT**

Ədəbiyyat fənninin məqsəd və vəzifələri.........................................................................3

Ədəbiyyat fənninin tədrisinə verilən tələblər.....................................................................5

Ədəbiyyat fənninin məzmunu və ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri............7

Məzmun standartları.........................................................................................................9

Ədəbiyyat fənninin xarakterinə uyğun təlim strategiyaları …………………..…........…...86

Fəndaxili və fənlərarası inteqrasiya...................................................................................98

Qiymətləndirmə vasitələri və meyarları.................................................. ...................100

Təlim materiallarının planlaşdırılması üzrə metodiki tövsiyələr....................................106

## Ədəbiyyat fənninin məqsəd və vəzifələri

Müasir dövrdə təhsil sisteminin XXI əsrin tələblərinə uyğunlaşdırılması mühüm vəzifə kimi qarşıda durur. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamında qeyd edilir ki, cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir.

Bu baxımdan ədəbi təhsil sahəsində də gənc nəsli rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlarda məktəb yaşından zəruri səriştələrin yaranmasına diqqət yetirilməli, yeni bacarıqlar formalaşdırılmalıdır.

Elm və texnologiyanın sürətli inkişafı, fərdin və cəmiyyətin dəyişən ehtiyacları, təlim-tərbiyə nəzəriyyələri və yanaşmalarında yeniliklər gənc nəslin ədəbi təhsil prosesinə birbaşa təsir edir. Bu dəyişiklik müasir mərhələdə bilik və bacarıqlara dərindən yiyələnən, ondan həyatda məqamında istifadə edərək problemləri həll edə bilən, tənqidi düşünən, təşəbbüskar, qətiyyətli, ünsiyyət bacarığı olan, empatiyalı, cəmiyyət və mədəniyyətin inkişafına töhfə verən insanın formalaşdırılmasını şərtləndirir. Ədəbiyyat fənn kurikulumunun müasirləşdirilməsi ilk növbədə yeni təlim texnologiyalarının, innovasiyaların ədəbi təhsil prosesinə uğurlu tətbiqi ilə bağlıdır.

Şagirdlərin ədəbi təhsili və inkişafını təmin edəcək kurikulum biliklərin hazır şəkildə mənimsənilməsini deyil, fərdi xüsusiyyətləri, fərqləri nəzərə alan, dəyər və bacarıqlar qazanmağı hədəfləyən məzmunda hazırlanmışdır. Kurikulumda məzmun xətləri və standartların sinifdən-sinfə keçdikcə davam və inkişaf etdirilməsi, bilik və bacarıqlara, əldə edilməsi nəzərdə tutulan təlim nəticələrinə spiralvari yanaşma əsas götürülmüşdür.

Təhsil proqramı milli və ümumbəşəri dəyərlər, şagirdlərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla əlverişli təlim şəraitinin yaradılması, tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik kimi ümumi prinsiplərə istinad edilməklə təkmilləşdirilmişdir. Məzmun standartları müəyyənləşdirilərkən şagirdlərin idraki, informativ, kommunikativ fəaliyyət göstərməsi, onlarda düşünmə, emosional və hərəki bacarıqların formalaşdırılması diqqətdə saxlanılmışdır.

Ədəbi təhsilin **əsas məqsədi** şagirdləri Azərbaycan və dünya klassiklərinin kamil sənət əsərləri ilə tanış etmək, mütaliə mədəniyyəti və bu əsasda zəngin mənəviyyat, bədii-estetik zövq, nitq bacarıqları tərbiyə etməkdir. Ədəbi təhsilin məzmununun əsasını ədəbi, etik-fəlsəfi və tarixi-mədəni komponentləri nəzərə almaqla bədii mətnlərin – əsərlərin oxunması, öyrənilməsi və müstəqil təhlil bacarıqlarının yaradılması təşkil edir.

Ədəbiyyat təlimi prosesində aşağıdakı vəzifələrin həyata keçirilməsi təmin edilir:

*Ümumi orta təhsil səviyyəsində:*

- İncəsənətin bir növü kimi söz sənətinin - şifahi və yazılı ədəbiyyatın xalqın mənəvi sərvəti olması, həyatı, taleyüklü məsələləri özünəməxsus bədii vasitələrlə əks etdirməsi barədə şagirdlərdə dolğun təsəvvür yaradılır.
- Milli və dünya ədəbiyyatından seçilmiş kamil sənət nümunələri vasitəsilə məktəblilərdə sözə, söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırılır, təhlil, dəyərləndirmə, fikirlərini şifahi və yazılı çatdırmaq bacarığı inkişaf etdirilir. Ədəbiyyat nəzəriyyəsi üzrə zəruri biliklərə və mütaliə mədəniyyətinə yiyələnən şagirdlərdə konfliktlərə, problemlərə, ədəbi nailiyyətlərə əsaslandırılmış münasibətin formalaşması təmin edilir.

*Tam orta təhsil səviyyəsində:*

- Şagirdlərin ümumi orta təhsil səviyyəsində qazandıqları bacarıq və vərdişləri təkmilləşdirilməklə, Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf yolu, ədəbi ənənə və əlaqələri, Azərbaycan və dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılığından nümunələr tarixi-ədəbi prinsip əsasında öyrədilir, ədəbiyyat nəzəriyyəsinə dair məlumatlar genişləndirilir, şagirdlərin ədəbi-bədii, tənqidi təfəkkürünün formalaşması təmin edilir.

## Ədəbiyyat fənninin tədrisinə verilən tələblər

XXI əsrin məktəbində ədəbi təhsildə əsas diqqət fərdin intellektual və mənəvi-əxlaqi inkişafına yönəlməlidir. Bu, şagirdlərdə mütaliə və müzakirə mədəniyyətinin, tənqidi təfəkkürün formalaşdırılmasını nəzərdə tutur. Ədəbiyyatın tədrisi şagirddə bədii əsərə və müəllifin şəxsiyyətinə marağı gücləndirməlidir.

*Müasir ədəbiyyat tədrisi aşağıdakı əsas məqamları əhatə etməlidir:*

1. İbtidai təhsili başa vurmuş şagirdlərin əqli və emosional cəhətdən inkişafını dəstəkləmək, fərdi inkişaf proseslərini diqqət mərkəzində saxlamaq;
2. Şagirdlərin əxlaqi bütövlük və özünüdərk çərçivəsində fəal həyat mövqeyi tutan, inamlı və intizamlı vətənpərvər şəxsiyyət kimi inkişafını təmin etmək;
3. Tam orta məktəbi bitirən şagirdlərin milli-mənəvi dəyərləri mənimsəmiş, hüquqlarından istifadə edən və vəzifələrini yerinə yetirən, əsas bacarıq və səriştələrə yiyələnmiş, ölkənin sosial-iqtisadi, mədəni inkişafına töhfə verən şəxsiyyət kimi formalaşmasını təmin etmək;
4. Şagirdləri fəal, məqsədyönlü intellektual fəaliyyətə cəlb etmək;
5. Dərsdə problemli vəziyyət yaratmaqla onun həlli üçün yeni biliyə tələbat oyatmaq;
6. Kommunikativlik və əməkdaşlıq şəraitində, cütlük şəklində, kiçik və böyük qruplarda yeni bilik və bacarıqların mənimsənilməsinə nail olmaq.
7. Qarşılıqlı yoxlama, qarşılıqlı nəzarəti təmin etmək.

*Ədəbiyyatın tədrisinin təşkili zamanı aşağıdakı tələblər nəzərə alınmalıdır:*

- Dərsin düşünülmüş başlanğıcı, gedişi və məntiqi sonu olmalıdır;
- Müəllim özünün və şagirdlərin fəaliyyətini planlaşdırmalı, dərsin mövzusunu, məqsədini və vəzifələrini aydın şəkildə formalaşdırmalıdır;
- Dərs problem mərkəzli və inkişafetdirici olmalıdır: axtarış situasiyaları yaratmaqla şagirdlər tədqiqatçılığa və əməkdaşlığa yönləndirilməlidir;
- Şagirdlərin bilik səviyyəsi və imkanları nəzərə alınmaqla dərsdə onların müstəqilliyi və fəallığı təmin olunmalıdır.

Standartlara uyğun olaraq ilk növbədə şagirdlərdə milli və dünya ədəbiyyatından seçmələri öyrənməyə maraq və həvəs gücləndirilməlidir. Müstəqil həyata hazırlıq, qazanılmış bilik və bacarıqların ömürboyu tətbiqi baxımından ədəbiyyat dərslərinin əhəmiyyəti təhsilalanlara aydınlaşdırılmalıdır. Şagirdlər təlim prosesinin fəal iştirakçısına çevrilməli, onların mütaliə və müzakirə mədəniyyəti ön plana çəkilməlidir.

## Ədəbiyyat fənninin məzmunu və ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:***

1. bədii mətnləri obrazlı-emosional xüsusiyyətlərinə görə ifadəli oxuyur;
2. oxuduğu ədəbi nümunələri təhlil edir;
3. şifahi və yazılı ədəbiyyatın, ədəbi janrların səciyyəvi cəhətlərini izah edir;
4. bədii mətnlərdəki ideyanı milli-mənəvi və ümumbəşəri dəyərlərlə əlaqələndirir;
5. yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir;
6. görkəmli ədəbi simalar və əsərlər haqqında məlumatlı olduğunu nümayiş etdirir.

Ümumi orta təhsil səviyyəsində müvafiq təlim nəticələrinə nail olmaq üçün şagirdlərin bədii nümunələri onların məzmunundan irəli gələn məna çalarlarına uyğun ifadəli oxuması, mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətini izah etməsi diqqət mərkəzində saxlanılmalıdır.

Təlim prosesində yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirmək, orfoqrafiya və orfoepiya qaydalarına əməl etmək, söz ehtiyatından səmərəli istifadə, fikrin ardıcıl və məntiqli ifadəsi, ümumiləşdirilməsi üzrə sistemli iş aparılmalıdır. Bədii nümunələrlə bağlı fikirlərin aydın, ardıcıl, məqsədyönlü, yığcam, yeri gəldikcə bədii təsvir vasitələrindən istifadə ilə ifadəsinə şifahi nitqin mühüm tələbi kimi yanaşılmalıdır.

Şagirdlərin şifahi və yazılı ədəbiyyat nümunələrinin oxşar və fərqli cəhətlərini izah etmələrinə, fikirlərini əsaslandırmalarına nail olunmalıdır. Bu baxımdan onların bədii nümunələri məzmun və ideya istiqamətinə, obrazların səciyyəsinə, sənətkarlıq xüsusiyyətlərinə görə təhlil etməsi, şəxsi münasibətlərini bildirməsi diqqətdə saxlanılmalıdır. Eyni zamanda bədii nümunələrin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, ədalətlilik, əsaslandırma və ümumi rəyə gələ bilmək bacarıqlarının formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

***Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:***

1. bədii əsərlərin təhlili prosesində müqayisə və ümumiləşdirmələr aparır, rəy və mülahizələr irəli sürür;
2. əsərləri janr baxımından fərqləndirir və səciyyəvi cəhətlərini şərh edir;
3. ədəbi simalara, onların yaradıcılığına yaşadıqları dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri zəminində münasibət bildirir;
4. müxtəlif növdə yazılar icra edir;
5. bədii söz ustaları, bədii nümunələr, mühüm ədəbi hadisələr və dövr haqqında məlumatlı olduğunu nümayiş etdirir.

Tam orta təhsil səviyyəsində şagirdlərin oxuduğu bədii nümunələri emosional-obrazlı qavradığını nümayiş etdirməsi, ayrı-ayrı mövzular üzrə müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim etməsi, mövzu, ideya, problem, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin aydınlaşdırılması və dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Şagirdlərin ədəbiyyat və incəsənətə aid tədbirlərin təşkilində iştirak etməsi, mənbələr üzərində işləyərək görkəmli söz sənətkarları, ədəbiyyat və incəsənət sahəsindəki nailiyyətlər barədə materiallar

toplaması, onlara münasibət bildirməsi, müxtəlif ədəbi mövzularda məruzə və təqdimatlar hazırlaması kimi fəaliyyətlər stimullaşdırılmalıdır.

Ədəbiyyat fənninin məqsədinə və gözlənilən nəticələrə uyğun olaraq hər iki təhsil səviyyəsində məzmun xətləri aşağıdakı şəkildə müəyyənləşdirilir:

- Oxuma, anlama və təhlil.
- Nitq və ünsiyyət.

**Oxuma, anlama və təhlil** məzmun xətti ümumi orta təhsil səviyyəsində bədii ədəbiyyatda – lirik, epik, dramatik əsərlərdə, eləcə də publisistik və məlumatlandırıcı mətnlərdə əksini tapan milli-bəşəri dəyərlərin, mənəvi-estetik problemlərin qavranılmasını, təhlilini, onlara əsaslandırılmış münasibətin formalaşdırılmasını, mürəkkəb həyat hadisələrinin, ziddiyyətli situasiyaların dərk edilməsini və qiymətləndirilməsini nəzərdə tutur.

Bədii həqiqətlə həyat həqiqətlərinin müqayisəsi, əlaqələrin açıqlanması söz sənətinin mahiyyətinin başa düşülməsinə, eləcə də insan həyatında, cəmiyyətdə müşahidə edilən mühüm hadisələrin dərk edilib dəyərləndirilməsinə səbəb olur. Bədii ədəbiyyatın incəliklərinin, obrazların, təsvir və ifadə vasitələrinin mənimsənilməsi müxtəlif ədəbi növdə və janrda olan əsərlərin mütaliəsinə maraq oyadır, ifadəli oxu bacarıqları inkişaf etdirir, şifahi və yazılı nitq üçün zəruri olan lüğət ehtiyatını zənginləşdirir.

Tam orta təhsil səviyyəsində bu məzmun xətti ədəbiyyat nümunələrinin öyrənilməsinə, müxtəlif mənbələrindən seçilmiş publisistik materialların mövzu, ideya, dil və üslub xüsusiyyətləri baxımından dəyərləndirilməsinə imkan yaradır, faktlara əsaslanmaqla informasiyaların tənqidi araşdırılmasını təmin edir, müxtəlif ədəbi növ və janrlarda olan əsərlərdəki problem və konfliktlərin, ictimai-siyasi həyatdakı mühüm hadisələrin ümumbəşəri və milli-mənəvi dəyərlər baxımından qiymətləndirilməsi üçün əsas olur.

**Nitq və ünsiyyət** məzmun xətti şifahi nitq və ünsiyyət bacarıqları formalaşdırmağa, ədəbi nümunələrlə bağlı fikirlərin obrazlı sözlərdən, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə aydın, ardıcıl, məqsədyönlü və yığcam ifadə edilməsinə imkan yaradır.

Şifahi nitq və ünsiyyət üzrə standartların tam orta təhsil səviyyəsində reallaşdırılması ədəbi əsərlərin məzmun və ideyası ilə bağlı fakt və hadisələrə əsaslandırılmış münasibət bildirilməsini, bədii-obrazlı ifadələrdən istifadə olunmasını təmin edir, müxtəlif mənbələrdən toplanmış materiallara əsaslanmaqla müzakirələrdə ədəbi nailiyyətlərə müstəqil münasibət bildirilməsinə imkan yaradır.

Yazılı nitq üzrə standartların reallaşdırılması mövzu, problemlə bağlı müxtəlif mənbələrdən informasiyaların, fakt və dəlillərin seçilməsini, ümumiləşdirilməsini, fikrin aydın, dəqiq çatdırılmasında onlardan istifadəni təmin edir. Bu, həmçinin müxtəlif tipli yazılara dair bacarıqların formalaşmasına imkan yaradır. Tam orta təhsil səviyyəsində müxtəlif üslublarda yazıların icrası, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə təqdimatların hazırlanması təmin edilir.

Ədəbiyyat fənni ümumtəhsil məktəblərində V-IX və X-XI siniflər olmaqla iki mərhələdə öyrənilir. Birinci mərhələ V-VII və VIII-IX sinifləri əhatə edir. Ədəbiyyat tarixinin müxtəlif dövrlərindən şagirdlərin yaş və bilik səviyyəsinə uyğun seçilmiş nümunələr problem-mövzu üzrə qruplaşdırılır və V-VII siniflərdə tədris edilir. VIII-IX siniflərdə isə ədəbiyyat tarixi xronoloji qaydaya uyğun tədris edilir. Bu siniflərdə şagirdlər ədəbiyyat tarixinin keçdiyi inkişaf yolu barədə ayrı-ayrı tarixi dövrlərdə yaşamış sənətkarların bir əsərinin tədrisi əsasında təsəvvür qazanırlar.

Yazıçıların həyatı haqqında məlumat V-VII siniflərdə tədris edilən əsərin verdiyi imkan səviyyəsində öyrənilir. VIII-IX siniflərdə isə bioqrafik məlumat dərslikdəki tapşırıqlara əsasən müxtəlif mənbələrin araşdırılması yolu ilə müstəqil mənimsənilir.

Tam orta təhsil səviyyəsində (X-XI siniflərdə) ədəbiyyat fənni tarixi-ədəbi prinsip əsasında tədris edilir. Başqa sözlə, ədəbiyyatın qədim dövrlərdən günümüzə qədər keçdiyi tarixi inkişaf yolu izlənilir. Bu siniflərdə təlim materialları *monoqrafik* və *icmal* olmaqla iki mövzu üzrə öyrənilir. Monoqrafik mövzu ədəbiyyat tarixində əhəmiyyətli yer tutan ayrı-ayrı sənətkarların həyatı, yaradıcılıq yolu haqqında ümumi məlumatı, bir, bəzən də iki əsərinin öyrənilməsini özünə daxil edir. Monoqrafik mövzulara azı 6 dərs saatının ayrılması nəzərə alınır. Bu mövzular üçün ədəbiyyat tarixində əhəmiyyətli yer tutan, ədəbi məktəb yaratmış sənətkarların seçilməsi diqqət mərkəzində saxlanılır. Monoqrafik mövzular aşağıdakı şəkildə ifadə olunur: “N.Gəncəvi. Həyatı, yaradıcılıq yolu”. “İskəndərnamə” poeması (X sinif); “Ə.Cavad. Həyatı, yaradıcılıq yolu. “Səsli qız” poeması (XI sinif) və s.

İcmal mövzular ədəbiyyat tarixinin ayrı-ayrı mərhələlərindəki sosial-siyasi, ədəbi-tarixi, mədəni durumu əks etdirir. Bu mövzular aşağıdakı şəkildə ifadə edilir: “Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər)”; “Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən bu günə kimi)” və s.

**Qeyd 1**: *Ümumi təhsil pilləsində ədəbiyyat fənni üzrə müəyyənləşdirilmiş məzmun xətləri vasitəsilə təhsilalanlarda təfəkkürlə (yaradıcılıq – kreativlik, tənqidi təfəkkür, problem həlletmə, qərar qəbuletmə, müstəqil öyrənmə) və fəaliyyətlə (ünsiyyət, əməkdaşlıq, rəqəmsal savadlılıq, informasiya savadlılığı) bağlı səriştələr, o cümlədən dəyərlər (fəal vətəndaş mövqeyi, şəxsi və sosial məsuliyyət) formalaşdırılır*.

**Qeyd 2:** *Fənn üçün nəzərdə tutulan məzmun üç sütunda təqdim edilir. Birinci sütunda altstandartlar, ikinci sütunda altstandartlara aid anlayışlar, terminlər sadalanır. Üçüncü sütunda təlim nəticələrini reallaşdırmaq üçün sinifdaxili fəaliyyətlər tövsiyə edilir.*

**Qeyd 3:** *Kodlaşmada birinci ədəd sinfi, ikinci ədəd məzmun xəttini, üçüncü ədəd əsas standartı, dördüncü ədəd altstandartı təyin edir.*

**Qeyd 4:** *Təqdim edilən altstandartlar bir çox hallarda dərsin təlim nəticələrinə bərabərdir.*

# Məzmun standartları

| *Alt standartlar* | *İzah* | *Tövsiyə olunan sinifdaxili fəaliyyətlər* |
|---|---|---|
| **V sinif** | | |
| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | | |
| **I. Lirika (heca vəznli şeir), bayatılar.** | | |
| **Standart 5-1.1.** Lirik əsərləri oxuyur və anlayır. | | |
| 5-1.1.1. Şeirdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip sözlərin rolunun izahı.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 5-1.1.2. Şeirdə ahəng yaradan vasitələri müəyyənləşdirir. | • Ahəng<br>• Misra<br>• Bənd<br>• Qafiyə | • Ahəng, misra, bənd, qafiyə anlayışlarının fərqləndirilməsi məqsədilə müsahibə.<br>• Ahəngin yaranmasında misra və qafiyənin rolunun nümunələr əsasında müəyyənləşdirilməsi.<br>• *Müqayisə cədvəli, Venn diaqramından istifadə.* |
| 5-1.1.3. Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. | • Epitet<br>• Təşbeh | • Anlayışların mahiyyəti ilə bağlı təsəvvürün zənginləşdirilməsi.<br>• Fərqli bədii nümunələrdə epitet və təşbehin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• *Müqayisə cədvəli, Venn diaqramıdan istifadə.* |

| | | |
|---|---|---|
| 5-1.1.4. Şeirin mətnini anlayaraq oxuyur. | • Mətndə ifadə olunmuş hiss, düşüncə və mətləblər | • Mətndə əksini tapmış mətləblərin ilkin qavranılmasının aşkara çıxarılması.<br>• Şeirin yaratdığı təəssürat, lirik qəhrəmanın hiss və düşüncələri ilə əlaqədar müsahibə.<br>• *Rəy cədvəlindən istifadə.* |
| 5-1.1.5. Şeirin janrını müəyyən edir. | • Bayatı<br>• Heca vəznində yazılmış şeir<br>• Şeirin məzmununun başa düşülməsində janrın rolu | • Bayatının janr xüsusyyətlərinin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• Şeirin janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi məqsədilə tapşırıqların icrası.<br>• *Anlayışın müəyyənləşdirilməsi, Venn diaqramından istifadə.* |
| 5-1.1.6. Şeirin vəznini müəyyən edir. | • Heca vəzni<br>• Milli şeirin əsas ölçü vahidi olması<br>• Misra, qafiyə sistemi | • "Heca vəzni" anlayışının mahiyyətinin nümunələr əsasında aydınlaşdırılması.<br>• Heca vəzninin başlıca xüsusiyyətlərinin mənimsənilməsi məqsədilə müstəqil işlərin icrası, nəticənin müzakirəsi.<br>• Misra, qafiyə ilə bağlı bilik və bacarıqların tətbiqi üzrə işin təşkili.<br>• *Şaxələndirmədən istifadə.* |
| 5-1.1.7. Şeirdəki mətləbləri müəyyən edir. | • Uşaq aləmi, uşaq taleyinin qabarıq əks olunduğu şeirlərdə digər mətləblər | • Uşaq həyatından bəhs edən şeirlərdə ifadə olunmuş mətləblərin müəyyənləşdirilməsi, əlaqələrinin aydınlaşdırılması üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Karuseldən istifadə.* |
| 5-1.1.8. Şeirin mövzusunu müəyyənləşdirir. | • Şeirdə çoxmətləblilik.<br>• Əsas (başlıca) mövzu | • "Mövzu" anlayışı ilə bağlı təsəvvürün müsahibədən istifadə ilə zənginləşdirilməsi.<br>• Şeirdə əsas mövzunun müəyyən edilməsi üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| **Standart 5-1.2.** Şeir nümunələrinin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |

| | | |
|---|---|---|
| 5-1.2.1. Bədii təsvir vasitələrinin şeirdə rolunu şərh edir. | • Epitet<br>• Təşbeh<br>• Əsərin bədii təsir gücünün artmasında təsvir vasitələrinin rolu | • Təsvir vasitələrinin əsərdə bədiiliyin artmasına verdiyi töhfənin aydınlaşdırılması üzrə tapşırıqların icrası.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 5-1.2.2. Şeirin əsas ideyasını şərh edir. | • Əsas ideyanın fərqləndirilməsi<br>• Yozumlar | • Şeirdəki əsas fikrin – ideyanın müəyyən edilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Əsas ideya ilə bağlı yozumların müzakirəsi.<br>• *Diskussiyanın tətbiqi.* |
| 5-1.2.3. Şeiri nitq texnikasının tələblərinə və ondakı başlıca ovqata uyğun ifadəli oxuyur. | • Nitq texnikası<br>• Tənəffüs (ixtiyari, qeyri-ixtiyari)<br>• Səs (güc, ucalıq, temp, tembr)<br>• Diksiya (danışıq səslərinin aydın tələffüzü) | • Bədii oxu ustasının səs yazısının dinlənilməsi və müzakirəsi.<br>• Oxuda düzgün – ixtiyari tənəffüsə, səsin əsas keyfiyyətlərinin (güc, ucalıq) idarə edilməsinə nail olunması məqsədilə çalışmaların yerinə yetirilməsi. |
| **II. Epik nümunələr (hekayə, təmsil), tapmacalar, alqışlar, əfsanə, nağıl.** | | |
| **Standart 5-1.3. Epik nümunələri oxuyur və anlayır.** | | |
| 5-1.3.1. Bədii mətnlərdə tanış olmayan sözlərin, ifadələrin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 5-1.3.2.Mətndə bədii təsvir vasitələrini müəyyənləşdirir. | • Epitet<br>• Təşbeh | • Fərqli nəsr nümunələri əsasında epitet və təşbehin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• *Venn diaqramından istifadə.* |

| | | |
|---|---|---|
| 5-1.3.3. Mətni anlayaraq oxuyur. | • Obrazların xarakteri<br>• Obrazların əməlləri<br>• Hadisələrin inkişafı | • Obraz (surət) anlayışının mahiyyəti İlə bağlı təsəvvürün nümunələr əsasında zənginləşdirilməsi.<br>• Obraz və hadisələrdə diqqətçəkən başlıca cəhətlərin aydınlaşdırılması üzrə şifahi təqdimatların hazırlanması, dinlənilməsi və müzakirəsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 5-1.3.4. Əsərin mövzusunu müəyyənləşdirir. | • Əsas (başlıca) mövzu | • “Bədii əsərin mövzusu”, “Əsas mövzu” anlayışları ilə bağlı təsəvvürün zənginləşdirilməsi.<br>• Əsas (başlıca) mövzunun müəyyən edilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Müqayisə cədvəlindən, karuseldən istifadə.* |
| 5-1.3.5. Əsərdə başlıca hadisələri müəyyən edir. | • Əsərdəki başlıca hadisələr | • Əsərdəki başlıca hadisələrin müəyyən edilməsi üzrə müstəqil işin təşkili.<br>• *Karuseldən istifadə.* |
| 5-1.3.6. Əsərdəki əsas konflikti müəyyənləşdirir. | • Konflikt (ilkin təsəvvür)<br>• Əsas konflikt və ideya | • “Konflikt” anlayışının mahiyyətinin aydınlaşdırılması məqsədilə müsahibənin aparılması.<br>• Əsas konfliktin müəyyənləşdirilməsi ilə bağlı tapşırıqların yerinə yetirilməsi.<br>• *Diskussiyanın təşkili.* |
| 5-1.3.7. Əsəri janrına görə fərqləndirir. | • Təmsil<br>• Tapmacalar<br>• Alqışlar<br>• Əsərin janr özəllikləri | • Bədii nümunələrin (təmsil, tapmaca, alqış və s.) janr xüsusiyyətlərinin fərqləndirilməsi üzrə işin təşkili.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 5-1.3.8. Obrazların xarakterindəki başlıca cəhətləri müəyyələşdirir. | • Obrazların xarakterlərindəki başlıca cəhətlər: xeyirxahlıq, ədalətlilik, humanistlik və s. | • Obrazların xarakterindəki başlıca cəhətlərin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• *Müqayisə cədvəli, Venn diaqramı, rəy cədvəlindən istifadə.* |

| | | |
|---|---|---|
| 5-1.3.9. Əsərdən bitkin parçanın məzmununu müxtəlif formalarda (yığcam, geniş) nağıl edir. | • Yığcam nağıletmə<br>• Geniş nağıletmə | • Əsərin məzmununun nağıl edilməsi zamanı diqqət yetirilməsi zəruri olan məqamların aydınlaşdırılması.<br>• Əsərdən bitkin parçanın yığcam, geniş nağıl edilməsi və müzakirəsi üzrə işin təşkili. |
| **Standart 5-1.4.** Epik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 5-1.4.1. Xarakterindəki başlıca cəhətlərə əsaslanmaqla obrazları səciyyələndirir. | • Obrazların fərdi səciyyəvi xüsusiyyətləri<br>• Obrazların səciyyələndirilməsi və ideya<br>• Zaman və məkanın obrazların xarakterinin aydınlaşdırılmasında rolu | • "Obrazın xarakteri," "fərdi xüsusiyyətləri" anlayışları ilə bağlı təsəvvürün zənginləşdirilməsi.<br>• Obrazların xarakterlərindəki başlıca cəhətlərin dəyərləndirilməsi.<br>• Obrazların xarakter və əməllərinin əsərin ideya istiqaməti ilə bağlılığının müzakirəsi.<br>• Zaman və məkanın obrazların xarakterinə təsirinin müəyyənləşdirilməsi üzrə tapşırıqların icrası.<br>• *Problemin həlli, Venn diaqramı metodlarından istifadə.* |
| 5-1.4.2. Əsərin süjetindəki özünəməxsusluğa münasibət bildirir. | • Süjet (ilkin təsəvvür)<br>• Əsərin bütövlükdə başa düşülməsində və dəyərləndirilməsində süjetin rolu | • "Süjet" anlayışının mahiyyətinin aydınlaşdırılması ilə bağlı müsahibə.<br>• Əsərdə süjetin inkişaf mərhələlərindəki özəlliklərin aydınlaşdırılması məqsədilə şifahi təqdimatların hazırlanması, dinlənilməsi və müzakirəsi. |
| 5-1.4.3. Təsvir vasitələrinin rolunu izah edir. | • Epitet<br>• Təşbeh<br>• Əsərin bədii təsir gücünün artmasında epitet və təşbehin rolu | • Əsərdə bədiiliyin artmasına təsvir vasitələrinin verdiyi töhfənin nümunələr əsasında aydınlaşdırılması və dəyərləndirilməsi. |

| | | |
|---|---|---|
| 5-1.4.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini janrlarına görə müqayisə edir. | • Şifahi ədəbiyyat nümunələrinin janr özəllikləri<br>• Yazılı ədəbiyyat nümunələrinin janr özəllikləri<br>• Şifahi və yazılı ədəbiyyata məxsus janrların oxşar və fərqli cəhətləri | • Janr baxımından şifahi və yazılı ədəbiyyat nümunələrinin oxşar və fərqli cəhətlərinin dəyərləndirilməsi üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• *Müqayisə cədvəli, Venn diaqramından istifadə.* |
| 5-1.4.5. Əsərdəki əsas konfliktə münasibət bildirir. | • Konflikt (ilkin təsəvvür)<br>• Konfliktin əsərin maraqla oxunmasına və yazıçı niyyətinin ifadəsinə imkan yaratması | • Əsərdə əsas konfliktin və onun həlli yollarının aydınlaşdırılması üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Problemin həlli, ideyalar xalısı metodlarının tətbiqi.* |
| 5-1.4.6. Əsərin əsas ideyasını şərh edir. | • İdeyanın aydınlaşdırılmasının müəllif niyyətinin başa düşülməsinə təsiri | • Nümunələrə əsaslanmaqla əsərin əsas ideyasının dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>• *Qərarlar ağacı, problemin həlli metodlarının tətbiqi.* |
| 5-1.4.7.Əsərdən bitkin parçanı nitq texnikasının tələblərinə və ondakı başlıca ovqata uyğun ifadəli oxuyur. | • Nitq texnikası:<br>- tənəffüs (ixtiyari, qeyri-ixtiyari);<br>- səs (güc, ucalıq, temp, tembr);<br>- diksiya (danışıq səslərinin aydın tələffüzü)<br>• Oxuda düzgün tənəffüs, səsin əsas keyfiyyətləri | • İfadəli oxu nümunəsinin dinlənilməsi və müzakirəsi.<br>• Oxuda düzgün – ixtiyari tənəffüsə, səsin əsas keyfiyyətlərinin (güc, ucalıq) idarə edilməsinə nail olunması məqsədilə çalışmalar. |
| **III. Publisistik və məlumatlandırıcı mətnlər (məktub)** | | |
| **Standart 5.1.5.** Publisitik və məlumatlandırıcı mətnləri oxuyur və anlayır. | | |
| 5-1.5.1. Mətndə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə |

| | | |
|---|---|---|
| | | (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 5-1.5.2. Mətnin mövzusunu müəyyən edir. | • Məktub<br>• Mövzu<br>• Özəl məktubun oxunmasının mətnin mövzusunun müəyyən edilməsinə təsiri | • Məktubun başlıca mövzusunun aydınlaşdırılması və dəyərləndirilməsi üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi. |
| 5-1.5.3. Mətndəki başlıca fikirləri müəyyən edir. | • Özəl məktubdakı əsas fikirlərin müəyyən edilməsinin müəllif niyyətinin başa düşülməsinə təsiri | • Mətndəki başlıca fikirlərin müəyyənləşdirilməsi üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi. |
| **Standart 5-1.6.** Publisistik və məlumatlandırıcı mətnlərin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 5-1.6.1. Mətndəki əsas mətləblərə münasibət bildirir. | • Özəl məktubdakı mühüm mətləblər | • Mətndəki mühüm mətləblərə münasibətin bildirilməsi məqsədilə təqdimatların hazırlanması.<br>• *Auksion metodundan istifadə.* |
| 5-1.6.2. Mətnlə bağlı yozumlar edir. | • Yozum<br>• Yozumların məktubdakı mətnaltı mənaların başa düşülməsinə təsiri | • Mətnin mövzusu, məzmunu, başlıca fikirləri ilə bağlı fərdi yozumların dinlənilməsi və müzakirəsi üzrə işin təşkili.<br>• *Karuseldən istifadə.* |
| **Məzmun xətti 2. Nitq və ünsiyyət** | | |
| **Standart 5-2.1.** Şifahi nitq və ünsiyyət bacarıqları nümayiş etdirir. | | |
| 5-2.1.1. Çıxışının məzmununa uyğun plan hazırlayır. | • Sadə (azbəndli) plan | • Çıxışın sadə planının hazırlanması üzrə işin təşkili.<br>• Fənn üzrə məlumatdan istifadə ilə mövzuya uyğun planın hazırlanması.<br>• Hazırlanmış plan nümunələrinin müzakirəsi. |

| | | |
|---|---|---|
| 5-2.1.2. Çıxışın mövzusuna uyğun təqdimat hazırlayır. | • Çıxış üçün təqdimat mətninin hazırlanmasının dolğun məzmunun formalaşmasına təsiri<br>• Verbal və qrafik məlumatlardan ibarət təqdimat materialı | • Araşdırmanın nəticələri nəzərə alınmaqla plan əsasında yazılı təqdimatın hazırlanması üzrə işin təşkili.<br>• Fərqli mövzu və formada hazırlanmış təqdimatların müzakirəsi. |
| 5-2.1.3. Çıxışında bədən dilindən istifadə edir. | • Mimika, jest və bədən dilinin nitqin məzmununun başa düşülməsinə təsiri.<br>• Nitqin aydın və rabitəli olmasının məzmunun başa düşülməsinə təsiri | • Mimika, jest və bədən dili ilə bağlı məlumat və bacarıqların xatırlanması.<br>• Çıxış üçün hazırlanmış mətnin məzmununa uyğun mimika, jest və bədən dilindən istifadə edilməsi üzrə məşqlərin edilməsi. |
| 5-2.1.4. Mənasını yeni öyrəndiyi sözlərdən nitqində istifadə edir. | • Mənası yeni öyrənilmiş sözlərin lüğət ehtiyatının zənginləşməsinə təsiri.<br>• Mənası yeni öyrənilmiş sözlərin müxtəlif nitq situasiyalarında işlədilməsi | • Mənası yeni öyrənilmiş sözlərin müxtəlif nitq şəraitində (müzakirə, dialoq, təqdimat və s.) işlənilməsi üzrə tapşırıqların icra olunması. |
| 5-2.1.5. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün auditoriya ilə (dinləyicilərlə) göz təması qurur. | • Ünsiyyət (ilkin təsəvvür)<br>• Ünsiyyətin forması kimi göz təmasının rolu<br>• Danışanla dinləyənin arasında daxili əlaqənin – ünsiyyətin yaranmasının əhəmiyyəti | • Təqdimat prosesində auditoriya ilə (dinləyicilərlə) göz təmasının yaradılması üzrə məşqlərin reallaşdırılması. |
| 5-2.1.6. Dialoji nitq şəraitində (prosesində) ünsiyyət yaradır. | • Dialoji nitq şəraiti<br>• Dialoji nitq şəraitində ünsiyyətin yaradılmasının əhəmiyyəti | • Dialoji nitq şəraitində ünsiyyətin yaradılması üzrə məşqlərin reallaşdırılması. |
| **Standart 5-2.2.** Yazılı nitq bacarıqları nümayiş etdirir. | | |

| | | |
|---|---|---|
| 5-2.2.1. Müxtəlif növlərdə (publisistik və bədii yaradıcılıq üzrə) yazılar icra edir. | • Bədii yaradıcılıq üzrə bacarıqların inkişafına yönəlik yazılar: əfsanə janrında mətn<br>• Publisistik, məlumat xarakterli yazılar: özəl məktub<br>• Yazı növlərinin özünəməxsusluğu | • Öyrənilmiş əfsanənin məzmununa müvafiq başlanğıc və sonluğun yazılması, müzakirəsi.<br>• Öyrənilmiş əfsanənin məzmununa uyğun kiçik təsvirin yazılması və mətnin müvafiq hissəsinə daxil edilməsi.<br>• Əfsanə janrında mətn hazırlığı üzrə çalışmalar: mövzunun, əsərin başlanğıcının – ekspozisiyanın, təsvir olunacaq əhvalat və hadisələrin, əsas konfliktin, sonluğun düşünülməsi.<br>• Kiçikhəcmli əfsanənin yazılması və müzakirəsi.<br>• Oxunmuş əsərin yaratdığı təəssüratın bölüşməsini əks etdirən özəl məktubun yazılması və müzakirəsi. |
| 5-2.2.2. Yazı üçün sadə plan tərtib edir. | • Sadə (azbəndli) plan<br>• Müşahidə, təəssürat, hiss və düşüncələrin nəzərə alınmasının planın hazırlanmasına təsiri | • Müxtəlif növ yazı üçün sadə planın tərtibi və müzakirəsi. |
| 5-2.2.3. Yazını növünə uyğun dil xüsusiyyətləri əsasında icra edir. | • Ədəbi mövzuda və bədii yaradıcılıq üzrə yazıda obrazlı söz və ifadələrin işlədilməsi<br>• Publisistik və məlumat xarakterli yazılarda anlayış və terminlərdən istifadənin məqsədəuyğunluğu | • Müxtəlif növ yazıların dil xüsusiyyətlərində müşahidə edilən fərqli cəhətlərin təhlili, müzakirəsi. |
| 5-2.2.4. Mənasını yeni öyrəndiyi sözlərdən məzmuna uyğun istifadə edir. | • Mənası yeni öyrənilmiş sözlərin müxtəlif növ yazıların məzmununa uyğun işlədilməsi<br>• Bu qəbildən sözlərin şagirdlərin fəal lüğət fonduna daxil olması | • Mənası yeni öyrənilmiş sözlərdən fərqli yazı növlərinin məzmununa uyğun işlədilməsi üzrə tövsiyə-tapşırıqların icrası, nəticənin müzakirəsi. |

| | | |
|---|---|---|
| 5-2.2.5. Yazının plan əsasında icra olunduğunu nəzərdən keçirib düzəliş edir. | • Mətnin sadə plan əsasında yazıldığının aydınlaşdırılması üzrə fəaliyyətin məntiqi təfəkkürün inkişafına təsiri | • Yazının sadə plan əsasında icra olunduğunun müəyyənləşdirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| 5-2.2.6. Ədəbi mövzuda essedə mövzunu əhatə edir. | • Mövzunun əhatə olunmasının yazının məqsəd və ideyası barədə aydın təsəvvürün yaradılmasına təsiri | • Ədəbi mövzuda essedə mövzunun əhatə olunmasına nail olmağın yolları barədə tövsiyələrin mənimsədilməsi.<br>• İcra olunmuş yazılarda mövzunun əhatə olunması üzrə müzakirənin təşkili. |
| 5-2.2.7. Təsvir xarakterli essedə mövzu ilə bağlı şəxsi hiss və düşüncələrini ifadə edir. | • Təsvir xarakterli esse | • Şəxsi hiss və düşüncələrin əks olunduğu təsvir xarakterli essenin yazılması, müzakirəsi. |
| **VI sinif** | | |
| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | | |
| **I. Lirika (heca, sərbəst vəznli şeir)** | | |
| **Standart 6-1.1.** Lirik əsərləri oxuyur və anlayır. | | |
| 6-1.1.1. Şeirdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 6-1.1.2. Şeirdə ahəng yaradan vasitələri müəyyənləşdirir. | • Rədif | • Ahəngin yaranmasında rədifin rolunun nümunələrlə əsaslandırılması. |
| 6-1.1.3. Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Mübaliğə<br>• Bədii sual | • "Mübaliğə", "bədii sual" anlayışlarının mahiyyətinin fərqli nümunələrlə aydınlaşdırılması. |

| | | |
|---|---|---|
| | | • *Beyin həmləsi metodunun tətbiqi.* |
| 5-1.1.4. Şeirin mətnini anlayaraq oxuyur. | • Mətndə ifadə olunmuş hiss, düşüncə və mətləblər<br>• Hiss, düşüncə, mətləblərin ilkin qavranılmasının müəllif fikrinin başa düşülməsinə təsiri<br>• Lirik qəhrəman | • Lirik qəhrəmanın hiss və düşüncələrinin aydınlaşdırılması məqsədilə müzakirənin təşkili.<br>• Lirik qəhrəmanın hiss və düşüncələri ilə bağlı ilkin yozumların müzakirəsi. |
| 6-1.1.5. Şeirin janrını müəyyənləşdirir. | • Sərbəst şeir (ilkin təsəvvür).<br>• Heca vəznində yazılmış şeirin janr xüsusiyyətləri<br>• Şeirin ideyasının başa düşülməsində janrın rolu | • Şeirin janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi məqsədilə tapşırıqların yerinə yetirilməsi.<br>• Nəticənin müzakirəsi.<br>• *Şaxələndirmə metodundan istifadə.* |
| 6-1.1.6. Şeirin vəznini müəyyən edir. | • Heca vəznində yazılmış şeirlərdə hecaların sayından asılı olaraq fərqli nümunələrin yaranması | • Heca vəzninin başlıca xüsusiyyət-lərinin mənimsənilməsi məqsədilə müqayisə xarakterli tapşırıqların icrası.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 6-1.1.7. Şeirdəki mətləbləri müəyyən edir. | • Ana məhəbbəti, ana qayğısının qabarıq əks olunduğu şeirlərdə digər mətləblər | • Şeirdə əksini tapmış mətləblərin, aralarındakı əlaqələrin müəyyənləşdirilməsi və müzakirəsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Şaxələndirmə metodunun tətbiqi*. |
| 6-1.1.8. Şeirin mövzusunu müəyyən edir. | • Əsas mövzunun fərqləSndirilməsi<br>• Müəllif mövqeyinin başa düşülməsinə bunun təsiri | • Əsas (başlıca) mövzunun müəyyənləşdirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| **Standart 6-1.2.** Şeirin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 6-1.2.1. Bədii təsvir və ifadə vasitələrinin şeirdə rolunu şərh edir. | • Mübaliğə<br>• Bədii sual | • Təsvir vasitələrinin bədiiliyin artmasına təsirinin şeirdən seçilmiş nümunələrin müqayisəsi əsasında müəyyən edilməsi, işin nəticəsinin müzakirəsi. |

| | | |
|---|---|---|
| | | • *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 6-1.2.2. Şeirin əsas ideyasını şərh edir. | • Şeirdəki əsas fikir (ideya) | • Şeirin ideyasının müəyyənləşdirilməsi üzrə fərqli yozumların müzakirəsinin təşkili.<br>• Fikirlərin nümunələrlə əsaslandırılması.<br>• *Karuseldən istifadə.* |
| 6-1.2.3. Şeiri nitq texnikasının tələblərinə və məzmununa uyğun ifadəli oxuyur. | • Diksiya<br>• Sait və samit səslərin tələffüzü | • Bədii oxu ustasının ifasının dinlənilməsi və müzakirəsi.<br>• Diksiyanın (danışıq səslərinin aydın tələffüzünün) nəzərə alınması ilə oxunun təşkili və müzakirəsi. |
| **II Epik nümunələr (hekayə, təmsil), atalar sözləri, məsəllər, nağıl.** | | |
| **Standart 6-1.3.** Epik nümunələri oxuyur və anlayır. | | |
| 6-1.3.1. Bədii nümunələrdə tanış olmayan sözlərin, ifadələrin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 6-1.3.2. Mətndə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Mübaliğə<br>• Bədii sual | • Mübaliğə, bədii sual anlayışlarının mahiyyətinin aydınlaşdırılması.<br>• Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 6-1.3.3. Mətni anlayaraq oxuyur. | • Obrazların məişəti, fəaliyyəti, hadisələrin inkişafı və əlaqələri | • Obrazların məişətində, fəaliyyətində, hadisələrin inkişafında diqqətçəkən məqamların müəyyənləşdirilməsi və ilkin münasibətin bildirilməsi üzrə işin təşkili. |
| 6-1.3.4. Əsərin mövzusunu müəyyənləşdirir. | • Başlıca (əsas) mövzunun fərqləndirilməsi | • Başlıca (əsas) mövzunun müəyyən edilməsi məqsədilə yozumların dinlənilməsi, müzakirəsi. |

| | | |
|---|---|---|
| 6-1.3.5. Əsərdə başlıca hadisələrin əlaqələrini müəyyən edir. | • Hadisələrin arasındakı əlaqələrin aydınlaşdırılmasının məzmunun mənimsənilməsində, süjet xəttinin başa düşülməsində rolu | • Hadisələrin əlaqələrinin müəyyənləşdirilməsi üzrə müstəqil işin təşkili.<br>• *Şaxələndirmədən istifadə.* |
| 6-1.3.6. Əsərdəki əsas konflikti müəyyənləşdirir. | • Əsas konfliktin müəyyənləşdirilməsinin yazıçı niyyətinin başa düşülməsinə təsiri | • Əsas konfliktin müəyyənləşdirilməsi üzrə tapşırıqların icrası.<br>• Diskussiyadan istifadə. |
| 6-1.3.7. Bədii nümunələri janrlarına görə fərqləndirir. | • Atalar sözü, məsəllər (təsəvvürün zənginləşdirilməsi)<br>• Təmsil<br>• Dastan | • Bədii nümunələrin (təmsil, dastan) janr xüsusiyyətlərinin nümunələr əsasında aydınlaşdırılması üzrə tapşırıqların icrası.<br>• *Venn diaqramından, müqayisə cədvəlindən istifadə*. |
| 6-1.3.8. Obrazların davranış və əməllərindəki başlıca cəhətləri müəyyənləşdirir. | • Obrazların müxtəlif vəziyyətlərdə davranış və əməlləri | • Obrazların müxtəlif vəziyyətlərdə davranış və əməllərinin motivlərinin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• *Müqayisə cədvəlindən istifadə.* |
| 6-1.3.9. Bədii nümunələrdən bitkin parçanın məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir. | • Yaradıcı nağıletmə<br>• Bu nağıletmə formasının şagirdlərdə yaradıcı təfəkkürün inkişafına təsiri | • Bədii nümunədən bitkin parçanın yaradıcı nağıl edilməsi üzrə işin təşkili.<br>• Yaradıcı nağıletmə nümunələrinin dinlənilməsi və müzakirəsi. |
| **Standart 6-1.4.** Epik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 6-1.4.1. Obrazları davranış və əməllərinə görə səciyyələndirir. | • Obrazların davranış və əməlləri<br>• Obrazların davranış və əməlləri ilə bağlı yozumlar. | • Davranış və əməllərinə görə obrazların səciyyələndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Obrazlar xəritəsinin hazırlnması.* |
| 6-1.4.2. Yazıçı niyyətinin başa düşülməsində əlavə süjet xətlərinin rolunu şərh edir. | • Əlavə süjet xətləri<br>• Süjetdəki başlıca hadisələrlə zaman və məkanla əlaqəsi | • Əlavə süjet xətlərinin rolunun aydınlaşdırılması üzrə müstəqil işlərin təşkili, nəticənin müzakirəsi.<br>• Hadisələrin zaman və məkanla əlaqələrinin aydınlaşdırılması üzrə işin təşkili.<br>• *Müqayisə cədvəlindən istifadə.* |

| | | |
|---|---|---|
| 6-1.4.3. Bədii təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır. | • Mübaliğə<br>• Bədii sual | • Mübaliğə və bədii sualın əsərdə bədiiliyin artmasına verdiyi töhfənin nümunələr əsasında aydınlaşdırılması, nəticənin müzakirə edilməsi.<br>• *Müqayisə cədvəlindən istifadə.* |
| 6-1.4.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini mövzularına görə müqayisə edir. | • Şifahi və yazılı ədəbiyyat nümunələrinin mövzu üzrə müqayisəsi.<br>• Ədəbiyyatın hər iki qolunun qarşılıqlı əlaqəsi | • Şifahi və yazılı ədəbiyyat nümunələrinin mövzu yaxınlığını təsdiq edən nümunələr üzrə işin təşkili.<br>• Mövzu yaxınlığının səbəblərinin müzakirə yolu ilə aydınlaşdırılması.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 6-1.4.5. Əsərdəki əsas konfliktin hadisələrdə necə təzahür etdiyini əsaslandırır. | • Əsas konfliktin əsərdə təzahür formaları. | • Əsas konfliktin əsərdə təzahür formalarının müəyyənləşdirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Diskussiyanın tətbiqi.* |
| 6-1.4.6. Əsərin əsas ideyasını şərh edir. | • Əsas fikir (ideya) | • İdeyanın aydınlaşdırılması məqsədilə şagirdlərin təhlil və yozum fəaliyyətinin təşkili, nəticələrin müzakirəsi.<br>• *Karuseldən, şaxələndirmədən istifadə.* |
| 6-1.4.7. Əsərin bitkin parçasını nitq texnikasının tələblərinə və məzmununa uyğun ifadəli oxuyur. | • Samit səslərin tələffüzü | • Diksiyanın (danışıq səslərinin aydın tələffüzünün) nəzərə alınması ilə oxunun təşkili.<br>• İfaların müzakirəsi. |
| **III. Publisistik və məlumatlandırıcı mətnlər (xəbər)** | | |
| **Standart 6-1.5.** Publisistik və məlumatlandırıcı mətnləri oxuyur və anlayır. | | |
| 6-1.5.1. Mətndə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Publisistik və məlumatlandırıcı mətnlər<br>• Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə |

| | | |
|---|---|---|
| | | (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 6-1.5.2. Mətnin mövzusunu müəyyən edir. | • Xəbər<br>• Xəbər mətninin oxunmasının əsas mövzusunun müəyyənləşdirilməsinə təsiri | • Xəbər səciyyəli mətnin başlıca mövzusunun aydınlaşdırılması<br>• Xəbər səciyyəli mətnin mövzusu üzrə müzakirə.<br>• Karuseldən istifadə. |
| 6-1.5.3. Mətndəki fikirlərin mahiyyətini anlayır. | • Xəbərdə ifadə olunmuş fikirlər<br>• Fikirlərin məğzinin başa düşülməsinin əhəmiyyəti | • Xəbər məzmunlu mətndəki fikirlərin müəyyənləşdirilməsi və mahiyyətinin başa düşülməsi ilə bağlı işin təşkili.<br>• *Karuseldən istifadə.* |
| **Standart 6-1.6.** Publisistik və məlumatlandırıcı mətnlərin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 6-1.6.1. Mətndəki fikirlərin rolunu dəyərləndirir. | • Xəbər məzmunlu mətndəki fikirlərin aid olduğu sahə ilə bağlı əhəmiyyətinin dəyərləndirilməsi | • Xəbər məzmunlu mətndəki fikirlərin aid olduğu sahə ilə bağlı rolunun dəyərləndirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Auksion metodunun tətbiqi.* |
| 6-1.6.2. Mətnlə bağlı yozumlar edir. | • Mətnlə bağlı yozumlar.<br>• Mətnin ideya məzmununun aydınlaşdırılmasında yozumların rolu | • Mətnin müxtəlif komponentlərinin yozumu ilə bağlı şagird fəaliyyətinin təşkili.<br>• *Diskussiyadan istifadə.* |
| **Məzmun xətti 2. Nitq və ünsiyyət** | | |
| **Standart 6-2.1.** Şifahi nitq və ünsiyyət bacarıqları nümayiş etdirir. | | |
| 6-2.1.1. Çıxışının məzmununa uyğun plan hazırlayır. | • Sadə (azbəndli) plan<br>• Planın hazırlanmasının məzmunun məntiqli və ardıcıl ifadə edilməsinə təsiri<br>• Müxtəlif fənlər üzrə məlumatın nəzərə alınmasının planın əhatəli hazırlanmasına təsiri | • Sadə planın hazırlanması üzrə işin təşkili və tətbiqi. |

| | | |
|---|---|---|
| 6-2.1.2. Çıxışının məqsədinə uyğun təqdimat hazırlayır. | • Məqsədin aydın təsəvvür edilməsi<br>• Uyğun və konkret leksika<br>• Ədəbi tələffüz qaydaları | • Çıxışın məqsədinin aydınlaşdırılması üzrə müzakirənin təşkili.<br>• Müəyyənləşdirilmiş məqsədə uyğun hazırlanmış təqdimatın dinlənilməsi və müzakirəsi. |
| 6-2.1.3. Çıxışında mimika, jest, bədən dilindən istifadə edir. | • Mimika<br>• Jest<br>• Qamət hərəkətləri | • Fərqli mövzularda çıxışlarda mimika, jest, qamət hərəkətlərindən istifadə üzrə məşqlərin edilməsi. |
| 6-2.1.4. Mənasını yeni öyrəndiyi söz və ifadələrdən nitqində istifadə edir. | • Fəal lüğət fondu | • Mənası yeni öyrənilmiş söz və ifadələrin müxtəlif nitq şəraitində (çıxış və s.) tətbiqi üzrə tapşırıqların yerinə yetirilməsi, nəticənin müzakirəsi. |
| 6-2.1.5. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün müsbət dil ifadələrindən istifadə edir. | • Ritorik sual<br>• Müsbət dil ifadələri<br>• Obrazlı söz və ifadələrdən istifadə | • Çıxış üçün hazırlanmış təqdimatda ritorik sual, obrazlı söz və ifadələrdən istifadə üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| 6-2.1.6. Dialoji nitq prosesində fərqli situasiyaya (vəziyyətə) uyğun ünsiyyət yaradır. | • Dialoji nitq<br>• Dialoji nitqdə fikir ayrılığının, mübahisəli məqamların yaranmasının ünsiyyətdə nəzərə alınması | • Dialoji nitq prosesində meydana çıxan fərqli situasiyaya müvafiq ünsiyyətin yaradılması üzrə tövsiyələr.<br>• Real vəziyyətin yaranması prosesində müşahidənin təşkili. |
| **Standart 6-2.2.** Yazılı nitq bacarıqları nümayiş etdirir. | | |

| | | |
|---|---|---|
| 6-2.2.1. Müxtəlif növlərdə (publisistik və bədii yaradıcılıq üzrə) yazılar icra edir. | • Nağıl janrında mətn<br>• Publisistik, məlumat xarakterli yazılar: xəbər.<br>• Yazı növlərinin özünəməxsusluğu | • Öyrənilmiş nağılın məzmununa müvafiq başlanğıc və sonluğun yazılması, müzakirəsi.<br>• Öyrənilmiş nağılın məzmununa uyğun kiçik təsvirin yazılması və mətnin müvafiq hissəsinə daxil edilməsi.<br>• Nağıl janrında mətnin hazırlığı üzrə çalışmalar: mövzunun, başlanğıcın – ekspozisiyanın, əhvalat və hadisələrin, əsas konfliktin, sonluğun düşünülməsi.<br>• Nağıl janrında sadə süjetli mətnin yazılması və müzakirəsi.<br>• Ölkənin ictimai həyatı (respublika, yaxud beynəlxalq səviyyədə tədbir, idman yarışı və s.) ilə bağlı qısa xəbərin yazılması. |
| 6-2.2.2. Yazı üçün sadə plan tərtib edir. | • Sadə (azbəndli) plan<br>• Fənn üzrə bilik və məlumatlardan istifadənin plan tərtibinə təsiri | • Sadə planın hazırlanması üzrə çalışmalar<br>• Planda mövzunun və başlıca fikrin diqqət mərkəzində saxlanılması. |
| 6-2.2.3. Yazını növünə uyğun dil və ifadə xüsusiyyətləri əsasında yazır. | • Ədəbi mövzu üzrə yazıda obrazlı söz və ifadələrdən, təsvir-ifadə vasitələrindən, hikmətli kəlmələrdən istifadə;<br>• Publisistik və məlumatlandırıcı yazılarda terminlərdən, anlayışlardan istifadə | • Yazının növünə uyğun dil və ifadə xüsusiyyətlərinin nəzərə alınması ilə icra olunmuş işlərin müzakirəsi və dəyərləndirilməsi. |
| 6-2.2.4. Mənasını yeni öyrəndiyi sözlərdən yazıda məqsədinə uyğun istifadə edir. | • Mənası yeni öyrənilmiş sözlərin yazıda ardıcıl işlədilməsinin nitqdə möhkəmlənməsinə təsiri<br>• Mənası yeni öyrənilmiş sözlərdən istifadənin yazının məzmunca zənginləşməsinə təsiri | • Mənası yeni öyrənilmiş sözlərdən müxtəlif növ yazılarda istifadə olunması üzrə işin təşkili.<br>. |

| | | |
|---|---|---|
| 6-2.2.5. Hazırladığı yazını orfoqrafiya və durğu işarələri baxımından nəzərdən keçirib, düzəliş edir. | • Redaktə və korrektura. Bunların fərqi və yazıya təsiri | • İcra olunmuş yazı üzərində redaktə və korrektura işlinin təşkili (fərdi və cütlüklərdə).<br>• İşin nəticəsinin müzakirəsi. |
| 6-2.2.6. Ədəbi mövzuda essedə obrazları müqayisəli səciyyələndirir. | • Müqayisədən istifadə. | • Ədəbi mövzuda müqayisə xarakterli essenin yazılmasına hazırlıq üzrə işin təşkili.<br>• Ədəbi mövzuda müqayisə xarakterli essenin yazılması və müzakirəsi. |
| 6-2.2.7. Təhkiyə xarakterli essedə mövzu ilə bağlı şəxsi hiss və düşüncələrini əks etdirir. | • Təhkiyə xarakterli esse | • Şəxsi hiss və düşüncələri əks etdirən təhkiyə xarakterli essenin yazılmasına hazırlıq üzrə işin təşkili, essenin yazılması.<br>• Essenin müzakirəsi və dəyərləndirilməsi. |
| **VII sinif** | | |
| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | | |
| **I. Lirika (heca, sərbəst vəznli şeir), mənzum hekayə.** | | |
| **Standart 7-1.1.** Lirik əsərləri, mənzum hekayəni oxuyur və anlayır. | | |
| 7-1.1.1 Bədii nümunələrdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər və frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 7-1.1.2. Əsərdə ahəng yaradan vasitələri (misra, qafiyə, rədif, misradaxili bölgü) müəyyənləşdirir. | • Ritmik fasilə<br>• Misradaxili bölgü | • Anlayışların mahiyyətinin aydınlaşdırılması.<br>• Ahəngə təsirinin nümunələrlə nümayiş etdirilməsi. |

| | | |
|---|---|---|
| 7-1.1.3.Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Təkrir | • Bədii nümunələrdə təkririn müəyyənləşdirilməsi üzrə işin təşkili. |
| 7-1.1.4. Əsərin mətnini anlayaraq oxuyur. | • Əsərdə ifadə olunmuş başlıca mətləblər(sosial, siyasi, milli -bəşəri) | • Oxu zamanı mətnin məzmununun qavranılması, informasiyanın bütünlüklə dərk edilməsi.<br>• *İkihissəli gündəlikdən istifadə*. |
| 7-1.1.5. Əsərin janrını müəyyənləşdirir. | • Mənzum hekayə (ilkin təsəvvür<br>• Mənzum hekayənin janr xüsusiyyətləri<br>• Heca və sərbəst vəznlərdə yazılmış şeirlərin janr xüsusiyyətləri | • Bədii nümunələrin janr xüsusiyyətlərinin aydınlaşdırılması məqsədilə tapşırıqların yerinə yetirilməsi.<br>• *Şaxələndirmədən istifadə.* |
| 7-1.1.6. Əsərin vəznini müəyyənləşdirir. | • Mənzum hekayələrin vəzn xüsusiyyətləri.<br>• Heca və sərbəst şeir nümunələrinin vəzn xüsusiyyətləri | • Bədii nümunələrin vəzn xüsusiyyətlərinin müəyyənləşdirilməsi üzrə tapşırıqların icrası.<br>• İşin nəticəsinin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 7-1.1.7. Şeirdəki mətləbləri müəyyən edir. | • Təbiət mövzusunda şeirlərdə digər mətləblər | • Təbiət haqqında şeirlərin məzmunu üzrə iş.<br>• Şeirdə əks olunmuş mətləblərin əlaqələrinin müəyyənləşdirilməsi.<br>• *Rəy cədvəlindən istifadə.* |
| 7-1.1.8. Əsərin mövzusunu müəyyən edir. | • Əsərdə başlıca mövzunun fərqləndirilməsi | • Əsərin başlıca mövzusunun müəyyən edilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| **Standart 7-1.2.** Şeir və mənzum hekayə nümunələrinin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 7-1.2.1. Əsərdə bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir. | • Təkrir | • Təsvir və ifadə vasitələrinin (təkrir və s.) bədiiliyin artmasına təsirinin müəyyən edilməsi üzrə işin təşkili. |

| | | |
|---|---|---|
| 7-1.2.2. Əsərin əsas ideyasını şərh edir. | • Əsərdəki əsas fikir (ideya)<br>– Fərqli yozumlar | • Əsərin əsas ideyasının aydınlaşdırılması üzrə müzakirənin təşkili.<br>• Əhəmiyyətlilik baxımından ideyanın dəyərləndirilməsi üzrə müzakirə. |
| 7-1.2.3. Şeiri, mənzum hekayədən bitkin parçanı məntiqi oxunun ifadəlilik vasitələrinin tələblərinə və əsərin ideya məzmununa uyğun ifadəli oxuyur. | • Məntiqi fasilə, məntiqi vurğu | • Məntiqi fasilə, məntiqi vurğunun nəzərə alınması ilə nümunələrin ifadəli oxusu üzrə işin təşkili. |
| **II. Epik nümunələr (hekayə, novella, təmsil), rəvayətlər, nağıl, dastan.** | | |
| **Standart 7-1.3.** Epik əsərləri oxuyur və anlayır. | | |
| 7-1.3.1 Bədii nümunələrdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər və frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 7-1.3.2. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Təkrir | • “Təkrir” anlayışının öyrənilən bədii mətnlərdə müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• Nəticənin müzakirəsi. |
| 7-1.3.3. Mətni anlayaraq oxuyur. | • Obrazların xarakter və əməlləri barədə ilkin təsəvvürün yaranması<br>• Hadisələrin inkişafı barədə təsəvvürün qazanılması | • Obrazların xarakter və əməlləri ilə bağlı ilkin təsəvvürü əks etdirən təqdimatların hazırlanması.<br>• Əsərdəki hadisələrin inkişafı İlə bağlı ilkin təəssüratın müzakirəsi. |
| 7-1.3.4. Əsərin mövzusunu müəyyənləşdirir. | • Əsas (başlıca) mövzu | • Əsas mövzunun müəyyən edilməsi üzrə yozum fəaliyyətinin təşkili.<br>• *Diskussiyanın tətbiqi.* |

| | | |
|---|---|---|
| 7-1.3.5. Əsərdə hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirir. | • Hadisələrin səbəb-nəticə əlaqələri | • Hadisələrin səbəb-nəticə əlaqələrinin mətndən seçilmiş nümunələr əsasında müəyyənləşdirilməsi üzrə işin təşkili. |
| 7-1.3.6. Əsərdəki əsas konflikti müəyyənləşdirir. | • Əsas konflikt | • Əsərdəki əsas konfliktin müəyyənləşdirilməsi üzrə tapşırığın yerinə yetirilməsi, nəticənin müzakirəsi. |
| 7-1.3.7. Bədii nümunələri janrlarına görə fərqləndirir. | • Novella (ilkin təsəvvür)<br>• Rəvayət (ilkin təsəvvür)<br>• Dastan (ilkin təsəvvür) | • Əsərin janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• *Müqayisə cədvəli, konseptual cədvəl, Venn diaqramından istifadə.* |
| 7-1.3.8. Müəllifin obrazlara münasibətini müəyyənləşdirir. | • Müəllifin obrazlara münasibəti. | • Əsərdə müəllifin obrazlara münasibətini əks etdirən səciyyəvi nümunələrin seçilməsi.<br>• *Obrazlar xəritəsi, konseptual cədvəldən istifadə.* |
| 7-1.3.9. Əsərdən bitkin parçanın məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir. | • Nağıletmə | • Nağıletmə formalarından birinin tətbiqi ilə əsərdən bitkin parçanın məzmununun danışılması üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| **Standart 7-1.4.** Epik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 7-1.4.1. Obrazları müqayisəli səciyyələndirir. | • Obrazların müqayisəsi<br>• Obrazların portret, nitq, xarakter və əməllərinin müqayisəsi | • Obrazların müqayisəli öyrənilməsi üzrə müstəqil işin təşkili.<br>• İşin nəticəsinin müzakirəsi və dəyərləndirilməsi.<br>• *Müqayisə cədvəli, Venn diaqramından istifadə.* |
| 7-1.4.2. Əsas və əlavə süjet xətlərinin əlaqələrini izah edir. | • Əsas süjet xətti<br>• Əlavə süjet xətti<br>• Zaman və məkan əlaqələri | • Əsas və əlavə süjet xətlərinin əlaqələrinin aydınlaşdırılması və dəyərləndirilməsi məqsədilə tapşırıqların yerinə yetirilməsi.<br>• *Şaxələndirmədən istifadə.* |

| | | |
|---|---|---|
| 7-1.4.3. Bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir. | • Təkrir | • "Təkrir" anlayışının mahiyyətinin öyrənilən əsərdən və digər bədii mətnlərdən seçilmiş nümunələrlə aydınlaşdırılması.<br>• Təkririn roluna dair tapşırıqların icrası, nəticənin müzakirəsi. |
| 7-1.4.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini məzmunlarına görə müqayisə edir. | • Bədii əsərin məzmunu | • Şifahi və yazılı ədəbiyyat nümunələrinin məzmun baxımından müqayisəsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 7-1.4.5. Əsərin ideyasının müəyyənləşdirilməsində əsas konfliktin rolunu izah edir. | • Əsərin ideyası ilə əsas konfliktin əlaqəsi | • Əsərin ideyası ilə əsas konfliktin əlaqəsinin *keys-metodun* tətbiqi ilə aydınlaşdırılması, nəticənin müzakirəsi. |
| 7-1.4.6. Əsərin əsas ideyasını şərh edir. | • Əsərdə ifadə edilmiş başlıca fikir (ideya) | • İdeyanın aydınlaşdırılması məqsədilə təhlil və yozum fəaliyyətinin təşkili, nəticələrin müzakirəsi. |
| 7-1.4.7. Əsərdən bitkin parçanı ifadəlilik vasitələrinin tələblərinə və əsərin ideyasına uyğun ifadəli oxuyur. | • Məntiqi fasilə<br>• Məntiqi vurğu | • Məntiqi fasilə, məntiqi vurğunun nəzərə alınması ilə nümunələrin ifadəli oxusu, nəticənin müzakirəsi. |
| 7-1.4.8. Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələri dəyərləndirir. | • Əsərdə mühüm hadisələr<br>• Hadisələrin yozumu | • Obrazların həyatında mühüm rolu olan hadisələrin mahiyyətinin dəyərləndirilməsi üzrə yozumlar.<br>• *Müstəqil işlərin, diskussiyanın tətbiqi.* |
| **III. Publisistik və məlumatlandırıcı mətnlər (ədəbi məktub).** | | |
| **Standart 7-1.5.** Publisistik və məlumatlandırıcı mətnləri oxuyur və anlayır. | | |
| 7-1.5.1. Mətndə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin mətndəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi. |

| | | |
|---|---|---|
| | | • Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 7-1.5.2. Mətnin mövzusunu müəyyənləşdirir. | • Ədəbi məktub<br>• Əsas (başlıca) mövzu | • Ədəbi məktubun başlıca mövzusunun müəyyənləşdirilməsi üzrə müstəqil işin təşkili, müzakirə. |
| 7-1.5.3. Mətndəki əsas və yardımçı fikirləri müəyyənləşdirir. | • Ədəbi məktubda əsas və yardımçı fikirlər | • Ədəbi məktubda əsas və yardımçı fikirlərin şaxələndirmədən istifadə ilə müəyyən edilməsi.<br>• Nəticənin müzakirəsi. |
| **Standart 7.1.6.** Publisistik və məlumatlandırıcı mətnlərin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 7-1.6.1. Mətndəki əsas və yardımçı fikirlərin əlaqələrini dəyərləndirir. | • Ədəbi məktubda əsas və yardımçı fikirlərin qarşılıqlı əlaqəsi | • Mətnlərdə əsas və yardımçı fikirlərin əlaqələrinin dəyərləndirilməsi üzrə işin təşkili.<br>• *Şaxələndirmədən istifadə.* |
| 7-1.6.2. Mətndəki fakt və məlumatlarla bağlı yozumlar edir. | • Ədəbi məktubdakı fakt və məlumatlar | • Mətnlərdəki fakt və məlumatlarla bağlı yozumların reallaşdırılması üzrə işin təşkili və müzakirəsi. |
| 7-1.6.3. Mətndəki başlıca fikri (ideyanı) dəyərləndirir. | • İdeya (başlıca fikir) | • Mətndəki başlıca fikrin (ideyanın) dəyərləndirilməsi.<br>• *Problemin həlli metodunun tətbiqi* |
| **Məzmun xətti 2. Nitq və ünsiyyət** | | |
| **Standart 7-2.1.** Şifahi nitq və ünsiyyət bacarıqları nümayiş etdirir. | | |
| 7-2.1.1. Çıxışının məzmununa uyğun plan hazırlayır. | • Sadə plan | • Sadə planın tərtibi (natiqin özünü təqdim etməsi, çıxışın mövzusu, məqsədi, aktuallığı, əhatə olunacaq əsas məsələlər, ona nail olmaq yolları, nəticə, suallara cavab) üzrə işin təşkili. |

| | | |
|---|---|---|
| 7-2.1.2. Çıxışının məzmununu məntiqli ifadə edən təqdimat hazırlayır. | • Fikirlər arasında qarşılıqlı əlaqələrin qurulması<br>• Fikirlərin dəlillərlə əsaslandırılması | • Təqdimatım məzmununa aid fikirlərin əlaqələndirilməsi üzrə tapşırıqların icrası.<br>• Fikirlərin dəlillərlə əsaslandırılması üzrə işin təşkili. |
| 7-2.1.3. Çıxışında bədən dilindən istifadə edir. | • Mimika, jest və qamət hərəkətləri | • Mimika, jest və qamət hərəkətlərinin məzmuna uyğunluğunun çıxışların dinlənilməsi əsasında müzakirə edilməsi.<br>• Fərqli mövzularda çıxışların dinlənilməsi, mimika, jest və qamət hərəkətlərindən istifadə edilməsi üzrə məşqlərin edilməsi. |
| 7-2.1.4. Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki mövqeyinə və digər sözlərlə əlaqəsinə çıxışında diqqət edir. | • Sözlərin cümlədəki mövqeyi və bir-biri ilə əlaqəsi | • Fikrin aydın çatdırılması məqsədilə sözlərin dəqiq seçilməsi, əlaqələndirilməsi üzrə işin təşkili. |
| 7-2.1.5. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün əyani vasitələrdən istifadə edir. | • Əyani vasitələrdən istifadə | • Müvafiq əyani vasitələrdən istifadə ilə tapşırıqların yerinə yetirilməsi, nəticəni müzakirəsi. |
| 7-2.1.6. Dialoji nitq şəraitində (prosesində) müsbət dil ifadələrindən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir. | • Ritorik sual<br>• Obrazlı söz və ifadələr | • Müsbət dil ifadələrindən (obrazlı söz, ifadə, sual-cavab, replika, əlavələr və s.) istifadə ilə dialoji nitq şəraitində ünsiyyətin davamlılığına nail olunması üzrə məşqlərin edilməsi. |
| **Standart 7-2.2.** Yazılı nitq bacarıqları nümayiş etdirir. | | |

| | | |
|---|---|---|
| 7-2.2.1. Müxtəlif növlərdə (publisistik və bədii yaradıcılıq üzrə) yazılar icra edir. | • Hekayə janrında mətn<br>• Publisistik, məlumat xarakterli yazılar: ədəbi məktub<br>• Yazı növlərinin özünəməxsusluğu | • Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmalar: mövzunun, problemin müəyyənləşdirilməsi, təsvir olunacaq əhvalat və hadisələrin, əsas konfliktin, sonluğun düşünülməsi.<br>• Sadə süjetli, kiçikhəcmli hekayə mətninin yazılması, müzakirəsi.<br>• Ədəbi mövzuda məktubun yazılması, icrasının müzakirəsi. |
| 7-2.2.2. Yazı üçün sadə plan tərtib edir. | • Sadə (azbəndli) plan | • Sadə planın tərtibi üzrə çalışmalar.<br>• Müxtəlif fənlər üzrə mənimsənilmiş bilik və məlumatların tətbiqi üzrə işin təşkili. |
| 7-2.2.3. Yazını növünə uyğun dil və üslub xüsusiyyətləri əsasında icra edir. | • Ədəbi mövzu üzrə yazıda obrazlı söz və ifadələr, təsvir-ifadə vasitələri, hikmətli kəlmələr;<br>• Publisistik və məlumatlandırıcı yazılarda terminlər, anlayışlar | • Yazının növünə uyğun dil və üslub xüsusiyyətlərinin nəzərə alınması əsasında icra olunan işlərin müzakirəsi və dəyərləndirilməsi. |
| 7-2.2.4. Mənasını yeni öyrəndiyi sözlərdən cümlədə üslubi məqama uyğun istifadə edir. | • Mənası yeni öyrənilmiş sözlərdən fərqli yazı növlərində işlənməsi | • Mənası yeni öyrənilmiş sözlərin müxtəlif növ yazılarda üslubi məqama uyğun işlədilməsi üzrə işin təşkili. |
| 7-2.2.5. Yazının növünə uyğun dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir. | • Yazının dil xüsusiyyətləri | • Müxtəlif növ yazıların uyğun dil xüsusiyyətləri əsasında icra edildiyinin müəyyənləşdirilməsi üzrə işin təşkili və müzakirəsi. |
| 7-2.2.6. Ədəbi mövzuda essedə obrazlara müqayisə əsasında münasibət bildirir. | • Ədəbi mövzuda esse | • Ədəbi mövzuda essenin icrası, məzmununun dəyərləndirilməsi. |

| | | |
|---|---|---|
| | | |
| 7-2.2.7. Mühakimə xarakterli essedə mövzu ilə bağlı şəxsi hiss və düşüncələrinə geniş yer verir. | • Mühakimə xarakterli esse | • Mühakimə xarakterli esse üçün səciyyəvi olan cəhətlərin müzakirəsi.<br>• İcra olunmuş yazının təhlili, dəyərləndirilməsi. |
| **VIII sinif** | | |
| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | | |
| **I. Lirika (heca, əruz vəznli şeir); mənzum hekayə, poema.** | | |
| **Standart 8-1.1.** Lirik əsərləri, mənzum hekayə, poemanı oxuyur və anlayır. | | |
| 8-1.1.1. Mətndə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, termin və frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 8-1.1.2. Əsərdə ahəng yaradan vasitələri müəyyənləşdirir. | • Əruz vəzni<br>• Beyt<br>• Bəhr<br>• Təfilə. | • Bədii nümunələrin tədrisi prosesində anlayışların mahiyyətinin, ahəngin yaranmasında rolunun açıqlanması.<br>• Müstəqil işlərin təşkili, nəticənin müzakirəsi. |
| 8-1.1.3.Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Metafor<br>• Bədii təzad<br>• Kinayə | • Anlayışların mahiyyətinin fərqli nümunələrlə aydınlaşdırılması.<br>• Bədii mətndə metafor, bədii təzad, kinayənin müəyyənləşdirlməsi üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |

| | | |
|---|---|---|
| 8-1.1.4. Əsərin mətnini anlayaraq oxuyur. | • Satira, yumor<br>• Əsərdə ifadə olunmuş başlıca mətləblərin müəyyənləşdirilməsi | • Əsərdəki komik vasitələrin – satira və yumorun mahiyyətinin aydınlaşdırılması üzrə işin təşkili.<br>• Əsərdəki mətləblərin aydınlaşdırılması məqsədilə müzakirənin təşkili. |
| 8-1.1.5. Əsərin janr xüsusiyyətlərini müəyyənləşdirir. | • Poema (ilkin təəssürat) | • Əsərin janr xüsusiyyətlərinin aydınlaşdırılması məqsədilə tapşırıqların yerinə yetirilməsi.<br>• Nəticənin müzakirəsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 8-1.1.6. Əsərin vəzn xüsusiyyətlərini izah edir. | • Vəzn xüsusiyyətləri<br>• Əruz vəzni | • Vəznlə bağlı mənimsənilmiş bilik və bacarıqların zənginləşdirilməsi, tətbiqi məqsədilə müstəqil işlərin icrası və müzkirəsi. |
| 8-1.1.7. Əsərdəki mətləbləri müəyyənləşdirir. | • Bədii nümunələrdə ifadə olunmuş əsas mətləblər | • Bədii nümunələrdə əksini tapmış mətləblərin müəyyənləşdirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Nəticənin müzakirəsi. |
| 8-1.1.8. Əsərin mövzusunu müəyyən edir. | • Əsərin mövzusu | • Əsərin əsas mövzusunun müəyyən edilməsi üzrə tapşırıqların icrası və müzakirəsi. |
| **8-1.2.** Şeir, mənzum hekayə və poema nümunələrinin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 8-1.2.1. Bədii təsvir və ifadə vasitələrinin əsərdə rolunu izah edir. | • Metafor<br>• Bədii təzad<br>• Kinayə | • Təsvir və ifadə vasitələrinin (metafor, bədii təzad, kinayə) bədiiliyin artmasına təsirinin müəyyən edilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Problemin həlli, Venn diaqramı metodlarından istifadə.* |
| 8-1.2.2. Əsərin əsas ideyasını şərh edir. | • İdeya | • Əsərin ideyasının aydınlaşdırılması üzrə yozumların dinlənilməsi və müzakirəsi.<br>• İdeyanın – müəllif niyyətinin dəyərləndirilməsi.<br>• *Karuseldən istifadə.* |

| | | |
|---|---|---|
| 8-1.2.3. Şeiri, mənzum hekayədən bitkin parçanı məntiqi oxunun ifadəlilik vasitələrinin tələblərinə və ideya məzmununa uyğun ifadəli oxuyur. | • Məntiqi fasilə<br>• Məntiqi vurğu | • Məntiqi fasilə, məntiqi vurğunun nəzərə alınması ilə nümunələrin ifadəli oxusu.<br>• Nəticənin müzakirəsi. |
| 8-1.2.4. Əsərdə mühüm mətləbləri dəyərləndirir. | • Milli, bəşəri dəyərlər, tarixi, sosial mətləblər<br>• Əsərdəki mühüm mətləblərlə zaman və məkanın əlaqəsi | • Əsərdəki mühüm mətləblərin aydınlaşdırılması məqsədilə tapşırıqların icrası.<br>• Əsərdəki əsas mətləblərlə zaman və məkanın əlaqələrinin aydınlaşdırılması üzrə müstəqil işin təşkili.<br>• Nəticənin müzakirəsi. |
| 8-1.2.5. Əsərdə yaradıcılıq metodunun xüsusiyyətlərini dəyərləndirir. | • Maarifçi realizm<br>• Tənqidi realizm<br>• Romantizm<br>• Azərbaycan ədəbiyyatında meydana gəlməsi, ilk nümayəndələri | • Əsərdə yaradıcılıq metodunun başlıca xüsusiyyətlərinin nümunələr əsasında müəyyənləşdirilməsi və müzakirəsi. |
| **II. Epik nümunələr (hekayə, novella, povest), lətifələr, dastan.** | | |
| **Standart 8-1.3.** Epik nümunələri oxuyur və anlayır. | | |
| 8-1.3.1. Mətndə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, termin və frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 8-1.3.2. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Metafor<br>• Bədii təzad<br>• Kinayə | • Bədii mətnlərdə “metafor”, “bədii təzad”, “kinayə” anlayışlarının müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• Nəticənin müzakirəsi. |

| | | |
|---|---|---|
| 8-1.3.3. Mətni anlayaraq oxuyur. | • Obrazların məişəti<br>• Obrazların fəaliyyəti<br>• Hadisələrin inkişafı, əlaqələri | • Obrazların fəaliyyətində, hadisələrin məzmununda və inkişafında diqqətçəkən məqamların müəyyənləşdirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Şaxələndirmədən istifadə.* |
| 8-1.3.4. Əsərin mövzusunu müəyyənləşdirir. | • Başlıca (əsas) mövzunun fərqləndirilməsi | • Başlıca (əsas) mövzunun müəyyən edilməsi məqsədilə şagirdlərin və yozum fəaliyyətinin təşkili.<br>• Diskussiyanın tətbiqi. |
| 8-1.3.5. Əsərdə mühüm hadisələrin müəllif niyyətinin başa düşülməsində rolunu aydınlaşdırır. | • Əsərdəki başlıca hadisələr | • Əsərinin ideyasının, müəllif niyyətinin başa düşülməsində başlıca hadisələrin rolunun aydınlaşdırılması üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 8-1.3.6. Əsərdəki əsas konflikti müəyyənləşdirir. | • Əsərdəki əsas konflikt | • Əsərdəki əsas konfliktin müəyyənləşdirilməsi üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 8-1.3.7. Bədii nümunələri janrlarına görə fərqləndirir. | • Lətifə (təsəvvürün zənginləşdirilməsi)<br>• Povest (ilkin təsəvvür)<br>• Janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi. | • Bədii əsərlərin janr xüsusiyyətlərinin nümunələr əsasında aydınlaşdırılması və müzakirəsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 8-1.3.8. Obrazların nitq xüsusiyyətlərini müəyyənləşdirir. | • Obrazların nitqindəki özünəməxsusluq | • Obrazların nitqinə məxsus səciyyəvi cəhətlərin aydınlaşdırılması üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 8-1.3.9. Əsərdən bitkin parçanın məzmununu müxtəlif formalarda nağıl edir. | • Nağıletmə | • Əsərdən seçilmiş bitkin parçanın məzmununun yığcam, geniş, yaradıcı nağıl edilməsi üzrə işin təşkili, müzakirəsi. |
| 8-1.3.10. Əsərdə qaldırılmış başlıca problemi müəyyənləşdirir. | • Problem<br>• Problemin bədii həlli | • Əsərdə qaldırılmış başlıca problemin müəyyənləşdirilməsi üzrə tapşırığın icrası, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |

| **Standart 8-1.4.** Epik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
|---|---|---|
| 8-1.4.1. Obrazları nitqinə, məişət təsvirlərinə görə səciyyələndirir. | • Obrazların nitqi<br>• Məişət təsvirləri<br>• Əsərdəki zaman və məkan xüsusiyyətləri | • Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsasən səciyyələndirilməsi üzrə işin təşkili.<br>• Obrazların xarakterinə zaman və məkanın təsirinin aydınlaşdırılması üzrə tapşırığın icrası.<br>• Nəticənin müzakirəsi.<br>• *Obrazlar xəritəsindən istifadə.* |
| 8-1.4.2. Əsərin süjet və kompozisiyandakı özünəməxsusluğu dəyərləndirir. | • Süjet və kompozisiya | • Əsərin ideya məzmununun dərk edilməsində süjet və kompozisiyanın rolu ilə bağlı müsahibənin təşkili.<br>• Əsərin süjet, kompozisiya xüsusiyyətlərinin dəyərləndirilməsi məqsədilə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• *Problemin həlli metodundan istifadə.* |
| 8-1.4.3. Bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir. | • Bədii təsvir və ifadə vasitələri: metafor, bədii təzad, kinayə | • Mətndə təsvir və ifadə vasitələrinin (metafor, bədii təzad, kinayə) bədiiliyin artmasına təsirinin müəyyən edilməsi üzrə işin təşkili<br>• Nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 8-1.4.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini ideyalarına görə müqayisə edir. | • Müqayisəli təhlil | • Şifahi və yazılı ədəbiyyat nümunələrinin (nağıl, lətifə, rəvayət, dastan, hekayə, povest) ideya baxımından müqayisə edilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə*. |
| 8-1.4.5. Əsərdəki əsas konfliktin müəllif həllini dəyərləndirir. | • Əsərin əsas konfliktinin müəllif həlli | • Əsərdəki əsas konfliktin müəllf həllinə fərqli münasibətin səbəbləri üzrə müzakirə.<br>• Əsərdəki əsas konfliktin müəllif həllinin dəyərləndirilməsi üzrə debat. |
| 8-1.4.6. Əsərin əsas ideyasını şərh edir. | • Əsərdə ifadə edilmiş başlıca fikir (ideya) | • İdeyanın aydınlaşdırılması məqsədilə şagirdlərin yozum fəaliyyətinin təşkili, nəticənin müzakirəsi. |

| | | |
|---|---|---|
| 8-1.4.7. Əsərdən bitkin parçanı emosional-obrazlı ifadəliliyin tələblərinə və əsərin ideya məzmununa uyğun ifadəli oxuyur. | • Emosional-obrazlı ifadəlilik<br>• Vasitələri: təsəvvür, mətnaltı məna, ünsiyyət | • Emosional-obrazlı ifadəliliyin vasitələrinin (təsəvvür, mətnaltı məna, ünsiyyət) nəzərə alınması ilə nümunələrin oxusu və dəyərləndirilməsi. |
| 8-1.4.8. Müəllif niyyətinin başa düşülməsində əhəmiyyətli olan hadisələri dəyərləndirir. | • Müəllif niyyətinin açıq və gizli əks olunduğu hadisələr | • Müəllif niyyətini əks etdirən əhəmiyyətli hadisələrin dəyərləndirilməsi üzrə yozum fəaliyyətinin təşkili.<br>• *Karuseldən istifadə.* |
| 8-1.4.9. Əsərdə yaradıcılıq metodunun xüsusiyyətlərini dəyərləndirir. | • Yaradıcılıq metodları | • Əsərdə yaradıcılıq metodunun başlıca xüsusiyyətlərinin dəyərləndirilməsi üzrə işin təşkili.<br>• *Diskussiyadan istifadə*. |
| 8-1.4.10. Əsərdə qaldırılmış başlıca problemə münasibət bildirir. | • Bədii əsərdə problem | • Əsərdə qaldırılmış başlıca problemə əsaslandırılmış münasibətin bildirilməsi məqsədilə müstəqil işin təşkili, nəticənin müzakirəsi.<br>• *Problemin həlli metodunun tətbiqi.* |
| **III. Dramatik nümunələr (dram).** | | |
| **Standart 8-1.5.** Dramatik nümunələri oxuyur və anlayır. | | |
| 8-1.5.1.Əsərdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər və frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi nəticənin müzakirəsi. |
| 8-1.5.2. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Metafor<br>• Bədii təzad<br>• Kinayə | • "Metafor", "bədii təzad", "kinayə" anlayışlarının mahiyyətinin fərqli nümunələrlə aydınlaşdırılması.<br>• Anlayışların əsərdə müəyyənləşdirilməsi üzrə işin təşkili. |

| | | |
|---|---|---|
| 8-1.5.3. Obrazların xarakterinin aydınlaşdırılmasında əhəmiyyətli olan səhnələri müəyyən edir. | • Əsərdəki mühüm səhnələr | • Obrazların xarakterinin aydınlaşdırılması imkanları ilə bağlı müsahibənin təşkili.<br>• Obrazların xarakterinin aydınlaşdırılmasında əhəmiyyətli olan səhnələrin müəyyənləşdirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 8-1.5.4. Əsərdə qaldırılmış əsas problemi müəyyənləşdirir. | • Problem<br>• Problemin bədii həlli | • "Bədii əsərdə qaldırılmış problem", "problemin bədii həlli" anlayışlarının mahiyyətinin aydınlaşdırılması üzrə işin təşkili.<br>• Əsərdə qaldırılmış əsas problemin müəyyənləşdirilməsi üzrə tapşırığın icrası, nəticənin müzakirəsi.<br>• *Problemin həlli metodunun tətbiqi.* |
| 8-1.5.5.Əsərdəki əsas konflikti müəyyənləşdirir. | • Dram əsərlərində konflikt | • Dram əsərlərində konfliktin mahiyyəti, xarakteri ilə bağlı fikir mübadiləsi.<br>• Dram əsərindəki əsas konfliktin müəyyənləşdirilməsi imkanları üzrə müzakirə.<br>• Əsərdə əsas konfliktin müəyyənləşdirilməsi üzrə tapşırığın icrası, nəticənin müzakirəsi. |
| 8-1.5.6. Əsərin janrının yaranma tarixini, başlıca xüsusiyyətlərini müəyyənləşdirir. | • Dram (ilkin təsəvvürün yaradılması)<br>• Janrın yaranma tarixi.<br>• Janrın başlıca xüsusiyyətləri<br>• Monoloq, dialoq, remarka (ilkin təsəvvürün yaradılması) | • Dərslik və digər mənbələrdən əldə edilmiş məlumat əsasında "dram" anlayışının və janrın mahiyyətinin aydınlaşdırılması üzrə müzakirənin təşkili.<br>• Əsərin janr xüsusiyyətlərinin nümunələr əsasında aydınlaşdırılması və müzakirəsi.<br>• "Monoloq", "dialoq", "remarka" anlayışları ilə bağlı nümunələr əsasında ilkin təsəvvürün yaradılması.<br>• *Problemin həlli, karusel metodlarının tətbiqi.* |
| 8-1.5.7. Əsərin mövzusunu müəyyən edir. | • Əsərin əsas mövzusu | • Əsərin əsas mövzusunun müəyyənləşdirilməsi üçün onda təsvir olunmuş mühüm hadisələrə, obrazların niyyət və məqsədlərinə, |

| | | |
|---|---|---|
| | | müəllif mövqeyinə diqqət yetirməyi tələb edən tapşırıqların icrası və müzakirəsi. |
| **Standart 8.1.6.** Dramatik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 8-1.6.1. Obrazları fərqli vəziyyətlərdə nitqinə, davranışlarına əsaslanmaqla səciyyələndirir. | • Dram əsərində obrazların nitqi<br>• Obrazların davranışları | • Obrazların fərqli vəziyyətlərdə nitq-danışıq xüsusiyyətlərinin aydınlaşdırılması üzrə işin təşkili.<br>• Obrazların səciyyələndirilməsində nitq xüsusiyyətlərinin nəzərə alınması üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• Obrazların fərqli vəziyyətlərdə sərgilədiyi davranışın motivlərinin təhlilə cəlb olunması üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi.<br>• *Problemin həlli, obrazlar xəritəsindən istifadə.* |
| 8-1.6.2. Bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. | • Metafor<br>• Bədii təzad<br>• Kinayə | • Təsvir və ifadə vasitələrinin (metafor, bədii təzad, kinayə) bədiiliyin artmasına təsirinin müəyyən edilməsi üzrə işin təşkili.<br>• *Müqayisə cədvəlindən*, *Venn diaqramından* istifadə. |
| 8-1.6.3. Əsərdə qaldırılmış əsas problemə münasibət bildirir. | • Dram əsərində əsas problem | • Əsərdə qaldırılmış əsas problemlə zaman və məkan əlaqələrinin aydınlaşdırılması üzrə müzakirənin təşkili.<br>• Əsas problemin dəyərləndirilməsi üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi. |
| 8-1.6.4. Əsərdəki konfliktlərin yaranma səbəblərini izah edir. | • Konflikt | • Əsərdəki konfliktlərin başvermə səbəblərinin aydınlaşdırılması və izah edilməsi məqsədilə təhlil və yozum fəaliyyətinin təşkili.<br>• Nəticənin müzakirəsi. |
| 8-1.6.5. Əsərin süjet və kompozisiya xüsusiyyətlərinə münasibət bildirir. | • Süjetin mərhələlərindəki özünəməxsusluq<br>• Kompozisiya xüsusiyyətləri | • Süjetinin mərhələlərinin izlənilməsi və dəyərləndirilməsi üzrə tapşırıqların icrası.<br>• Səhnələrin, epizodların, qarşılıqlı əlaqələrinin dəyərləndirilməsi üzrə işin təşkili. |

| | | |
|---|---|---|
| | | • İcra olunmuş işlərin nəticəsinin müzakirəsi. |
| 8-1.6.6. Əsərdə yaradıcılıq metodunun xüsusiyyətlərinə münasibət bildirir. | • Bədii yaradıcılıq metodu | • Yradıcılıq metodunun əsərdə təzahür xüsusiyyətlərinin müzakirəsi və dəyərləndirilməsi. |
| 8-1.6.7. Əsərin əsas ideyasını şərh edir. | • Əsərdə ifadə edilmiş başlıca fikir (ideya) | • İdeyanın aydınlaşdırılması məqsədilə şagirdlərin yozum fəaliyyətinin təşkili, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 8-1.6.8. Monoloqları emosional-obrazlı ifadəliliyin tələblərinə uyğun ifadəli oxuyur. | • Emosional-obrazlı ifadəlilik<br>• Vasitələri: təsəvvür, mətnaltı məna, ünsiyyət | • Emosional-obrazlı ifadəliliyin vasitələrinin (təsəvvür, mətnaltı məna, ünsiyyət) nəzərə alınması ilə nümunələrin ifadəli oxusu və müzakirəsi. |
| **IV. Publisistik və məlumatlandırıcı mətnlər (oçerk, xatirə).** | | |
| **Standart 8-1.7.** Publisistik və məlumatlandırıcı mətnləri oxuyur və anlayır. | | |
| 8-1.7.1. Mətndə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 8-1.7.2. Mətnin məzmununun məqsədi ifadə etdiyini aydınlaşdırır. | • Portret səciyyəli oçerk<br>• Xatirə səciyyəli yazı | • Portret-oçerklərin və xatirə səciyyəli yazıların xüsusiyyətləri ilə bağlı müsahibənin təşkili.<br>• Mətnlər üzrə iş prosesində məzmunun məqsədi necə ifadə etdiyinin aydınlaşdırılması və müzakirəsi. |

| | | |
|---|---|---|
| 8-1.7.3. Mətndə başlıca problemi müəyyənləşdirir. | • Oçerkdə problem və əsas ideya<br>• Xatirə səciyyəli yazıda başlıca problem | • Oçerkdə diqqətə çatdırılan problemin əhəmiyyətinin müəyyənləşdirilməsi üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi.<br>• Xatirə səciyyəli yazıda ifadə olunmuş başlıca problemin müəyyənləşdirilməsi üzrə tapşırıqların icrası, nəticənin müzakirəsi. |
| **Standart 8-1.8.** Publisistik və məlumatlandırıcı mətnlərin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 8-1.8.1. Mətndə sosial, siyasi mətləbləri dəyərləndirir. | • Portret səciyyəli oçerkdə əksini tapmış mətləblər: sosial, siyasi<br>• Xatirə səciyyəli yazıda sosial, siyasi mətləblər | • Mətnlərdə əksini tapmış sosial, siyasi mətləblərin nümunələr əsasında dəyərləndirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| 8-1.8.2. Mətndəki başlıca problemi dəyərləndirir. | • Oçerkdə qaldırılmış başlıca problem<br>• Xatirə səciyyəli yazıda başlıca problem | • Mətnlərdəki başlıca problemin nümunələr əsasında dəyərləndirilməsi üzrə müstəqil işin yerinə yetirilməsi, nəticənin müzakirəsi.<br>• *Problemin həlli, keys-metodun tətbiqi.* |
| 8-1.8.3. Mətndəki başlıca fikri – ideyanı dəyərləndirir. | • Oçerkdə ifadə olunmuş başlıca fikir (ideya)<br>• Əxlaqi-etik nəticələr<br>• Xatirə səciyyəli mətndə başlıca fikir (ideya) | • Mətnlərdəki başlıca fikrin (ideyanın) dəyərləndirilməsi üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi.<br>• *Poblemin həlli metodunun tətbiqi.* |
| **Məzmun xətti 2. Nitq və ünsiyyət** | | |
| **Standart 8-2.1.** Şifahi nitq və ünsiyyət bacarıqları nümayiş etdirir. | | |
| 8-2.1.1. Çıxışının məzmununa uyğun plan hazırlayır. | • Plan tərtibi<br>• Məzmunun hissələri arasındakı əlaqələrin nəzərə alınması | • Sadə planın hazırlanması, tətbiqi və müzakirəsi. |
| 8-2.1.2. Məzmunu faktlarla əsaslandırılmış təqdimat hazırlayır. | • Fikirlərin faktlarla əsaslandırılması | • Faktlarla əsaslandırılmış fikirlərin əks olunduğu təqdimatların hazırlanması, nəticənin müzakirəsi. |

| | | |
|---|---|---|
| 8-2.1.3. Çıxışında bədən dilindən istifadə edir. | • Mimika, jest, qamət hərəkətlərinin nitqin emosionallığına təsiri | • Mimika, jest, qamət hərəkətlərinin emosionallığın yaranmasına təsirinin nümunələr üzrə müşahidəsi və müzakirəsi. |
| 8-2.1.4. Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki mövqeyinə və digər sözlərlə əlaqəsinə çıxışında diqqət edir. | • Çıxışın məzmun dolğunluğu<br>• Nitqin inkişafı | • Müvafiq tapşırıqların yerinə yetirilməsi və müzakirəsi.<br>• Təqdimatların müzakirəsi. |
| 8-2.1.5. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün texniki vasitələrdən istifadə edir. | • Texniki vasitələrdən (kompüter, səsləndirmə və görüntü vasitələri) istifadə. | • Texniki vasitələrin tətbiqi ilə təqdimatların təşkili, dinlənilməsi və müzakirəsi. |
| 8-2.1.6. Dialoji nitq şəraitində əyani vasitələrdən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir. | • Dialoji nitq şəraitində əyani vasitələrdən istifadənin fəal dinləməyə təsiri | • Dialoji nitq şəraitində əyani vasitələrdən istifadə ilə ünsiyyətin davamlılığının, fəal dinləmənin təmin edilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| **Standart 8-2.2.** Yazılı nitq bacarıqları nümayiş etdirir. | | |
| 8-2.2.1. Müxtəlif növlərdə (publisistik və bədii yaradıcılıq üzrə) yazılar icra edir. | • Hekayə janrında mətn.<br>• Publisistik, məlumat xarakterli yazılar: oçerk (portret), xatirə<br>• Yazı növlərinin özünəməxsusluğu | • Hekayə janrında (hekayə portret) sadə süjetli mətnin yazılması və müzakirəsi.<br>• Sadə süjetli, kiçikhəcmli oçerk (portret) yazılmasına hazırlıq: mövzunun, məqsədin, qəhrəmanın obrazının, sonluğun düşünülməsi.<br>• Oçerkin yazılması, müzakirəsi.<br>• Xatirə səciyyəli mətnin yazılmasına hazırlıq: süjetin, məqsəd və sonluğun düşünülməsi.<br>• Xatirə səciyyəli yazının icrası, müzakirəsi. |
| 8-2.2.2. Yazı üçün sadə plan tərtib edir. | • Məzmunda ardıcıllığın təmin edilməsi<br>• İnformativ mənbələr üzrə araşdırmalar | • Tezislə ifadə olunmuş sadə planın tərtibi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• İnformativ mənbələr üzrə araşdırmaların nəticələrinin nəzərə alınması. |

| | | |
|---|---|---|
| 8-2.2.3. Məqsədinə uyğun olaraq yazını fərqli növdə olan cümlələrdən istifadə ilə yazır. | • Fərqli növ cümlələrdən istifadə | • Fərqli növdə olan cümlələr əsasında icra olunmuş yazıların müzakirəsi. |
| 8-2.2.4. Mənasını yeni öyrəndiyi sözlərdən cümlədə üslubi məqama uyğun istifadə edir. | • Düzgün və dəqiq nitq.<br>• Fikrin düzgün və dəqiq çatdırılması | • Mənası yeni öyrənilmiş sözlərin müxtəlif növ yazılarda üslubi məqamlara uyğun işlədilməsi üzrə işin təşkili. |
| 8-2.2.5. Hazırladığı yazını mövzunu əhatə etməsi baxımından nəzərdən keçirib düzəliş edir. | • Redaktə və korrektura | • Müxtəlif növdə icra olunmuş yazıların mövzunu əhatə etməsi baxımından redaktəsinin təşkili.<br>• Yazıda korrektura üzrə fərdi işin təşkili, təqdimatların müzakirəsi. |
| 8-2.2.6. Ədəbi mövzuda essedə qəhrəmanı nitqinə, davranış və əməllərinə görə səciyyələndirir. | • Ədəbi qəhrəmanın nitqi, davranış və əməlləri | • Ədəbi qəhrəmanın nitqinə, davranış və əməllərinə əsaslanmaqla essenin icrası və müzakirəsi. |
| 8-2.2.7. Rəy xarakterli essedə mövzu ilə bağlı şəxsi hiss və düşüncələrini ifadə edir. | • Rəy xarakterli esse.<br>• Müstəqil yazı bacarığının formalaşması | • Şəxsi hiss və düşüncələrin əks olunduğu rəy xarakterli essenin yazılması, müzakirəsi və dəyərləndirilməsi. |
| **IX sinif** | | |
| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | | |
| **I. Lirika (heca, əruz, sərbəst vəzn), poema, mahnılar.** | | |
| **Standart 9-1.1.** Lirik əsərləri oxuyur və anlayır. | | |
| 9-1.1.1. Bədii nümunələrdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizmlər, frazeoloji ifadələr | • Diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun aydınlaşdırılması.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |

| | | |
|---|---|---|
| 9-1.1.2. Əsərdə ahəng yaradan vasitələri müəyyənləşdirir. | • Ahəng<br>• Ahəng yardan vasitə: misraların bərabər vaxt ərzində oxunması | • Fərqli vəznlərdə olan şeirlərin misralarının bərabər vaxt ərzində oxunması üzrə çalışmalar.<br>• Tapşırıqların icrası və nəticələrin müzakirəsi. |
| 9-1.1.3. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Metonimiya<br>• İnversiya<br>• Simvol. | • Anlayışların mahiyyətinin fərqli nümunələr əsasında aydınlaşdırılması üzrə işin təşkili. |
| 9-1.1.4. Əsərin mətnini anlayaraq oxuyur. | • Əsərdə əksini tapmış başlıca mətləblərin (ədəbi qəhrəmanın üzləşdiyi ictimai problem, taleyindəki uğursuzluq, reallaşdıra bilmədiyi ideya) müəyyənləşdirilməsi | • Əsərdə ifadə olunmuş başlıca mətləblərin müqayisələr əsasında müəyyənləşdirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 9-1.1.5. Əsərin janr xüsusiyyətlərini müəyyənləşdirir. | • Mahnı | • Mahnının janr xüsusiyyətlərinin nümunələr əsasında aydınlaşdırılması, nəticənin müzakirəsi. |
| 9-1.1.6. Əsərin vəzn xüsusiyyətlərini aydınlaşdırır. | • Vəzn xüsusiyyətləri | • Sərbəst şeirlə bağlı mənimsənilmiş bilik və bacarıqların zənginləşdirilməsi üzrə işin təşkili.<br>• Bədii nümunələrin vəzn xüsusiyyətlərinin aydınlaşdırılması üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi. |
| 9-1.1.7. Əsərdəki mətləbləri müəyyənləşdirir. | • Əsərdə əksini tapmış siyasi mətləblər | • Mətndə əksini tapmış siyasi mətləblərin müəyyənləşdirilməsi məqsədilə tapşırıqların yerinə yetirilməsi, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 9-1.1.8. Əsərin mövzusunu müəyyənləşdirir. | • Əsərdə əsas mövzu | • Əsərin əsas mövzusunun müəyyən edilməsi üzrə tapşırığın icrası, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| **Standart 9-1.2.** Şeir və poema nümunələrinin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |

| | | |
|---|---|---|
| 10-2.1.1. Çıxışının məzmununa uyğun plan hazırlayır. | • Plan tərtibi.<br>• İnformativ mənbələr üzrə araşdırmaların aparılmasının əhatəli planın hazırlanmasına təsiri | • Plan tərtibi üzrə müstəqil işlərin təşkili və müzakirəsi. |
| 10-2.1.2. Dinləyicilərin maraq və səviyyəsinə uyğun təqdimat hazırlayır. | • Məzmunca dinləyicilərin maraq və  səviyyəsinə müvafiq təqdimat | • Fərqli mövzuda təqdimatların hazırlanması üzrə müstəqil işlərin təşkili.<br>• Dinləyicilərin maraq və səviyyəsinə uyğunluq |

| | | |
|---|---|---|
| | | baxımından təqdimatların müzakirəsi. |
| 10-2.1.3. Çıxışında bədən dilindən istifadə edir. | • Mimika, jest, qamət hərəkətləri | • Mimika, jest, qamət hərəkətlərindən istifadənin müvafiq tapşırıqlar üzrə məşq edilməsi. |
| 10-2.1.4. Mənasını yeni öyrəndiyi söz və ifadələrdən fərqli nitq məqamlarında istifadə edir. | • Mənası yeni öyrənilmiş söz və ifadələr<br>• Nitqdə dəqiqliyin, rəngarəngliyin təmin olunmasına təsiri | • Mənası yeni öyrənilmiş söz və ifadələrin fərqli nitq məqamlarında işlənilməsinə yönəlik müstəqil işlərin təşkili.<br>• Nəticənin müzakirəsi. |
| 10-2.1.5. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün emosional-obrazlı ifadəliliyə diqqət edir. | • Təqdimat prosesində emosional-obrazlı ifadəliliyə nail olunması | • Emosional-obrazlı ifadəliliyin təmin olunduğunu müşayiət etməyə imkan yaradan təqdimatların hazırlanması,dinlənilməsi və müzakirəsi. |
| 10-2.1.6. Dialoji nitq şəraitində ünsiyyətin davamlılığına nail olmaq üçün əks-əlaqənin yaranmasına diqqət edir. | • Dialoji nitq prosesində əks-əlaqənin təmin olunması | • Dialoji nitq prosesində əks-əlaqənin təmin olunması məqsədilə məşqlərin təşkili. |
| **Standrt 10.2.2.** Yazılı nitq bacarıqları nümayiş etdirir. | | |
| 10-2.2.1. Müxtəlif növlərdə (publisistik və bədii yaradıcılıq) yazılar icra edir. | • Bədii yaradıcılıq üzrə bacarıqların inkişafına yönəlik yazılar<br>• Publisistik, məlumat xarakterli yazılar<br>• Yazı növlərinin özünəməxsusluğu | • Dram janrında sinifdə öyrənilmiş əsərə əsaslanmaqla iki şəkildən ibarət birpərdəli nümunənin yazılması üzrə hazırlıq işinin aparılması: mövzunun, ideyanın, problemin, konfliktin, obrazların düşünülməsi.<br>• Mətnin yazılması və müzakirəsi.<br>• Ədəbi, yaxud sosial-siyasi mövzuda təhlil xarakterli felyetonun yazılmasına hazırlıq: mövzunun, məqsədin, problemin, onun həlli yolunun, sonluğun düşünülməsi.<br>• Felyetonun yazılması, müzakirəsi. |

| | | |
|---|---|---|
| | | • Sinifdə öyrənilmiş, yaxud müstəqil oxunmuş əsər haqqında resenziyanın yazılmasına hazırlıq: əhatə olunacaq məsələlərin, əsərin müəllifin yaradıcılığında, ədəbiyyat tarixində yerinin müəyyənləşdirilməsi üzrə fikir mübadiləsinin aparılması.<br>• Resenziyanın yazılması, müzakirəsi. |
| 10-2.2.2. Yazı üçün geniş plan tərtib edir. | • Geniş (əhatəli) plan tərtibi..<br>• Bədii və elmi mənbələr üzrə araşdırmanın əhatəli plan tərtibinə təsiri. | • Mürəkkəb plan əsasında müxtəlif növ yazıların icrası və müzakirəsi. |
| 10-2.2.3. Mənasını yeni öyrəndiyi söz və ifadələrdən yazısında şəxsi yozumlarının ifadəsi məqsədilə istifadə edir. | • Mənası yeni öyrənilmiş söz və ifadələrdən şəxsi yozumların ifadəsində istifadə | • Mənası yeni öyrənilmiş söz və ifadələrin yazıda şəxsi yozumların ifadəsi qismində tətbiqi üzrə müstəqil işlərin icrası, nəticənin müzakirəsi. |
| 10-2.2.4. Hazırladığı yazını müxtəlif növ və quruluşda olan cümlələrdən ardıcıl istifadə baxımından nəzərdən keçirib düzəliş edir. | • Müxtəlif növ və quruluşda olan cümlələrdən yazıda istifadə. | • İcra olunmuş yazının müxtəlif növ və quruluşda olan cümlələrdən ardıcıl istifadə baxımından təhlil edilməsi, nəticənin müzakirəsi. |
| 10-2.2.5. Müstəqil oxunmuş əsərlə bağlı rəy xarakterli esse yazır. | • Rəy xarakterli esse | • Müstəqil oxunmuş əsərlə bağlı rəy xarakterli essenin yazılması üzrə işin təşkili.<br>• Esselərin müzakirəsi, nəticələrin dəyərləndirilməsi. |

| **XI sinif** | | |
|---|---|---|
| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | | |
| **I. Lirika (heca, əruz, sərbəst vəzn); poema.** | | |
| **Standart 11-1.1.** Lirik əsərləri oxuyur və anlayır. | | |
| 11-1.1.1. Bədii nümunələrdə tanış olmayan sözlərin, ifadələrin mənşəyinə və | • Arxaik, alınma, dialekt sözlər, neologizm, termin və frazeoloji ifadələr | • Başlıca diqqətin kontekstdəki mənaya yönləndirilməsi. |

| | | |
|---|---|---|
| işlənmə məqamına görə mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə etməklə aydınlaşdırır. | | • Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 11-1.1.2. Əsərdə ahəng yaradan vasitələri müəyyənləşdirir. | • Müxtəlif bəhrlərin fərqli ahəngin yaranmasına təsiri<br>• Fərqli şeir şəkillərinin ahəngin yaranmasına təsiri<br>• Sərbəst şeirin özünəməxsusluğunun (misraların pilləli olması, qafiyələrin yerinin sabit olmaması, məntiqi vurğulu sözlərin çoxluğu və s.) ahəngin yaranmasına təsiri | • Müxtəlif şeir şəkillərinin spesifikliyinin ahəngin yaranmasına təsirinin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• Sərbəst şeirlərin spesifikliyinin ahəngin yaranmasına təsirinin müəyyənləşdirilməsi üzrə işin təşkili. |
| 11-1.1.3. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Sinekdoxa<br>• Nümunələrdəki digər bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi | • Anlayışın mahiyyətinin fərqli nümunələrlə aydınlaşdırılması.<br>• Nümunələrdəki bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi. |
| 11-1.1.4. Əsərin mətnini anlayaraq oxuyur. | • Əsərdə əksini tapmış mühüm ictimai-siyasi, mənəvi-əxlaqi, milli və bəşəri dəyərlər | • Əsərdə ifadə olunmuş mətləblərin – ictimai-siyasi, mənəvi-əxlaqi, milli və bəşəri dəyərlərin müzakirə əsasında müəyyənləşdirilməsi.<br>• *Karuseldən istifadə.* |
| 11-1.1.5. Lirik qəhrəmanın hiss, düşüncə və xarakterindəki başlıca cəhətləri müəyyən edir. | • Şeirdə lirik qəhrəmanın və şairin (müəllifin) mövqeyi | • Lirik qəhrəmanın hiss, düşüncə və xarakterindəki başlıca cəhətlərin müəyyənləşdirilməsi məqsədilə tapşırıqların yerinə yetirilməsi, müzakirəsi. |

| | | |
|---|---|---|
| | | • *Problemin həlli, karuseldən istifadə.* |
| 11- 1.1.6. Əsərdəki konfliktlərin xarakterini müəyyən edir. | • Konfliktlərin xarakteri: ideya, fiziki, mənəvi, intellektual, emosional | • Əsərdəki konfliktlərin xarakterinin müəyyənləşdirilməsi üzrə müzakirənin təşkili. |
| 11-1.1.7. Əsərin mövzusunu müəyyənləşdirir. | • Əsərin əsas mövzusu. | • Əsərin əsas mövzusunun müəyyən edilməsi üzrə tapşırıqların icrası, nəticəsinin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| **11.1.2.** Şeir və poema nümunələrinin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 11-1.2.1. Əsərdə bədii təsvir və ifadə vasitələrinin rolunu dəyərləndirir. | • Təsvir və ifadə vasitələri: sinekdoxa və s | • Təsvir və ifadə vasitələrinin (sinekdoxa və s.) əsərdəki bədiiliyin artmasına verdiyi töhfənin aydınlaşdırılması üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| 11-1.2.2. Əsərin əsas ideyasını şərh edir. | • Əsərin əsas ideyası | • Əsərin əsas ideyasının aydınlaşdırılması üzrə yozum fəaliyyətinin təşkili.<br>• *Diskussiyanın tətbiqi.* |
| 11-1.2.3. Şeiri, poemadan bitkin parçanı ədəbi tələffüz qaydalarına və ideya məzmununa uyğun ifadəli oxuyur. | • Ədəbi tələffüz qaydaları | • Düzgün ədəbi tələffüz normalarının nəzərə alınması ilə ifadəli oxunun təşkili..<br>• Nəticənin müzakirəsi. |
| 11-1.2.4. Əsərdə əksini tapmış mühüm mətləblərə münasibət bildirir. | • Bədii nümunələrdə əksini tapmış mətləblər: ictimai-siyasi, mənəvi-əxalqi, milli və bəşəri<br>• Əsərdə zaman və məkan | • Əsərdəki mühüm mətləblərin dəyərləndirilməsi məqsədilə müstəqil işlərin təşkili, nəticənin müzakirəsi.<br>• Əsərdə zman və məkanın mühüm mətləblərlə əlaqəsinin aydınlaşdırılması üzrə müzakirənin təşkili. |
| 11-1.2.5. Əsərdə yaradıcılıq metodunun xüsusiyyətlərini izah edir. | • Yaradıcılıq metodunun əsərin müxtəlif komponentlərində (mövzu, ideya, obraz, yazıçının fərdi üslubu və s.) təzahürü | • Yaradıcılıq metodunun əsərin müxtəlif komponentlərində təzahür formalarının |

| | | |
|---|---|---|
| | | dəyərləndirliməsi üzrə müstəqil işlərin icrası.<br>• Nəticənin müzakirəsi. |
| 11-1.2.6. Lirik qəhrəmanları müqayisəli səciyyələndirir. | • Oxşar, yaxud eyni mövzuda olan əsərlərin öyrənilməsində müqayisədən istifadə<br>• Müqayisəli səciyyələndirmənin lirik qəhrəman obrazlarının və əsərin ideya məzmununun qavranılmasına təsiri | • Lirik qəhrəmanların müqayisəli səciyyələndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi, nəticənin müzakirəsi.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 11-1.2.7. Xarakterlərinə əsaslanmaqla əsərdəki konfliktləri dəyərləndirir. | • Müxtəlif xarakterli konfliktlər: ideya, fiziki, intellektual, əxlaqi, emosional | • Müxtəlif xarakterli konfliktlərin nümunələr əsasında dəyərləndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Müqayisə cədvəlindən*, *Venn diaqramından istifadə.* |
| 11-1.2.8. Yazıçı sənətkarlığını dəyərləndirir. | • Məcaz və üslubi fiqurların orijinallığı<br>• Ədəbi qəhrəman obrazının yaradılmasındakı özünəməxsusluq<br>• Poemanın quruluşunda təzahür edən bədii sənətkarlıq | • Yazıçı sənətkarlığının dəyərləndirilməsi üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi.<br>• *Problemin həlli, rəy cədvəlinin tətbiqi.* |
| **II Epik nümunələr (hekayə, povest, roman).** | | |
| **Standart 11-1.3.** Epik nümunələri oxuyur və anlayır. | | |
| 11-1.3.1. Bədii nümunələrdə tanış olmayan sözlərin, ifadələrin mənşəyinə və işlənmə məqamına görə mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə etməklə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizm, termin və frazeoloji ifadələr | • Başlıca diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |

| | | |
|---|---|---|
| 11-1.3.2. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Sinekdoxa | • Anlayışın fərqli nümunələr əsasında müəyyənləşdiriməsi üzrə müstəqil işin təşkili.<br>• Nəticənin müzakirəsi. |
| 11-1.3.3. Mətni anlayaraq oxuyur. | • Təhkiyəçi obrazı<br>• Təhkiyənin fərqli formaları.<br>• Əsərdəki hadisələrin qarşılıqlı əlaqələri, obrazları fəaliyyətə sövq edən motivlər, fərqli məzmunda epizodlar | • Əsərdə təhkiyənin necə aparıldığının müəyyənləşdirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Əsərdəki hadisələrin qarşılıqlı əlaqələrinin, obrazları fəaliyyətə sövq edən motivlərin, müxtəlif məzmunlu epizodların araşdırılması üzrə işin təşkili.<br>• *Problemin həlli metodunun tətbiqi.* |
| 11-1.3.4.Əsərin mövzusunu müəyyənləşdirir. | • Əsərin başlıca (əsas) mövzusu | • Əsərin başlıca (əsas) mövzusunun müəyyən edilməsi məqsədilə şagirdlərin yozum fəaliyyətinin təşkili. |
| 11-1.3.5. Obrazların başa düşülməsində mühüm hadisələrin rolunu müəyyələşdirir. | • Əsərdə mühüm hadisələr | • Obrazların xarakter və dünyagörüşünün aydınlaşdırılmasında mühüm hadisələrin rolunun müəyyənləşdirilməsi üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 11-1.3.6. Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərdəki konfliktlərin xarakterini müəyyən edir. | • Konfliktlərin xarakteri: ideya, fiziki, intellektual, əxlaqi, emosional | • Əsərdəki konfliktlərin xarakterinin müəyyənləşdirilməsi üzrə müzakirənin təşkili.<br>• *Karuseldən istifadə.* |
| 11-1.3.7. Çoxsüjetli, mürəkkəb kompozisiyalı bədii nümunələrin janr xüsusiyyətlərini müəyyənləşdirir. | • Roman.<br>• Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərlərin janr xüsusiyyətləri | • “Roman” janrının özünəməxsusluğunun müəyyənləşdirilməsi üzrə müstəqil işlərin təşkili, müzakirənin təşkili. |

| | | |
|---|---|---|
| | | • Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərlərin janr xüsusiyyətlərinin aydınlaşdırılması üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• *Problemin həlli, karusel metodlarının tətbiqi.* |
| 11-1.3.8. Əsərdən bitkin parçanın məzmununu müxtəlif formalarda nağıl edir. | • Yaradıcı nağıletmə | • Əsərdən bitkin parçanın yaradıcı nağıl edilməsi üzrə işin təşkili, müzakirəsi. |
| 11-1.3.9. Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərdə qaldırılmış problemləri müəyyənləşdirir. | • Əsərdə qaldırılmış problemlər | • Əsərdəki problemlərin müəyyənləşdirilməsi məqsədilə tapşırıqların yerinə yetirilməsi.<br>• *Karuseldən istifadə.* |
| 11-1.3.10. İrihəcmli əsərlərin kompozisiya xüsusiyyətlərini müəyyənləşdirir. | • İrihəcmli əsərlərdə (povest, roman) kompozisiya mürəkkəbliyi: hadisələrin zaman və məkan baxımından qeyri-ardıcıllığı, əhvalat və hadisələrin nəticəni əsaslandırması, ədəbi qəhrəmanların psixoloji, fiziki durumu, nitq, davranış və əməllərindəki özünəməxsusluğun təsviri və fərqli təqdimi və s. | • İrihəcmli əsərlərin kompozisiya xüsusiyyətlərinin müəyyənləşdirilməsi üzrə müstəqil işlərin təşkili, müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| **Standart 11-1.4.** Epik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 11-1.4.1. Obrazları yaşadıqları dövrün sosial-siyasi vəziyyəti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir. | • Obrazların təhlilində dövrün sosial-siyasi vəziyyətinin, əxlaqi-etik dəyərlərinin nəzərə alınması<br>• Təhlildə tarixilik prinsipinin gözlənilməsi<br>• Zaman və məkan xüsusiyyətlərinin nəzərə alınması | • Obrazların təhlilində dövrün sosial-siyasi durumunun və əxlaqi-etik dəyərlərinin nəzərə alınmasını tələb edən tapşırıqların yerinə yetirilməsi, müzakirəsi.<br>• *Obrazlar xəritəsi, müqayisə cədvəli, şaxələndirmədən istifadə.* |
| 11-1.4.2. Əsərin süjet və kompozisiyasını zənginləşdirən vasitələri dəyərləndirir. | • Süjet və kompozisiyanı zənginləşdirən vasitələr: əlavə xətlər, təsvirlər, epiqraf, proloq, epiloq və s. | • Süjet və kompozisiyanın zənginləşməsində mühüm rolu olan vasitələrin mahiyyəti ilə bağlı müzakirə. |

| | | |
|---|---|---|
| | | • Süjet və kompozisiyanı zənginləşdirən vasitələrin dəyərləndirilməsi üzrə müstəqil işin təşkili və müzakirəsi. |
| 11-1.4.3. Bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir. | • Təsvir və ifadə vasitələri. sinekdoxa və s. | • Təsvir və ifadə vasitələrinin (sinekdoxa və s.) əsərin bədiiliyinin artmasındakı rolunun aydınlaşdırılması üzrə tapşırıqların icra edilməsi.<br>• *Diskussiyanın tətbiqi.* |
| 11-1.4.4. Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərlərdə konfliktlərin müəllif həllini dəyərləndirir. | • Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərlərdə müxtəlif xarakterli konfliktlər | • Konfliktlərin fərqli həlli yolları üzrə müzakirənin təşkili.<br>• Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərlərdə müxtəlif xarakterli konfliktlərin müəllif həllinin dəyərləndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi, müzakirəsi.<br>• *Problemin həlli metodunun tətbiqi.* |
| 11-1.4.5. Əsərdəki əsas ideyanı şərh edir. | • Əsərdə əsas ideyanın dəyərləndirilməsi<br>• Yozumlar | • Əsas ideyanın dəyərləndirilməsi məqsədilə ümumiləşdirmə səciyyəli tapşırıqların yerinə yetirilməsi, nəticənin müzakirəsi. |
| 11-1.4.6. Əsərdən bitkin parçanı düzgün ədəbi tələffüz qaydalarına və ideya-məzmunlarına uyğun ifadəli oxuyur. | • Düzgün ədəbi tələffüz qaydaları | • Düzgün ədəbi tələffüz normalarının (qaydalarının) nəzərə alınması ilə nümunələrin ifadəli oxusu, müzakirəsi. |
| 11-1.4.7. Çoxsüjetli, mürəkkəb kompozisiyalı əsərdə yaradıcılıq metodunun başlıca xüsusiyyətlərini dəyərləndirir. | • Seçilmiş həyat hadisələrinin əsərdə təsvir üsulu və qiymətləndirilməsi | • Həyat hadisələrinin əsərdə yaradıcılıq metodunun təbiətinə uyğun əks etdirildiyinin dəyərləndirilməsi üzrə müstəqil işlərin icrası, müzakirəsi. |
| 11-1.4.8. Çoxsüjetli, mürəkkəb kompozisiyalı | • Əsərdə bədii həlli verilmiş problemlər | • Əsərdə bədii həlli verilmiş problemlərdən bir |

| | | |
|---|---|---|
| əsərdə bədii həlli verilmiş problemləri dəyərləndirir. | | qisminin araşdırılması zəminində həyati əhəmiyyətliliyinin dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>• Problemlərin fərqli həlli yollarının müəyyənləşdirilməsi və dəyərləndirilməsi üzrə müzakirə.<br>• *Karuseldən istifadə.* |
| 11-1.4.9. Əsərlə səhnə və ekran həyatını müqayisə edir. | • Teatr (kino) sənətinin yaradıcılarını bədii əsərin cəlb etməsinin səbəbləri | • Bədii əsərdə rejissoru cəlb edən başlıca cəhətlərin müzakirəsi.<br>• Əsərlə səhnə (ekran) həyatının müqayisə edilməsi üzrə tapşırıqların icrası, müzakirənin təşkili.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| 11-1.4.10. Yazıçı sənətkarlığını dəyərləndirir. | • Tip və xarakter<br>• Ədəbi qəhrəmanların fərdiləşdirilməsi üsulları.<br>• Kütləvi səhnələrin təsviri<br>• Prototipdən yararlanma sənətkarlığı | • “Tip” və “xarakter” anlayışlarının mənimsənilməsinə yönəlik tapşırıqların yerinə yetirilməsi, müzakirəsi.<br>• Ədəbi qəhrəmanların fərdiləşdirilməsi üsullarının dəyərləndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Kütləvi səhnələrin təsvirindəki sənətkarlığın dəyərləndirilməsi üzrə müzakirənin təşkili. |
| **II. Dramatik nümunələr (dram, faciə)** | | |
| **Standart 11-1.5.** Dramatik nümunələri oxuyur və anlayır. | | |
| 11-1.5.1. Bədii nümunələrdə tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) | • Arxaik, alınma, dialekt sözlər, neologizm, termin və frazeoloji ifadələr | • Başlıca diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi. |

| | | |
|---|---|---|
| istifadə etməklə aydınlaşdırır. | | • Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 11-1.5.2. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | • Sinekdoxa | • Anlayışın mahiyyəti haqqında məlumatın zənginləşdirilməsi üzrə işin təşkili.<br>• Anlayışın mahiyyətinin fərqli nümunələrlə aydınlaşdırılması.<br>• Əsərdəki bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi üzrə müstəqil işin təşkili. |
| 11-1.5.3. Obrazların xarakterinin aydınlaşdırılmasında əhəmiyyətli olan dialoqları müəyyənləşdirir. | • Səciyyəvi dialoqlar | • Səciyyəvi dialoqların müəyyənləşdirilməsi üzrə işin təşkili, nəticənin müzakirəsi. |
| 11-1.5.4. Əsərdə qaldırılmış problemləri müəyyənləşdirir. | • Əsərdə qaldırılmış problemlər | • Əsərdə qaldırılmış problemlərin müəyyənləşdirilməsi üzrə müstəqil işin təşkili, nəticənin müzakirəsi.<br>• Karuseldən istifadə. |
| 11-1.5.5. Müəllifin mövqeyinin ifadəsində əsas konfliktin rolunu müəyyənləşdirir. | • Müəllif mövqeyinin əsas konfliktdə ifadə olunması | • Müəllif mövqeyinin İfadəsində əsas konfliktin rolunun müəyyənləşdirilməsi imkanlarının müzakirəsi.<br>• Müəllif mövqeyinin ifadəsində əsas konfliktin rolunun səciyyəvi səhnə və epizodların əsasında müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• Nəticənin müzakirəsi. |
| 11-1.5.6. Əsərin janr xüsusiyyətlərini müəyyənləşdirir. | • Dram (təsəvvürün zənginləşdirilməsi)<br>• Faciə (təsəvvürün zənginləşdirilməsi) | • Müxtəlif mənbələrdən əldə edilmiş məlumat əsasında anlayışların mahiyyətinin aydınlaşdırılması üzrə müzakirənin təşkili. |

| | | |
|---|---|---|
| | | • Faciə janrının özünəməxsusuluğunun müəyyənləşdirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Nəticənin müzakirəsi. |
| 11-1.5.7. Əsərin mövzusunu müəyyən edir. | • Əsas mövzunun fərqləndirilməsi | • Əsərin əsas mövzusunun müəyyənləşdirilməsi məqsədilə müzakirənin, təşkili. |
| 11-1.5.8. Əsərin süjet və kompozisiyasında müəllifin yaradıcılığına məxsus xüsusiyyətləri müəyyənləşdirir. | • Əsərin süjet və kompozisiyasında müəllifin fərdi yaradıcılıq üslubunun ifadəsi | • Əsərin süjet və kompozisiyası üzərində müşahidələrin təşkili yolu ilə özünəməxsusluğun müəyyənləşdirilməsi.<br>• Nəticənin müzakirəsi. |
| **Standart 11-1.6. Dramatik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.** | | |
| 11-1.6.1. Obrazı əsərin əsas konfliktində roluna görə səciyyələndirir. | • Əsərdəki obrazların əsas konfliktlə bağlılığı<br>• Əsas konfliktdə iştirakına görə obrazın dəyərləndirilməsi | • Konfliktlə bağlılığına görə obrazın mövqeyinin dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>• Obrazın əsərin əsas konfliktində rolunun dəyərləndirilməsi üzrə müstəqil işlərin təşkili.<br>• Nəticənin müzakirəsi.<br>• *Problemin həlli metodunun tətbiqi.* |
| 11-1.6.2. Bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir. | • Təsvir və ifadə vasitələri: sinekdoxa və s. | • Təsvir və ifadə vasitələrinin (sinekdoxa və s.) bədiiliyin artmasında rolunun dəyərləndirilməsinə yönəlik tapşırıqların yerinə yetirilməsi.<br>• Nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 1.6.3. Əsərdə qaldırılmış problemləri dəyərləndirir. | • Əsərdə qaldırılmış problemlərin ictimai dəyəri<br>• Zaman və məkan xüsusiyyətlərinin nəzərə alınmasının problemlərin dəyərləndirilməsinə təsiri | • Əsərdə qaldırılmış problemlərin ictimai dəyərinin qiymətləndirilməsi məqsədilə tapşırıqların yerinə yetirilməsi, nəticənin müzakirəsi. |

| | | |
|---|---|---|
| | | • Problemin həlli metodunun tətbiqi. |
| 11-1.6.4. Müəllifin mövqeyinin ifadəsində əsas konfliktin rolunu dəyərləndirir. | • Müəllifin mövqeyinin ifadəsində əsas konfliktin rolu | • Müəllifin mövqeyinin ifadəsində əsas konfliktin rolunun dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>• Müəllifin mövqeyinin ifadəsində əsas konfliktin rolunun dəyərləndirilməsi üzrə müstəqil işlərin təşkili, nəticənin müzakirəsi. |
| 11-1.6.5. Əsərin süjet və kompozisiyasındakı özünəməxsusluğa münasibət bildirir. | • Süjetin maraqlı qurulması, mərhələlərinin qarşılıqlı əlaqələri, sonluğun təbiiliyi əsərin bədii keyfiyyətinin göstəricisi kimi<br>• Seçilmiş həyat materialının əsərdə uğurlu təşkili, hadisələrin, obrazların məntiqli təqdimi, qarşılıqlı əlaqələrinin təbii və inandırıcı təsviri<br>• Janrın tələbləri | • Janrın tələbləri nəzərə alınmaqla dramatik əsərin süjetindəki özəlliklərin dəyərləndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi və müzakirəsi.<br>• Janrın tələbləri nəzərə alınmaqla dramatik əsərin kompozisiyasındakı özəlliklərin dəyərləndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi və müzakirəsi.<br>• *Problemin həlli, karusel metodlarından istifadə.* |
| 11-1.6.6. Əsərdə yaradıcılıq metodunun xüsusiyyətlərini izah edir. | • Yaradıcılıq metodunun əsərin mövzu, məzmun, ideya, obraz, dil, üslub xüsusiyyətlərində təzahür formaları | • Yaradıcılıq metodunun əsərin müxtəlif komponentlərində təzahür xüsusiyyətlərinin nümunələr əsasında müzakirə edilməsi.<br>• *Problemin həlli, karusel metodlarının tətbiqi.* |
| 11-1.6.7. Əsəri səhnə, yaxud ekran həyatı ilə müqayisə edir. | • Əsərin səhnə, ekran həyatı ilə müqayisə edilməsinin incəsənətlə bağlı təsəvvürün zənginləşməsinə təsiri | • Bədii əsərin səhnə, ekran həyatı ilə müqayisə edilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Rejissorun bədii əsərdə üstünlük verdiyi məqamların səbəbləri üzrə müzakirənin təşkili. |

| | | |
|---|---|---|
| | | • *Müqayisə cədvəli, Venn diaqramından istifadə.* |
| 11-1.6.8. Əsərin əsas ideyasını şərh edir. | • Əsərlə bağlı mənimsənilmiş bilik və bacarıqların ümumiləşdirilməsi əsasında ideyanın aydınlaşdırılması<br>• İdeya üzrə yozumlar | • Əsərlə bağlı mənimsənilənlərin ümumiləşdirilməsi zəminində əsas ideyanın aydınlaşdırılması üzrə müzakirənin təşkili.<br>• Fərqli yozumların dinlənilməsi və müzakirəsi. |
| 11-1.6.9. Əsərin ideyasının müəyyənləşdirilməsində əhəmiyyətli olan epizodu emosional-obrazlı ifadəliliyin tələblərinə uyğun ifadəli oxuyur. | • Emosional-obrazlı ifadəliliyin vasitələri: təsəvvür, mətnaltı məna, ünsiyyət | • Səciyyəvi epizodların emosional-obrazlı ifadəliliyin tələbləri əsasında ifadəli oxusu, nəticənin müzakirəsi. |
| **IV. Ədəbi-tarixi və tərcümeyi-hal materialları.** | | |
| **Standart 11-1.7.** Oxu və anlama üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 11-1.7.1. Mətndə mühüm ədəbi-tarixi fakt və məlumatları müəyyən edir. | • Mühüm ədəbi-tarixi fakt, məlumat, sosial-siyasi və mədəni durum<br>• Ədəbi birlik, cəmiyyət və təşkilatlar<br>• Fərqli yaradıcılıq metodları | • Mühüm ədəbi-tarixi fakt, məlumat, sosial-siyasi və mədəni durumun müəyyənləşdirilməsi məqsədilə mətn və mənbələr üzrə işin təşkili.<br>• Müxtəlif yönümlü ədəbi təşkilatların fəaliyyətlərindəki başlıca istiqamətlərinin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>• Fərqli yaradıcılıq metodlarının mahiyyəti, fəaliyyətlərinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi üzrə işin təşkili. |
| 11-1.7.2.Yazıçının həyat və yaradıcılığında mühüm dəyişikliyə səbəb olan fakt və hadisələri müəyyənləşdirir. | • Yazıçının həyat və yaradıcılığında əhəmiyyətli olan mühüm fakt və hadisələr | • Yazıçının həyat və yaradıcılığında önəmli fakt və hadisələrin müəyyənləşdirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Nəticənin müzakirəsi. |
| **Standart 11-1.8.** Ədəbi-tarixi və tərcümeyi-hal materiallarının təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |

| | | |
|---|---|---|
| 11-1.8.1. Ədəbi-tarixi fakt və məlumatları bağlı olduğu konkret dövrlə əlaqələndirərək dəyərləndirir. | • Ədəbi-tarixi fakt və məlumatların tarixilik prinsipi əsasında dəyərləndirilməsi | • Ədəbi-tarixi fakt və məlumatların tarixilik prinsipi əsasında dəyərləndirilməsinin əhəmiyyəti ilə bağlı müzakirə.<br>• Ədəbi-tarixi fakt və məlumatların dəyərləndirilməsinə yönəlik müstəqil işin təşkili, nəticənin müzakirəsi. |
| 11-1.8.2.Yazıçının yaradıcılığında mühüm dəyişikliyin, meyillərin səbəbini izah edir. | • Yazıçının yaradıcılığındakı inkişaf meyillərinin, orijinallığın müəyyənləşdirilməsinin ədəbiyyat tarixindəki mövqeyinin dəyərləndirilməsinə təsiri | • Yazıçının yaradıcılığında inkişaf meyillərinin, mühüm dəyişikliyin dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>• Nümunələr üzrə müstəqil işin təşkili və müzakirəsi.<br>• *Problemin həlli, müqayisə cədvəlindən istifadə.* |
| **V. Publisistik və məlumatlandırıcı mətnlər ( məqalə, intervyü)** | | |
| **Standart 11-1.9.** Publisistik və məlumatlandırıcı mətnləri oxuyur və anlayır. | | |
| 11-1.9.1. Mətndə tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə etməklə aydınlaşdırır. | • Arxaik, alınma, dialekt sözlər, neologizm, termin və frazeoloji ifadələr | • Başlıca diqqətin kontekstdəki mənaya yönləndirilməsi.<br>• Mətnin məzmununun başa düşülməsində bu tip söz və ifadələrin rolunun müzakirəsi.<br>• Mənası yeni öyrənilmiş sözlərin şifahi nitqdə (çıxış, təqdimat, nağıletmə) və yazılı nitqdə (təqdimat, müxtəlif növ yazılar) işlənilməsi. |
| 11-1.9.2. Mətndə ifadə olunmuş mətləbləri müəyyənləşdirir. | • Ədəbi-tənqidi, yaxud sosial-siyasi mövzuda təhlil xarakterli məqalə<br>• Məqalədə əks olunmuş mətləblərin oxu ilə müəyyənləşdirilməsinin müəllif mövqeyinin başa düşülməsinə təsiri<br>• Dialoq xarakterli müsahibə mətni | • Ədəbi-tənqidi, yaxud sosial-siyasi mövzuda yazılmış məqalənin oxunması, müzakirəsinin təşkili.<br>• Dialoq xarakterli müsahibənin (intervyünün) oxusu və müzakirəsi üzrə işin təşkili. |

| | | |
|---|---|---|
| | • Dialoq xarakterli müsahibə mətnin oxusunun onda ifadə olunmuş mətləblərin müəyyənləşdirilməsinə təsiri | |
| 11-1.9.3. Müəllifi düşündürən başlıca problemi müəyyən edir. | • Mətnlərdə ifadə olunmuş başlıca problem | • Mətnlərdə (məqalə və intervyüdə) ifadə olunmuş başlıca problemin müəyyənləşdirilməsi üzrə müzakirənin təşkili.<br>• Karuseldən istifadə. |
| **Standart 11-1.10.** Publisistik və məlumatlandırıcı mətnlərin təhlili üzrə bacarıqlar nümayiş etdirir. | | |
| 11-1.10.1. Mətndə ifadə olunmuş mətləbləri dəyərləndirir. | • Mətnlərdə əks etdirilmiş mətləblər | • Mətnlərdə ifadə olunmuş fikirlərin dəyərləndirilməsi üzrə müstəqil işlərin icrası, nəticənin müzakirəsi.<br>• *Karuseldən istifadə.* |
| 11-1.10.2. Mətndə qaldırılmış başlıca problemə münasibət bildirir. | • Mətnlərdə qaldırılmış başlıca problemər | • Mətnlərdə ifadə olunmuş başlıca problemin dəyərləndirilməsi üzrə müzakirə, müstəqil işin yerinə yetirilməsi.<br>• *Problemin həlli metodunun tətbiqi.* |
| **Məzmun xətti 2. Nitq və ünsiyyət** | | |
| **Standart 11-2.1.** Şifahi nitq və ünsiyyət bacarıqları nümayiş etdirir. | | |
| 11-2.1.1. Çıxışının məzmununa uyğun plan hazırlayır. | • Plan tərtibi<br>• Mövzuya uyğun publisistik mənbələrin araşdırılmasının plan tərtibinə təsiri | • Plan tərtibi üzrə işin təşkili.<br>• Planın tətbiqi və müzakirəsi üzrə işin təşkili. |
| 11-2.1.2. Məzmunu dəlillərlə əsaslandırılmış təqdimat hazırlayır. | • Fikirlərin dəlillərlə əsaslandırılmasının təqdimatın etibarlılığına təsiri<br>• Mövzudan asılı olaraq sitat və terminlərdən istifadə | • Dəlillərlə əsaslandırılmış fikirlərin əks olunduğu təqdimatların hazırlanması, müzakirəsi. |
| 11-2.1.3. Çıxışında bədən dilindən istifadə edir. | • Mimika, jest, qamət hərəkətləri | • Mimika, jest, qamət hərəkətlərindən istifadənin müvafiq tapşırıqlar üzrə məşq etdirilməsi. |

| | | |
|---|---|---|
| 11-2.1.4. Mənasını yeni öyrəndiyi söz və ifadələrdən çıxışında mövqeyini əsaslandırmaq məqsədilə istifadə edir. | • Mənası yeni öyrənilmiş söz və ifadələr | • Mənası yeni öyrənilmiş söz və ifadələrdən istifadə ilə şəxsi mövqeyin əsaslandırılması üzrə çıxışların hazırlanması, dinlənilməsi və müzakirəsi. |
| 11-2.1.5. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün dəlillərdən ardıcıl istifadəyə diqqət edir. | • Təqdimat prosesində dəlillərdən ardıcıl istifadənin ünsiyyətin səmərəliliyinə təsiri | • Dəlillərdən ardıcıl istifadə İlə müşayiət olunan təqdimatların dinlənilməsi və müzakirəsi üzrə işin təşkili. |
| 11-2.1.6. Dialoji nitq şəraitində ünsiyyətun davamlılığına nail olmaq üçün müqayisədən istifadəyə diqqət edir. | • Dialoji nitq prosesində müqayisədən istifadə olunmasının ünsiyyətin səmərəliliyinə və davamlılığına təsiri | • Dialoji nitq prosesində müqayisələrdən istifadə olunması üzrə məşqlərin təşkili.<br>• *Müqayisə cədvəlindən, Venn diaqramından istifadə.* |
| **Standart 11-2.2.** Yazılı nitq bacarıqları nümayiş etdirir. | | |
| 11-2.2.1. Müxtəlif növlərdə (publisistik və bədii yaradıcılıq) yazılar icra edir. | • Bədii yaradıcılıq üzrə bacarıqların inkişafına yönəlik yazılar<br>• Publisistik, məlumat xarakterli yazılar.<br>• Yazı növlərinin özünəməxsusluğu | • Ədəbi-tənqidi, yaxud sosial-siyasi mövzuda təhlil xarakterli məqalənin yazılması üzrə hazırlıq işinin aparılması: mövzunun, məqsədin, başlıca mətləbin, mənbələrin, sonluğun düşünülməsi.<br>• Mətnin yazılması, müzakirəsi.<br>• Dialoq xarakterli müsahibənin (intervyünün) yazılması üzrə hazırlıq işinin aparılması: mövzunun, istifadə olunacaq sualların, ehtimal olunan cavabların, sonluğun düşünülməsi.<br>• Mətnin yazılması, müzakirəsi. |

| | | |
|---|---|---|
| 11-2.2.2. Yazı üçün geniş plan tərtib edir. | • Yazının planlaşdırılmış struktur xüsusiyyətlərinə uyğun icra edilməsinin kompozisiyanın mükəmməl olmasına təsiri | • Geniş plan tərtibi üzrə tapşırıqların yerinə yetirilməsi.<br>• Müxtəlif növ yazı üçün tərtib edilmiş geniş planın müzakirəsi. |
| 11-2.2.3. Mənasını yeni öyrəndiyi söz və ifadələrdən yazıda mətnaltı mənaların ifadəsi məqsədilə istifadə edir. | • Mətnaltı mənalar.<br>• Fikrin mətnaltı məna şəklində ifadə edilməsi yaradıcı düşüncənin göstəricisi kimi | • Fikrin mətnaltı məna şəklində ifadə edilməsi üzrə çalışmaların yerinə yetirilməsi, müzakirəsi. |
| 11-2.2.4. Hazırladığı yazını ədəbi dil normalarına əməl edilməsi baxımından nəzərdən keçirib düzəliş edir. | • Ədəbi dil normalarından istifadə | • İcra olunmuş yazının ədəbi dil normalarına əməl edilməsi baxımından təhlili, müzakirəsi. |
| 11-2.2.5. Müstəqil oxunmuş əsərlə bağlı tədqiqat xarakterli esse yazır. | • Tədqiqat xarakterli esse | • Müstəqil oxunmuş əsərlə bağlı tədqiqat xarakterli essenin yerinə yetirilməsi, nəticənin müzakirəsi. |

## “Ədəbiyyat” fənninin xarakterinə uyğun təlim strategiyaları

Müasir ədəbiyyat dərslərinin səmərəliliyi yeni təlim texnologiyalarından, interaktiv interaktiv təlim metodlarından istifadəni zəruri edir. Bu, bədii əsərlərin dərin və hərtərəfli öyrənilməsinə, bütövlükdə fənnin uğurlu tədrisinə, şagirdlərdə zəruri bacarıqlarn formalaşmasına imkan yaradır.

Müəllim və şagirdlərin ədəbiyyat dərslərində qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsinə yönələn birgə fəaliyyəti fəal/interaktiv metodların tətbiqi əsasında həyata keçirilir. Müasir dərs müxtəlif təlim texnologiyalarının bir-biri ilə və qarşılıqlı əlaqədə tətbiqi ilə səciyyələnir. Təlim metodlarının məzmun xətləri üzrə verilməsi şərti xarakter daşıyır. Belə ki müəyyən bir metod bir neçə məzmun xəttində özünü göstərə bilər.

### “Oxuma, anlama və təhlil” məzmun xətti.

### <u>Oxuma, anlama üzrə</u>

**Fasilələrlə oxu.** Bu, bədii əsərlərin oxusunda geniş tətbiq olunur. Oxunması nəzərdə tutulan mətn əvvəlcədən bitkin hissələrə bölünür. Birinci hissə oxunduqdan sonra fasilə edilir və müəllim oxunmuş hissənin məzmununa dair suallar verir. Cavablar dinlənilir. Sonrakı hissələrin oxusu da bu qayda ilə həyata keçirilir.

**Proqnozlaşdırılmış oxu.** Bədii əsərlərin məzmununun öyrənilməsinə həsr olunan dərsdə əsərdən bir hissə oxunduqdan sonra fasilə edilir. Şagirdlər hadisələrin sonrakı inkişafı barədə ehtimallarını söyləyir və cədvəldə qısaca yazırlar. Məktəblilər, həmçinin ehtimallarında nəyə əsaslandıqlarını da cədvəldə qeyd edirlər. Yeni parça oxunduqdan sonra şagirdlər əvvəlki ehtimallarının üzərinə qayıdır, əsərdə təsvir olunanlarla nə dərəcədə səsləşdiyini aydınlaşdırırlar.
Bu qayda sona kimi davam edir.

| Əsərin hissələri | Sizcə, nə baş verəcək? | Nə üçün belə düşünürsünüz? | Nə baş verdi? Hadisələr necə davam etdi? |
|---|---|---|---|
| I hissə | | | |
| II hissə | | | |
| III hissə | | | |
| IV hissə | | | |

**Rəy cədvəli.** Bədii əsərlərin öyrənilməsinin bütün mərhələlərində tətbiq olunan bu iş növü şagirdlərin şəxsi mövqeyinin və münasibətlərinin ifadə edilməsi baxımından faydalıdır. Cədvəlin birinci sütununda “Əsərdə diqqətimi daha çox cəlb edənlər”, ikinci sütunda isə “Bunun səbəbi” yazılır. Şagirdlər birinci sütunda aşağıdakı məzmunda qeydlər edirlər:

- müstəqil aydınlaşdıra bilmədikləri sualları;
- əsərin yaratdığı hiss və düşüncələri;
- əsərdəki hadisə, təsvir, obraz və s. münasibətlərini.

Rəy cədvəlinin tətbiqi fərqli formalarda olur. Şagirdlər mətni oxuya-oxuya cədvəldə müvafiq qeydlər aparırlar. Əsərin oxusu, qeydlərin aparılması başa çatdıqdan sonra, şagirdlər yenidən mətnə müraciət edir, qeydlərini zənginləşdirirlər. Məsələn, Əhməd Cavadın "Göygöl" şeirinin oxusunda rəy cədvəlinin tətbiqi, təxminən aşağıdakı nəticənin əldə edilməsinə imkan yaradır:

| S. | **Əsərdə diqqətimi daha çox cəlb edənlər.** | **Bunun səbəbi** |
|---|---|---|
| 1. | Dumanlı dağların yaşıl qoynunda<br>Bulmuş gözəllikdə kamalı Göygöl.<br>Yaşıl gərdənbəndi gözəl boynunda<br>Əks etmiş dağların camalı Göygöl. | Gözəl mənzərədir.<br>Göygölün gözəlliyi çox yaxşı ifadə edilib… |
| 2. | Yayılmış şöhrətin şərqə, şimala,<br>Şairlər heyrandır səndəki hala. | Sənət adamlarının Göygölə marağının səbəbi aydınlaşır. Maraqlıdır, Göygölün şöhrəti nə üçün yalnız şərqə, şimala yayılıb? |
| 3. | …Dumandan yorğanı, döşəyi yosun.<br>Bir yorğun pəri var, bir az uyusun,<br>Uyusun dağların maralı, Göygöl! | Şair Göygölü gözəlliyinə vurğun olduğunu çox təsirli ifadə edib. |
| 4. | «Dumanlı dağların», «dumanlı dağlara», «dumandan yorğanı» | Şair «duman» sözünü niyə, hansı məqsədlə tez-tez işlədir? |
| 5. | …Öpər yanağından qurbanlar, otlar,<br>Ayrılıq könlünü qıralı, Göygöl! | Hansı ayrılıqdan danışılır? Göygölün könlü niyə qırıq olmalıdır? |

Rəy cədvəlinin əsərin təhlili mərhələsində tətbiqi isə fərqli nəticənin əldə edilməsinə səbəb olur.

**Obrazlar xəritəsi.** Daha çox bədii əsərlərin təhlili mərhələsində tətbiq edilir. O, ədəbi qəhrəmanın xarakterindəki mühüm cəhətlərin, hiss və düşüncələrinin, davranışında, nitqində özünəməxsusluğun, başqalarına münasibətinin və s. aydınlaşdırılmasını və münasibət bildirilməsini təmin edir.

**BİBÖ.** BİBÖ ( bilirəm, istəyirəm bilim, öyrəndim) şagirdlərin əvvəlki biliyi, təcrübəsi ilə yeni biliklər arasında əlaqə yaratmağa imkan verir, mövzu, problem barədə düşünməsini təmin edir. Müəllim lövhədə üç sütundan ibarət cədvəl əks etdirir və aşağıdakı bölmələri qeyd edir: "Nəyi bilirəm ", "Nəyi bilmək istəyirəm", "Nə öyrəndim ". BİBÖ daha çox fərdi iş üçün nəzərdə tutulmuş metoddur, çünki şagirdlərin bildikləri, bilmək istədikləri və öyrəndikləri fərqli olur. Lakin ondan bütün siniflə birgə iş prosesində də istifadə etmək mümükün və faydalıdır. Məsələn, onu tətbiq etməklə sənətkarın həyatı və yaradıcılığı ilə bağlı sinfin hansı səviyyədə məlumatlı olduğunu aşkara çxarmaq və öyrənməni davam etdirmək məqsədəuyğundur.

Onun tətbiqində aşağıdakı qayda gözlənilir. Şagirdlər əvvəl mənimsədikləri bilikləri nəzərdən keçirir və bildiklərini cədvəlin birinci sütununda tezislər şəklində qeyd edirlər. Öyrənmək istədikləri məsələləri cədvəlin ikinci sütununa yazdıqdan sonra mətn oxunur. Sonra şagirdlər yeni

öyrəndiklərini üçüncü sütunda yazırlar. Onlar əvvəlki biliklərini (birinci sütunda qeyd edilənləri) yeni öyrəndikləri biliklərlə (yeni öyrənilənlər sütunundakı məlumatla) müqayisə edir, nəticə çıxarırlar.

BİBÖ-dən daha çox informativ mətnlərlə iş zamanı istifadə edilir: sənətkarın həyatı, yaradıcılıq yolu, icmal mövzular, yaradıcılıq metodları, ədəbi-nəzəri anlayışlar və s. Lakin ondan bədii əsərlərin yazıldığı mövzuların ümumi cəhətlərinin aydınlaşdırılması məqdədilə də istifadə etmək mümkündür. Məsələn, təbiət mövzusunda yazılmış əsərin öyrənilməsinə həsr edilmiş dərsin başlanğıcında – maraqoyatma mərhələsində birinci sütunda “Təbiət mövzusunda əsərlərdən nəyi bilirəm” yazmaqla işi davam etdirmək olar.




**İNSERT (interaktiv qeydetmə sistemi).** Bu metod mövzunu, problemi fəal şəkildə dərketməyə sövq edir. Belə ki mətn şagirdlərə paylanılır və işarələr sistemindən istifadə etməklə onun üzərində qeydlər aparılır.

Şagirdlər müəllimin tapşırığı ilə mətni oxuyur, səhifənin kənarında bu və ya digər cümlə, fikir, abzas, hissə ilə bağlı müvafiq şərti işarələr qoyurlar:

“√” – bilirəm; **“—“** – ziddiyyətli informasiya;

**“+”** – yeni informasiya; **“?”** – aydın deyil.

Beləliklə, həmin işarələrin köməyi ilə mətnin necə qavranıldığı, anlaşılan, qəbul edilən, yeni, maraqlı sayılan və ya başa düşülməyən, ziddiyyətli informasiya müəyyənləşdirilir. Təkrar oxu, müzakirə zamanı müvafiq işarələrə istinad etməklə şagird məsələyə münasibət bildirir, uğurlu və ya ziddiyyətli məqamları qeyd edir, öz mülahizələrini əsaslandırır.

Mətn üzrə iş zamanı aparılmış qeydlər toplanaraq cədvəl şəklində də əks etdirilə bilər. Məsələn:

| √ | — | + | ? |
|---|---|---|---|
| 4 | 6 | 5 | 3 |

Ədəbiyyat dərslərində yazıçının həyatı, yaradıcılığı haqqında ümümi məlumat, ədəbi-tarixi məlumat (icmal mövzular), geniş nəzəri materiallar, publisistik mətnlər və s. tədrisində tətbiq olunur.

**Keys-metod.** Ədəbiyyatın öyrənilməsində keyslərin (problem-tapşırıqların) hazırlanmasına və tətbiqinə geniş imkan vardır. Başqa sözlə, ədəbiyyatdan bütün materialların, xüsusən bədii əsərlərin öyrənilməsində təlimi situasiyanın yaradılması mümkün və faydalıdır. Bu təlimi

situasiyadan çıxış yolunun tapılması, problemin həlli variantlarının müəyyənləşdirilməsi, onlardan ən səmərəli olanının seçilməsi keys-metodun başlıca tələbidir.

Deməli, keys-metodun əsasında mürəkkəb vəziyyətdən (situasiyadan) çıxış yolunun tapılması, başqa sözlə, problemin həlli dayanır. Bu situasiya təbii (həyati) ola bildiyi kimi, süni şəkildə də yaradıla bilər. Təlim prosesində, təbiidir ki, ikinci tip situasiyalar tətbiq edilir. Araşdırılan problemin birmənalı həlli olmur və bu, şagirdlərdə təkcə əqli fəallığın yox, həm də güclü marağın yaranmasına yol açır. Keyslərin yerinə yetirilməsi prosesində biliklərin əldə edilməsi şagirdlərin müstəqil fəaliyyəti sayəsində mümkün olur. Bu isə onlarda fərqli praktik bacarıqların formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir. Çoxsaylı informasiyalarla işləyən şagirdlər mövcud bilik və bacarıqlarından istifadəyə, praktik təcrübələrini zənginləşdirməyə, qənaətlərini, ideyalarını ifadə etməyə, başqalarının fərqli baxışlarını dinləməyə və onlara münasibət bildirməyə imkan qazanırlar.

Nümunə olaraq C. Məmmədquluzadənin "Anamın kitabı" əsərinin məzmununun öyrənilməsinə həsr edilmiş dərs üçün hazırlanmış keys-tapşırığa nəzər salmaq olar.

*Problem:* Qardaşların arasında konflikt olmaya bilərdimi?

*Suallar:*

1. Konfliktin baş verməsinə səbəb nədir?
2. Konfliktin dərinləşməsində günahkar kimdir?
3. Konfliktin iştirakçıları özlərini necə aparırlar?
4. Sizcə, hansı tövsiyələr qardaşların arasındakı konfliktin aradan qalxmasına kömək edərdi?
5. Həyatınızda konflikt baş veribmi?
6. Siz bu vəziyyətdən necə çıxmısınız?

*Tapşırıqlar:*

1. Təklif olunmuş suallara cavab hazırlayın.
2. Obrazların nitqindən mövqelərini qabarıq əks etdirən nümunələr seçib müqayisə edin.
3. Mövzu ilə bağlı yığcam esse yazın.

*Əlavə I.* Qrupda iş qaydaları.

*1.* Qrup sözçüsünü seçin.
*2.* Məqsədə çatmağın yollarını müzakirə edin.
*3.* Qrup üzvlərinin hər birinin vəzifəsinə diqqət edin.
*4.* Qrup üzvlərinin hər birinin tapşırıq aldığına əmin olun.
*5.* Tapşırıqlar yerinə yetirilərkən bir-birinizi diqqətlə dinləyin, yoldaşlarınızın sözünü kəsməyin, dil tapmağa, anlaşmağa çalışın.
*6.* Vaxtdan səmərəli istifadə edin, işdən yayınmayın.
*7.* İşinizin nəticəsini təqdim etməyə hazır olun. Unutmayın ki, nəticələrin təqdimində hər kəs iştirak etməlidir.

*Əlavə II.* Qrup işinin qiymətləndirilməsi meyarları.

1. Cavabın təqdim olunmuş tapşırığa uyğun olması.
2. Şərhin məntiqiliyi, ardıcıllığı, dəqiqliyi.
3. Qrupların üzvlərinin hamısının tapşırıqların yerinə yetirilməsində və nəticələrin təqdimatında iştirak etməsi.
4. Materialların şərh edilməsi mədəniyyəti.

*Nəticələrin təqdimi.*

Qrup işlərinin nəticələri fərqli formalarda təqdim edilir:

1. Yazılı qeydlər əsasında şifahi təqdimat.
2. Yazılı təqdimat.
3. Esse.

**Sinkveyn.** Sinkveyn müəyyən qaydalara uyğun yazılmış beş misralı şeirdən ibarət metoddur. Bu, dərsdə qazanılmış yeni bilikləri ümumiləşdirmək və obrazlı nitqi təkmilləşdirmək üçün bir vasitədir. Sinkveyn keçən əsrin əvvəllərində Yapon poeziyasının təsiri altında ABŞ-də yaranmışdır. Əvvəlcə misranın ritminə və ölçüsünə – sətirdəki hecaların sayına, vurğunun yerləşməsinə böyük əhəmiyyət verilirdi. Pedaqoji təcrübədə başlıca diqqət hər bir sətrin (misranın) və ümumi məzmunun formalaşması prinsipinə verilir.

Sinkveyn necə hazırlanır?

Birinci sətir obyekti ifadə edir. Bu, isimlə ifadə edilmiş bir sözdür. İkinci sətir obyektin mahiyyətinin təsviri, açıqlanmasıdır. Bunlar sifət kimi işlənmiş iki sözdür.

Üçüncü sətir obyektlə bağlı fəaliyyəti təsvir edir. Bunlar feil ilə ifadə olunan üç sözdür.

Dördüncü xətt dörd sözdən ibarət olub obyektlə münasibəti ifadə edir. Əvvəlki sətirlərdən fərqli olaraq, burada ayrı-ayrı sözlər yox, bir cümlə işlənməlidir. Bu, atalar sözü, sitat, aforizm və ya şagirdin mövzuya münasibətini əks etdirən ifadə ola bilər.

Beşinci sətir bütün şeiri yekunlaşdıran bir söz – xülasə şəklində olur.

**Koroğlu**
İgid, mübariz
Döyüşmək, qisas almaq, kömək etmək
İgid oğul düşmənə əyilməz.
Qəhrəmanlıq.

Sinkveyn yazmaq həm yaradıcı, həm də analitik işdir: yeni materialda əsas sözü obrazlı şəkildə ifadə etmək lazımdır. Şagirdlər mövzunu qavramaqda, təhlil etməkdə, söz seçməkdə çətinlik çəkə, səhv etmək qorxusu yaşaya bilər. Buna görə də, sinkveynin mövzusu şagirdlər üçün maraqlı olmalı, onları yaradıcı düşünməyə sövq etməlidir. Müəllim məktəblilərə kömək məqsədilə istiqamətləndirici suallarla onları lüğət ehtiyatından səmərəli istifadəyə yönləndirməlidir.

## Təhlil üzrə

**Beyin həmləsi.** Problemin həlli yolları ilə bağlı müxtəlif ideyaların irəli sürülməsi məqsədilə istifadə olunur. Qısa zaman kəsiyində daha çox cavabın (ideyanın) toplanması həyata keçirilir. Səsləndirilənlərə müdaxilə edilmədən lövhədə qeyd edilir. Yazılanlara sonrakı mərhələdə tənqidi nəzər salınır, münasibət bildirilir və ən səmərəli olanlar seçilir.

**Müqayisə cədvəli:** Müqayisə üçün bir-birinə oxşar, mahiyyət etibarilə yaxın obyektlər (obrazlar, əsərlər, janrlar və s.) götürülür. Müqayisənin tətbiqi zamanı vahid əsas (məsələn, müqayisə olunan obrazların vətənə, əməyə, insanlara və s. münasibəti) gözlənilməlidir. Müqayisə prosesində obyektlərin oxşar və fərqli xüsusiyyətlərinin aşkara çıxarılması ilə kifayətlənilmir. Obyektlərin arasındakı oxşar, yaxud fərqli cəhətlərin (eləcə də eyni vaxtda hər iki cəhətin) aşkara çıxarılması ilə yanaşı, oxşarlıq və fərqlərin izahı, aralarındakı əlaqələrin səbəbi aydınlaşdırılmalı, nəticə çıxarılmalı və ümumiləşdirmə aparılmalıdır.

Nümunə kimi aşağıda S.Rəhimovun "Qara torpaq və sarı qızıl" hekayəsindəki qardaşların müqayisəsini əks etdirən cədvəl verilmişdir.

| | **Qardaşların** | **Şahməmməd** | **Xanməmməd** | **Bəyməmməd** |
|---|---|---|---|---|
| 1. | Əməyə münasibəti | Əməyə xor baxır, heç bir işlə məşğul olmur. | Tənbəldir, iş görmək onun üçün ən ağır cəzadır. | Zəhməti sevmir, faydalı bir iş görmür, ortada yeyib qıraqda gəzir. |
| 2. | Atalarına münasibəti | Atasının nəsihətlərini dinləmir, sözlərinə əhəmiyyət vermir. | Atasının zəhmətini qiymətləndirmir, dediklərinə əməl etmir. | Ağır zəhmətə qatlaşan atasını saymır. Xeyli sonralar – atası öləndən sonra onun ləyaqətli adam olduğunu anlayır. |

**Şaxələndirmə (klaster).** Şaxələndirmə **ş**agirdləri mövzu haqqında düşünməyə, anlayışa aid əlavə məlumat, məna əlaqələri tapmağa sövq edir. Bu, şagirdlərin mövzu ilə bağlı biliklərini nəzərdən keçirməyə, sistemə salmağa, söz ehtiyatlarını zənginləşdirməyə şərait yaradır.

Bu məqsədlə şagirdlərə tanış olan mövzu ilə bağlı əsas söz və ya ifadələr lövhəyə yazılır. Şagirdlər bu anlayışla əlaqədar söz və ya ifadələri söyləyirlər. Əsas sözlə bağlı olan anlayışları ifadə edən kəlmə və ifadələr xətlərlə əlaqələndirilir. Vaxt bitəndən sonra nəticə müzakirə edilir, ümumiləşdirmə aparılır.

Şaxələndirmədən mövzunun öyrənilməsinin əvvəlində şagirdlərin bu barədə nə bildiklərini aydınlaşdırmaq, həm də dərsin sonunda yeni nə öyrəndiklərini aşkara çıxarmaq məqsədilə istifadə edilə bilər. Məsələn, dramatik növ və onun ilk yaradıcıları haqqında təsəvvür yaratmaq məqsədilə şaxələndirmədən istifadə etmək faydalıdır.



**Anlayışın müəyyənləşdirilməsi.** Bu üsul oyun - tapmaca formasında reallaşdırılır və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim arxasında müəyyənləşdirilməsi tələb olunan anlayışı ifadə edən söz yazılmış vərəqi lövhədə asır. O, həmin anlayışın xüsusiyyətlərindən birini səsləndirir. Şagirdlər həmin xüsusiyyətə əsaslanmaqla anlayışı müəyyənləşdirirlər. Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim onun ikinci xüsusiyyətini də deyə bilər. Şagirdlərin cavabları dinlənildikdən sonra müəllim vərəqdə yazılan sözü açıqlayır.




**Venn diaqramı.** Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur. Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır) I və III dairədə müqayisə olunacaq obyektlər qeyd olunur. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd ediləcəyi barədə danışılır). Müqayisə olunan obyektlər təsvir edilir: fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə sahəsində qeyd olunur. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.



**Layihələrin hazırlanması.** Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil tədqiq edilməsidir. Şagirdlərə fərdi və ya qrup halında tədqiqat xarakterli sual verilir və onlar bu sual üzrə apardıqları araşdırmanı layihə şəklində təqdim edirlər. Həmin suallar əsasında hazırlanan layihə şagirdin tələb olunan bacarıqlarının inkişafını izləməyə imkan verir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl bir müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərdə tədqiqatçılıq bacarığının formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir.

Layihələr üçün ədəbi mövzu və ya problemləri müəllim müəyyən edir və sinfə bunlardan birini seçməyi təklif edir. Problem, həmçinin sinif tərəfindən beyin həmləsi üsulu ilə də seçilə bilər. Problem konkret olmalıdır. Layihə üzrə işin müddəti şagirdlərlə birlikdə müəyyənləşdirilir. Onun yerinə yetirilməsinə müəllim nəzarət edir, yeri gəldikcə istiqamət verir. İşin icrasına isə şagirdlərin özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi təqdimat şəklində təqdim oluna bilər**.**

**Layihələrlə iş nümunələri**

**V sinif**

Nağıllar aləmində ( tamaşa-viktorina)

Şəhidlər unudulmur (ədəbi-bədii gecə)

Doğma yurdum Azərbaycan ( musiqili -ədəbi kompozisiya)

Doğma təbiətimiz ( ifadəli oxu müsabiqəsi)

**Mövzu: "Şəhidlər unudulmur"** (ədəbi-bədii gecə)

**Tapşırıq:**

1. Bədii əsərlərin (şeirlər və nəsr əsərlərindən parçaların) seçilməsi.
2. İfadəli oxu bacarığına malik iştirakçıların müəyyənləşdirilməsi.
3. Fərdi, cütlük və qrup halında ifa üçün müvafiq əsərlərin müəyyənləşdirilməsi.
4. İfaları müşayiət edəcək musiqi parçalarının seçilməsi.
5. Aparıcıların müəyyənləşdirilməsi.
6. Proqramın hazırlanması.

**VII sinif**

Yaşayan əfsanələr (tamaşa-viktorina)

Vətən öz qəhrəmanlarını unutmur. (ədəbi-bədii gecə)

İpə-sapa düzülməmiş incilər ( mənəvi dəyərlərə, hikmətli sözlərə həsr olunmuş müsabiqə)

Uşaqlar həyatın çiçəkləridir. (sərgi)

**Mövzu: Nağıl qəhrəmanları ilə görüş** (esse müsabiqəsi)

**Tapşırıq:**

Təsəvvür edin ki, sizin kosmik gəminiz "Arzular" planetinin Nağıllar ölkəsinə düşüb.

Yazdığınız essedə aşağıdakı məsələləri əhatə edə bilərsiniz:

1. Orada görüşmək istədiyim nağıl qəhrəmanı.
2. Bu ölkədəki insanlarda görmək istədiyim müsbət cəhətlər.

3. Nağıl qəhrəmanlarına Vətənimin bu günü haqqında demək istədiklərim.
4. Vətənimə gətirmək istədiyim nağıl qəhrəmanı.

**Mövzu: “Təbiət anadır - qoruyaq onu”** mövzusunda təqdimatlar
Tapşırıqlar:
1. “Ekologiya nədir?” mövzusunda elektron təqdimat hazırlanması və müzakirəsi.
2. “Azərbaycanın təbiəti” mövzusunda video-süjetə baxış, rəy mübadiləsi.
3. “Təbiətə ziyan vuranlar” mövzusunda karikatura müsabiqəsi.
4. “Təbiətin qorunması haqqında görkəmli şəxsiyyətlərin fikirləri” mövzusunda təqdimat.
5. Aparıcıların seçilməsi, qruplar arasında iş bölgüsü, planlaşdırma.

## “Nitq və ünsiyyət” məzmun xətti.
## Şifahi nitq və ünsiyyət üzrə

**Müzakirə.** Müzakirə mövzu üzrə ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.Müzakirə aparарkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır.

**Təqdimat.** Müasir təlim üsulları ilə aparılan dərslərin mühüm elementlərindən biri olan təqdimat şagirdin tədqiqat fəaliyyətinin göstəricisi sayılmalıdır. Bu üsul şagirdlərə imkan verir ki, o, tədqiqatın nəticəsini müxtəlif yollarla təqdim edə bilsin, öz fikirlərini dəqiq ifadə etmək, mükəmməl nəticə çıxarmaq bacarığına yiyələnsin. Təqdimata hazırlaşan şagird qrup halında işləyəndə ünsiyyət mədəniyyətinə yiyələnir, fikirlərini bölüşməyi bacarır. Belə olduqda təqdimat dəqiq olur, cəlbedici tərtibatı ilə diqqəti çəkir. Şagirdlər təqdimatın hansı formada reallaşacağı barədə qaydalara yiyələnirlər. Müəllim təqdimatın növü və onun keçirilməsi qaydaları barədə şagirdləri təlimatlandırmalıdır. Təqdimatlarda əyani və texniki vasitələrdən kompleks istifadə müsbət nəticə verir. Bu, ünsiyyətin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir. Təlimatlara əməl edən şagird vaxtdan səmərəli istifadə etməyə, fikrini daha dəqiq və yığcam ifadə etməyə əvvəlcədən hazır olur. Təqdimat müzakirə olunur və meyar cədvəli əsasında qiymətləndirilir. Təqdimat fərdi və ya qrup şəklində həyata keçirilə bilər.

**Ədəbiyyat fənni üzrə şifahi və yazılı təqdimat nümunələri**

**Fəaliyyət növləri:** Çıxış, məruzə, səhnələşdirmə, esse, texniki vasitələrdən istifadə ilə nümayişetdirmə

1.**Şagirdlərin əsərin oxusu və məzmunu ilə bağlı təqdimatları**
- Şeirin, nəsr əsərinin ifadəli oxusu.
- Dramatik əsərin rollar üzrə oxusu
-Əsərin məzmununun yığcam, geniş, yaradıcı nağıl edilməsi

2**. Əsərin təhlili üzrə təqdimatlar**
-Əsərin yaranma tarixi ilə bağlı məlumat

- Əsərin obrazlar sisteminin təhlili
- Əsərin ideya-bədii xüsusiyyətlərinin şərhi
- Əsərin təhlili üzrə esse yazılması

**Sənətkarın həyat yolu, yaradıcılığı ilə bağlı**

- Ayrı-ayrı ədəbi-tarixi dövrlərlə bağlı məlumat
- Sənətkarın yazıb-yaratdığı dövr, şəxsiyyəti və yaradıcılıq yolu ilə bağlı məlumat
- Monoqrafik şəkildə öyrənilən əsərin yaranma tarixi ilə bağlı çıxış
-Şifahi xalq ədəbiyyatı, xüsusiyyətləri, janrları haqqında məlumat

**Debat** (çarpaz müzakirə). Verilmiş fikri təsdiq və təkzib edən dəlillər qruplar tərəfindən təqdim edilir. Çıxış zamanı qrup nümayəndələrindən dəlilləri dinləmək və onlara əks-dəlillər gətirmək tələb olunur. Hakimlər daha inandırıcı dəlillərlə çıxış edən qrupa (komandaya) üstünlük verir.

Ədəbiyyat dərslərində əsas vəzifələrdən biri fəal, uğurlu insan yetişdirməkdir. Ancaq uğurlu insan olmaq üçün dərin bilik kifayət deyil. Şagirdlər həyatda müxtəlif vəziyyətlərdə düzgün seçim etməyi, qeyri-standart qərarlar qəbul etməyi, digər insanlarla ünsiyyət qurmağı və əməkdaşlığı bacarmalıdır. Ədəbiyyat dərsləri digər fənlər üzrə dərslərdən onunla fərqlənir ki, ilk növbədə şagirdlərdə kommunikativ bacarıqları inkişaf etdirir.

Debat və müzakirələrdə və ya məlumat mübadiləsində tərəfdaşlarla ünsiyyət yaratmaq, qarşılıqlı əlaqə qurmaq bacarığını gənc nəsildə formalaşdırmaq son dərəcə zəruridir. Bu zaman başqasının mövqeyini nəzərə alaraq hərəkət etmək və hərəkətlərini koordinasiya etmək təcrübəsinin əldə edilməsinə xüsusi diqqət yetirilməlidir. Ünsiyyət və əməkdaşlığın mənəvi-etik və psixoloji prinsiplərinə riayət etməklə qrupda işləyən şagirddə mürəkkəb situasiyalrda davranış mədəniyyəti formalaşır, bu, həyati bacarıqlara yiyələnmək yolunda uğurlu addım sayıla bilər.

**Müzakirə və debat nümunələri**

VIII sinif

Kimi müasir dövrün Qurbanəli bəyi saymaq olar? (C. Məmmədquluzadənin “Qurbanəli bəy” hekayəsi üzrə) (debat)

IX sinif

Həyatda mərdlik və namərdlik dedikdə nə başa düşürəm. (İ.Şıxlının “Namərd gülləsi” hekayəsi üzrə (debat)

Təbiət anadır, qoruyaq onu. (İsa Hüseynovun “Zəhər” hekayəsi üzrə müzakirə)

Ana haqqı Tanqı haqqı, atalar sözü. (Əli Kərimin “Qaytar ana borcunu” şeiri üzrə debat).

X sinif

Koroğlu xalqın müdafiəçisi və qəhrəmanıdır. (“Koroğlu” eposu üzrə müzakirə)

XI sinif

Şəhidlər ölməz, Vətən bölünməz. ( B.Vahabzadənin “Şəhidlər” poeması üzrə müzakirə)

**Nağıletmə.** Bədii əsərin məzmununun nağıl edilməsi yaradıcı səciyyə daşıyır. Əsərin məzmununu (ondan müəyyən parçanı) *yığcam, geniş, yaradıcı* nağıl edən şagirddə məntiqi, yaradıcı təfəkkürün, ümumiləşdirmə bacarığının inkişafına əlverişli imkan yaranır.

**İfadəli oxu.** Bu oxu bədii əsərin mənimsənilməsi və dəyərləndirilməsinin mühüm göstəricisi kimi qiymətləndirilir. Şagirdlərin bədii-estetik tərbiyəsində, şifahi nitqinin inkişafında əhəmiyyətli vasitədir.

## Yazılı nitq bacarıqları üzrə

Yazılı nitq özünüifadəetmənin qiymətli vasitələrindən biridir. Şagirdlər öz fikirlərini yazılı şəkildə ifadə edərkən sözlərdən, qrammatik birləşmələrdən, cümlə strukturlarından elə isifadə etməlidirlər ki, oxucu üçün aydın və anlaşıqlı olsun. Şagirdlərdə yazı bacarığının formalaşdırılması məqsədilə tətbiq olunan fəaliyyət növlərinə aşağıdakıları nümunə göstərmək olar.

**Esse.** Məktəb essesi şagirdlərdə yaradıcılıq bacarığının inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Esse şagirdlərə mövzu üzərində düşünməyi və fikirlərini yazılı şəkildə ifadə etməyi öyrədir. Məktəblilər esse üzərində iş zamanı müxtəlif məlumat mənbələri ilə işləməyə, fikir və fərziyyələrini əsaslandırmağa səy edirlər.

Esse yığcam yazı növüdür. Onun həcmi sinifdən və mövzudan asılıdır. Bu yazıda şagird müstəqil fikirlərini, düşüncələrini əks etdirməlidir. Esse giriş, əsas hissə və nəticədən ibarət olur. Onun hissələri qarşılıqlı əlaqədə olub başlıca fikrin ifadəsinə xidmət etməlidir.

Şagirdlərə esse ilə bağlı aşağıdakı tövsiyələr verilir:

- Essenin mövzusu barədə düşünün. Hansı problemdən bəhs edəcəyinizi, burada hansı məsələlər barədə düşüncələrinizi əks etdirəcəyinizi dəqiqləşdirin.
- Yazı işində ifadə etmək istədiyiniz əsas fikri və ya məsələni vurğulayın və əsaslandırın.
- Öz mövqeyinizi əsaslandırmaq üçün hansı dəlillər gətirə biləcəyinizi barədə düşünün. Bunlar həyatdan, ədəbiyyatdan və ya tarixdən nümunələr, böyük insanların açıqlamaları və ya öz düşüncələriniz ola bilər.
- Sonda mütləq nəticə çıxarın. Fikrinizi sübut etdiyinizi göstərin və əsas məqamları qısaca təkrarlayın. Unutmayın ki, son hissədə heç vaxt yeni məlumat verməməlisiniz.
- Səhvləri müəyyənləşdirmək üçün Essenizi yoxlayın. Təqdimata hazırlaşarkən esseni yüksək səslə oxuyun.

**Məktəblilər üçün esse mövzuları:**

Öyrənmək işıqdır, cəhalət isə qaranlıqdır.
Əsl dostluq nədir?
Şəhidlər ölməz, Vətən bölünməz.
Mənim arzum.

**Məktub.** Yazılı nitqin bu növündən müəyyən informasiyanın ötürülməsi, ünsiyyət vasitəsi kimi istifadə olunur. Ədəbiyyat dərslərində publisistik, məlumat xarakterli yazı olan ədəbi məktubdan (sənətkara, qəhrəmana və b. məktub) formasından istifadə olunur.

Məktəbdə şəxsi (özəl), ədəbi məktubların yazılması qaydaları mənimsənilir. Tanınmış şəxslərin ictimai məzmunlu özəl məktublarının təhlili həyata keçirilir.

**Məruzə.** Şagird məruzəsində mövzuya, problemə müstəqil yanaşma öz əksini tapır. Şagirdlərə tədqiqatçılıq bacarığı aşılayan məruzədən həm dərsdə, həm də dərsdənkənar fəaliyyət prosesində istifadə olunur. Bu prosesdə məktəblilər plan tərtib etməyi, məsələnin mahiyyətini açmağı, mənbələrdən istifadə etməyi öyrənirlər.

**Əfsanə.** İlk növbədə şagirdlərə öyrənilmiş əfsanənin məzmununa müvafiq başlanğıc, kiçik təsvir, sonluq yazmaq bacarığı aşılanır. Sonrakı mərhələlərdə dərsdə əfsanə janrında mətn

hazırlığı üzrə çalışmalardan (mövzunun, əsərin başlanğıcının – ekspozisiyanın, təsvir olunacaq əhvalat və hadisələrin, əsas konfliktin, sonluğun düşünülməsi) istifadə olunur.

**Hekayə.** Şagirdlərdə bədii yaradıcılıq üzrə bacarıqların inkişafına yönəlik bədii mətndir. İlk növbədə dərsdə hekayə janrında sadə süjetli mətnin yazılmasına hazırlıq üzrə çalışmalardan (mövzunun, problemin müəyyənləşdirilməsi, təsvir olunacaq əhvalat və hadisələrin, əsas konfliktin, sonluğun düşünülməsi) istifadə olunur.

**Oçerk.** Oçerk publisistik, təsviri səciyyə daşıyır. Portret oçerklərdə ayrı-ayrı şəxslərin (müharibə qəhrəmanı, tanınmış ictimai xadim, sənət adamları və s.) nailiyyətləri barədə məlumat verilir. İctimai problemlərin əhatə olunduğu oçerklərə daha çox müraciət olunur. Belə oçerklərdə sosial həyatın müxtəlif sahələri təqdim və təhlil olunur. Oçerkdə müəllif real faktlara, insanların həyatına, fəaliyyətinə əsaslanır. Şagirdlər oçerk üzərində işləyərkən ümumiləşdirmə apararaq əsas məqamları, əldə etdikləri nəticələri qeyd edirlər.

## Fəndaxili və fənlərarası inteqrasiya

İnteqrasiya təlimdə geniş tətbiq edilən mühüm prinsiplərdən biri kimi dəyərləndirilir. Biliklərin ümumiləşdirilmiş şəkildə mənimsənilməsinə əlverişli şərait yaradan bu prinsipin reallaşdırılması imkanları dərsə hazırlıq mərhələsində diqqət mərkəzində saxlanılmalıdır. Ədəbiyyat təlimində fəndaxili, fənlərarası, fənlərüstü (kino, rəssamlıq, musiqi, teatr və s.) inteqrasiyanın tətbiqi imkanları genişdir.

Fəndaxili inteqrasiya (üfüqi) məzmun xətləri arasındakı əlaqələri əhatə etdiyindən müəllim imkan daxilində bir neçə məzmun xəttinə dair məzmun standartına müraciət etməklə təlim prosesində uğurlu nəticə əldə edə bilər. Fəndaxili inteqrasiyanın zəruriliyi kurikulumun məzmun xətlərinin mahiyyətindən irəli gəlir. Belə ki fənn kurikulumunun məzmun xətləri mahiyyət etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və zənginləşdirir.

Aşağıdakı cədvəldə verilən nümunələrdən göründüyü kimi, kurikulumdakı məzmun xətti üzrə bir-birini tamamlayan alt standartların inteqrativ reallaşdırılması imkanları genişdir.

| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | | **Məzmun xətti 2. Nitq və ünsiyyət** |
|---|---|---|
| 1.1.7. Şeirdəki başlıca mətləbləri müəyyən edir. | 1.2.3. Şeirin ideyası. | 2.2.3. Müxtəlif növ yazıların əsas ideyasını müəyyənləşdirir. |
| 1.1.3. Şeirdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir. | 1.2.2. Bədii təsvir və ifadə vasitələri (epitet, təşbeh, mübaliğə, bədii sual). | 2.1.7. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün dil vasitələrindən ardıcıl istifadə edir. |
| 1.4.5. Şifahi və yazılı ədəbiyyat nümunələrini mövzularına görə müqayisə edir. | 1.3.6. Janrlar. | 2.2.8. Ədəbi mövzuda esseni müqayisələrdən istifadə ilə yazır. |

Fənlərarası əlaqə zamanı müəllim müxtəlif fənlərə aid bir-birini tamamlayan və ya oxşar olan standartları seçir. Fənlərarası əlaqə şagirdlərə məzmunu tam şəkildə mənimsəməyə və həyatla əlaqələndirməyə imkan yaradır. Təlim prosesində ədəbiyyatın Azərbaycan dili, Azərbaycan tarixi, coğrafiya, biologiya və digər fənlərlə, incəsənətin musiqi, rəssamlıq heykəltəraşlıq, kino, teatr və s. növləri ilə inteqrasiyası reallaşdırılmalıdır. Əsas və altstandartların inteqrasiyası təlim prosesində müxtəlif tipli sual və tapşırıqlar vasitəsilə reallaşdırılır.

### Fənlərarası inteqrasiya nümunəsi

| **Reallaşdırılan standartlar** | **Fənlərarası inteqrasiya, alt standartlar** |
|---|---|

| **Ədəbiyyat** | **Azərbaycan dili** |
|---|---|
| 2.1.3. Çıxışının məzmununa uyğun plan hazırlayır. | **5-2.3.3.** Mətnin tərkib hissələrini və struktur elementlərini müəyyən edir. |
| 1.3.5. Əsərdə hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirir. | **5-2.2.1.** Mətndə fikirlər, faktlar və hadisələr arasındakı əlaqəni müəyyən edir. |

## Qiymətləmdirmə vasitələri və meyarları

Şagird nailiyyətlərinin qiymətləndirilməsi ədəbiyyat təlimi prosesinin mühüm tərkib hissəsidir. Elmi əsaslar üzrə aparılan qiymətləndirmə ədəbi bilik və bacarıqların daha səmərəli mənimsənilməsinə və inkişafına əhəmiyyətli dərəcədə təsir edir. Obyektiv qiymətləndirmənin həyata keçirilməsi müəllimə şagirdlərin fənnə münasibəti və inkişafı ilə bağlı həqiqi mənzərəni nümayiş etdirməklə yanaşı, təhsilalanlar üçün də mənəvi-psixoloji stimulun yaranmasına səbəb olur. Qiymətləndirmənin üsul və vasitələri çevik olmalı, daim təkmilləşdirilməli, fənnin özünəməxsusluğu və öyrənənlərdə baş verən dəyişikliklər diqqət mərkəzində saxlanılmalıdr. Qiymətləndirmənin uğurla tətbiqi şagirdlərin bilik və bacarıqlarındakı ləngimələri, zəif məqamları aşkara çıxarmağa və bunun əsasında zəruri addımların atılmasına imkan yaradır. Fərqli təlim fəaliyyətinin ölçülməsi üçün tətbiq edilən qiymətləndirmə şagirdlərdə məsuliyyət hissinin güclənməsinə səbəb olur. Komanda şəklində işləyən məktəblilər həlli tələb olunan problemə öz töhfələrini vermək üçün ciddi səy göstərirlər. Bu, onlarda özünü və yoldaşını qiymətləndirməyə meyil və marağı artırır. Bu isə öz növbəsində onların hər birinin təlim fəaliyyətinin keyfiyyətinə təsir edir.

### Diaqnostik qiymətləndirmə

Ədəbiyyat fənni üzrə diaqnostik qiymətləndirmə tədris ilinin əvvəlində və bəhs və bölmələrin əvvəlində şagirdin ədəbiyyatdan güclü, zəif cəhətlərini öyrənmək, onun bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyən etmək, təlimi planlaşdırmaq məqsədilə aparılır. Diaqnostik qiymətləndirmə üsulları arasında ən əlverişli və müəllimlər tərəfindən çox istifadə olunan qiymətləndirmə üsulu müşahidə, qiymətləndirmə vasitəsi isə müşahidə sxemləridir.

Tədris ilinin əvvəlində, ortasında esse, ədəbi mövzularda şifahi cavablar və yazılı tapşırıqlar, söhbət, davranışın müşahidəsi, müsahibə, sorğu, yazı işlərinin təhlili, özünüqiymətləndirmənin təhlili, digər müəllim və valideynlərdən əldə olunan məlumatların təhlili sayəsində şagirdin ilkin biliklərinə diaqnoz qoymaq mümkündür.

Ədəbiyyat dərslərində diaqnostik qiymətləndirmə zamanı aşağıda sadalanan üsul və vasitələrdən istifadə olunur:

*1. Müşahidə - müəllim şagirdlərin ədəbiyyat dərslərində fəaliyyətini müşahidə edərək qiymətləndirir;*

*2.Müşahidə sxemi - şagirdin ədəbiyyat fənni üzrə fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl;*

*3. Müsahibə - şagirdlərin ədəbi biliklərini izləmək məqsədilə aparılan şifahi yoxlama;*

*4. Qeydiyyat vərəqi - şagirdlə ədəbiyyat fənni üzrə aparılan söhbət zamanı müəllimin diqqət yetirmək istədiyi məsələlərin yazıldığı vərəq;*

*5.Tapşırıqvermə- valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq, söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki ədəbiyyat fənni üzrə fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq).*

Müəllim şagirdlərin hər hansı bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək üçün müəyyən etdiyi meyarlar əsasında onları müşahidə edir və qeydlərini müşahidə vərəqinə yazır. Bu qeydlər müəllimə hər bir şagirdlə onun ədəbi inkişaf səviyyəsinə uyğun işləməyə, zəruri ədəbi tapşırıqlar

verməyə kömək edir. Yəni müəllim şagirdin ədəbiyyat fənni üzrə ehtiyaclarını müəyyənləşdirir və buna uyğun olaraq şagirdlə fərdi yanaşma prinsipi əsasında işləyir.

Diaqnostik qiymətləndirmənin müşahidə sxemi şagirdin ədəbiyyat fənni üzrə əsas inkişaf sahələri üzrə ilkin səviyyəsini müəyyən etmək üçün istifadə olunur.

*1.İdraki (koqnitiv) inkişaf (bilmə, anlama, tətbiq, təhlil, sintez və dəyərləndirmə bacarıqları);*

*2.Şəxsi inkişaf (özü və başqaları barədə danışmaq, özünə inamı nümayiş etdirmək, müxtəlif situasiyalarda öz davranışını idarə etmək bacarıqları);*

*3.Sosial-emosional inkişaf (qrupda pozitiv münasibət qurmaq, ünsiyyətə girmək, yaxşı-pis hərəkətləri seçmək, davranışının səbəblərini izah etmək və məsuliyyətini anlamaq);*

*4.Hərəki (psixomotor) inkişaf (tapşırıqları başa düşmək, yerinə yetirmək, təqlid etmək, tətbiq etmək, uyğunlaşmaq).*

## Formativ qiymətləndirmə

Bu qiymətləndirmə şagirdlərin ədəbiyyat fənni üzrə öyrənmə fəaliyyətinin izlənməsi kimi şərh olunur və onların təlim nəticələrinə, summativ qiymətləndirmədəki nailiyyətlərinə əhəmiyyətli təsir göstərir. Belə ki, ədəbiyyat fənnini tədris edən müəllim dərs ili ərzində müntəzəm olaraq şagirdlərin öyrənmə fəaliyyətini meyarlar üzrə izləyir, şagirdin təlim ehtiyaclarını öyrənir, təlim fəaliyyətinə təsir göstərən səbəbləri müəyyənləşdirir, maneələri aradan qaldırmaq, həmçinin fəaliyyəti stimullaşdırmaq üçün tədbirlər görür. Formativ qiymətləndirmə qeyri-formal xarakter daşıyır və onun meyarları fəaliyyətyönümlü olur. Həmçinin formativ qiymətləndirmə üsulları da təlim nəticəsinin deyil, təlim fəaliyyətinin izlənilməsi üçün nəzərdə tutulur. Məsələn, ədəbi-bədii material üzrə qeydgötürmə ona görə formativ qiymətləndirmə üsulu hesab edilir ki, onun vasitəsilə şagirdin oxu bacarığı deyil, oxu bacarıqlarına yiyələnmək yolunda nümayiş etdirdiyi fəaliyyəti qiymətləndirilir.

Formativ qiymətləndirmə meyarları şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün məzmun standartları əsasında müəyyənləşdirilmiş tələblərdir. Aşağıdakı cədvəldə ədəbi bilik və bacarıqların formativ qiymətləndirilməsi meyarlarına nümunə verilmişdir.

| **Məzmun xətti 1. Oxuma, anlama və təhlil.** | |
|---|---|
| **I. Lirika (heca vəznli şeir), bayatılar.** | |
| **Standart 5-1.1.** Oxu və anlama üzrə bacarıqlar nümayiş etdirir. | |
| Altstandart | Qiymətləndirmə meyarı |
| 5-1.1.1 Şeirdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması. |
| 5-1.1.2. Şeirdə ahəng yaradan vasitələri müəyyənləşdirir. | Şeirdə ahəng yaradan vasitələrin müəyyənləşdirilməsi. |

| | |
|---|---|
| 5-1.1.3. Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. | Bədii təsvir və ifadə vasitələrininmüəyyənləşdirilməsi. |
| 5-1.1.4. Şeirin mətnini anlayaraq oxuyur. | Mətnin anlayaraq oxunması. |
| 5-1.1.5. Şeirin janrını müəyyən edir. | Janrın müəyyənləşdirilməsi. |
| 5-1.1.6. Şeirin vəznini müəyyən edir. | Vəznin müəyyənləşdirilməsi. |
| 5-1.1.7. Şeirdəki mətləbləri müəyyən edir. | Mətləblərin müəyyənləşdirilməsi. |
| 5-1.1.8.Şeirin mövzusunu müəyyənləşdirir. | Mövzunun müəyyənləşdirilməsi. |

Ədəbiyyat fənni üzrə formativ qiymətləndirmənin ən səmərəli üsullarından biri esselərdə səhvlər üzərində iş aparmaqdır. Fənn üzrə sinif və ev tapşırıqlarını yoxlayarkən buraxılan səhvlərin aydın şəkildə sadalanması və həmin səhvləri təkrarlamamaq üçün hansı addımların atılması ilə bağlı tövsiyələrin tapşırıq dəftərində yazılması şagirdin öz fəaliyyətinə tənqidi yanaşması üçün mühüm əhəmiyyətə malikdir. Bu nümunələr şagirdlə yazılı əks-əlaqənin ən səmərəli üsullarındandır, şagirdin ədəbi biliyini möhkəmləndirmək üçün əhəmiyyətlidir. Bu yolla şagird, nəinki səhvlərini görür, eyni zamanda həmin səhvləri düzəltmək üçün tövsiyələr alır.

Formativ qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlər üçün istifadə olunur:

- Ədəbiyyat fənni üzrə cari və perspektiv (illik) planlaşdırmanın təkmilləşdirilməsində;
- Ədəbiyyat təlimi tapşırıqlarının seçilməsində;
- Ədəbiyyat fənni üzrə ev tapşırıqlarının verilməsində;
- Ədəbiyyat dərsində təlimin istiqamətləndirilməsində;
- Ədəbiyyat təlimi prosesində qrup və cütlərin təşkilində;
- Şagirdlərin ədəbi mövzularla bağlı qeydlərinin qovluqda toplanılması, sənətkar, əsərlə bağlı müzakirə aparılması, müəllimin ədəbi mövzuda suallarına cavab yazılmış vərəqlər, şagirdin qeyd dəftəri, ədəbi-bədii mətnlərin oxusu zamanı söz və ifadələrin düzgün tələffüzü, şifahi sual-cavab, esse, tədqiqat xarakterli suallar üzrə iş, rollu oyunlar, sorğular, özünüqiymətləndirmə vərəqi şagirdin ədəbi bilik və bacarıqlarının formativ qiymətləndirilməsinin mühüm vasitələridir.

**Summativ qiymətləndirmə**

*Summativ* qiymətləndirmə təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Bu qiymətləndirmə kiçik (KSQ) və böyük (BSQ) summativ qiymətləndirmə olaraq iki növdən ibarətdir. KSQ tədris vahidlərinin sonunda aparılır. BSQ isə birinci və ikinci yarımilin sonunda təşkil edilir.

Summativ qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlər üçün istifadə olunur:

- şagirdlərin təlim problemlərini müəyyənləşdirmək;
- şagirdlə əks-əlaqə yaratmaq və onu stimullaşdırmaq;
- planlaşdırma aparmaq və təkliflər vermək.

Ədəbiyyat fənninin zəngin məzmunu çoxcəhətli təlim işinin tətbiqinə səbəb olur. Nəticədə isə bu, fərqli, eləcə də zəngin qiymətləndirmə üsul və vasitələrinin müəyyənləşdirilməsini zəruri edir. Bədii əsərin ilkin – müstəqil oxusu, dərinləşdirilmiş oxunun həyata keçirilməsi, məzmunun əhatəli öyrənilməsinin təmin edilməsi, təhlilin reallaşdırılması müxtəlif üsul və vasitələrin tətbiqi sayəsində dəyərləndirilir. Ədəbiyyat dərslərində formalaşdırılmalı olan bilik və bacarıqların, bu əsasda yaranmalı olan səriştənin məzmun xətləri üzrə aydın təsəvvür edilməsi vacibdir. Beləliklə, ədəbiyyat fənni üzrə qiymətləndirmələr şagirdlərdə formalaşan bacarıqların ölçülməsi məqsədini güdür. Bu bacarıqları məzmun xətləri üzrə aşağıdakı şəkildə ümumiləşdirmək olar:

**Oxuma, anlama və təhli məzmun xətti üzrə**

*Oxu və anlama üzrə bacarıqlar*

- Bədii əsərdəki mətləbləri anlayaraq oxumaq;
- Əsərin janrını müəyyənləşdirmək;
- Əsərin vəzn xüsusiyyətlərini müəyyənləşdirmək;
- Ahəng yaradan vasitələri müəyyənləşdirmək;
- Bədii təsvir və ifadə vasitələrini müəyyən etmək;
- Əsərin mövzusunu müəyyənləşdirmək;
- Əsərdəki əsas konflikti müəyyənləşdirmək**;**
- Obrazların xarakterindəki başlıca cəhətləri müəyyənləşdirmək**;**
- Əsərdən bitkin parçanı fərqli formalarda nağıl etmək.

*Təhlil üzrə bacarıqlar*

- Bədii təsvir və ifadə vasitələrinin əsərdə rolunu şərh etmək;
- Əsərin əsas ideyasını şərh etmək;
- Əsəri ifadəli oxumaq;
- Xarakterindəki başlıca cəhətlərə əsaslanmaqla obrazları təhlil etmək;
- Obrazları nitqinə, məişət təsvirlərinə görə səciyyələndirmək;
- Əsərdəki hadisələri dəyərləndirmək;
- Əsərin süjet və kompozisiya xüsusiyyətlərini dəyərləndirirmək;
- Əsərdə qaldırılmış problemə münasibət bildirmək;
- Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə etmək;
- Əsərdəki əsas konfliktə münasibət bildirmək;
- Əsərdə yaradıcılıq metodunun xüsusiyyətlərini dəyərləndirmək;

- Mətnlə bağlı yozumlar etmək.

**Nitq və ünsiyyət məzmun xətti**

*Şifahi nitq və ünsiyyət bacarıqları*

- Çıxışının məzmununa uyğun plan hazırlamaq;
- Çıxışının mövzusuna uyğun təqdimat hazırlamaq;
- Mənasını yeni öyrəndiyi sözlərdən nitq prosesində istifadə etmək;
- Təqdimatında ünsiyyətin davamlılığına diqqət etmək;
- Dialoji nitq şəraitində ünsiyyət yaratmaq.

*Yazılı nitq bacarıqları*

- Yazı üçün plan tərtib etmək;
- Müxtəlif növlərdə yazılar icra etmək;
- Yazını növünə uyğun dil xüsusiyyətləri əsasında icra etmək;
- Ədəbi mövzuda essedə mövzunu əhatə etmək;
- Essedə şəxsi hiss və düşüncələrinin ifadəsinə diqqət etmək.

Qiymətləndirmənin üsul və vasitələri mürəkkəblik səviyyəsinə görə fərqli olduğu kimi, bu və ya digər səriştənin ölçülməsi üçün təqdim edilən tapşırıqlar da səviyyəcə müxtəlif olur. Bərpaedici xarakterli işlərin (tapşırıqların) tələbləri yaradıcı xarakterli tapşırıqlardan fərqlənir. Deməli, deklarativ biliklər zəminində icra edilən tapşırıqlarla konseptual, yaxud prosedural biliklərə yönəlik tapşırıqların arasında tənasübün gözlənilməsi vacibdir. Yaxud aşağı, orta və yüksək səviyyəli tapşırıqların təlimin bütün mərhələlərində uzlaşdırılması zəruridir. Bunlardan birini fetişləşdirmək digərinin zərəri hesabına olur və nəzərdə tutulan nəticənin əldə edilməsinə imkan vermir. Bədii əsərin məzmunu, ədəbi qəhrəmanların davranış və əməlləri, nitqi və s. bağlı zəruri faktoloji biliyə malik olmayan şagirdin təhlil prosesində tədqiqat xarakterli tapşırığın öhdəsindən gəlməsi mümkün deyildir. Göründüyü kimi, ədəbi bilik və bacarıqların qiymətləndirilməsində tapşırıqların fərqli səviyyədə olduğunu nəzərə almaq lazımdır. Bu səviyyələri aşağıdakı kimi müəyyənləşdirmək məqsədəuyğundur:

**Aşağı səviyyəli tapşırıqlar:**

- ədəbi-nəzəri anlayış və terminlərin tanınması;
- ədəbi-nəzəri anlayışla bağlı nümunələrin xatırladılması;
- bədii mətnin məzmununun xatırlanması;
- ədəbi qəhrəmanların xarakterindəki başlıca cəhətlərin yada salınması;
- əsərdəki əsas kofliktin xatırladılması;
- əsərdəki problemin yada salınması;
- ədəbi-tarixi və bioqrafik məlumatların xatırladılması;
- publisistik mətnlərdəki məlumatların yada salınması.

**Orta səviyyəli tapşırıqlar:**

- bədii mətndən ədəbi-nəzəri anlayışlarla bağlı səciyyəvi nümunələrin seçilməsi və əsaslandırılması;
- bədii mətnin məzmununun fərqli formalarda danışılması;
- ədəbi qəhrəmanların nitqi, davranış və əməlləri üçün səciyyəvi olanların təsvir edilməsi;
- konfliktlərin həlli yollarının izah edilməsi;

- əsərin süjet və kompozisiyası üçün səciyyəvi olanların şərh edilməsi;
- əsərdəki əsas problemin şərh edilməsi;
- təsvir xarakterli yazıların icrası.

**Yuxarı səviyyəli tapşırıqlar:**

- ədəbi-nəzəri anlayışların yeni təlimi situasiyada və təlim materialı üzrə tətbiqi;
- ədəbi qəhrəmanların nitq, davranış və əməllərinə görə dəyərləndirilməsi;
- obrazların müqayisəli səciyyələndirilməsi;
- konfliktlərin müəllif həllinə qiymət verilməsi;
- əsərin süjet və kompozisiya xüsusiyyətlərinin dəyərləndirilməsi;
- əsərdə qaldırılmış problemlərin dəyərləndirilməsi;
- yazıçı sənətkarlığına əsaslandırılmış münasibətin bildirilməsi;
- ədəbi-tarixi və bioqrafik mövzular üzrə problemlərin araşdırılması;
- müqayisə, mühakimə xarakterli yazıların icrası.

## Təlim materiallarının planlaşdırılması üzrə metodiki tövsiyələr

Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi göstərilir. Eyni zamanda hər fəslə ayrılacaq vaxt qeyd edilir.

Təlimin təşkili və planlaşdırılmasına dair tövsiyələr məktəbdə ədəbi təhsilin məqsədlərinə, müasir inkişaf meyillərinə, fəal təlim metodlarının tətbiqinə əsaslanır və fənn üzrə yüksək nəticələrə nail olmağa yönəldilmişdir.

Təlim prosesində ədəbiyyat fənni üzrə yeni məzmun standartlarından istifadə müəllimin öz fəaliyyətinin planlaşdırmasından başlayır. İllik planlaşdırma zamanı tədris vahidi, mövzulara uyğun məzmun standartları, fəndaxili, fənlərarası inteqrasiya imkanları, resurslar müəyyən edilir.

Fənn üzrə planlaşdırma mərhələlərlə aparılır:

1. Mövzu üzrə dərslər sistemi (tədris vahidləri) üzrə reallaşdırılacaq məzmun standartlarının müəyyənləşdirilməsi;
2. Tədris vahidləri üçün planlaşdırılması və bu planın hər bir dərslə bağlı konkretləşdirilməsi, düşünülmüş gündəlik planın tərtib edilməsi.

**İllik planlaşdırmaya verilən tələblər:**

- tədris vahidləri və mövzulara uyğun reallaşdırılacaq məzmun standartlarının müəyyənləşdirilməsi;
- tədris vahidlərinin və mövzuların ardıcıllığının, müəyyən edilməsi;
- interaktiv təlim, fəndaxili və fənlərarası inteqrasiya imkanlarının müəyyənləşdirilməsi;
- əlavə mənbələr üzrə iş imkanlarının dəqiqləşdirilməsi;
- sinfin səviyyəsinin, fərdi yanaşma imkanlarının nəzərə alınması;
- mövzular üzrə vaxtın məqsədyönlü şəkildə bölgüsü;
- şagird nailiyyətlərinin qiymətləndirilməsi imkanlarının müəyyənləşdirilməsi.

Bu prosesin davamı olaraq cari planlaşmada məzmun standartlarına uyğun təlim məqsədləri müəyyənləşdirilir. Təlim məqsədi dərsin əsas leytmotivini təşkil edir. Məzmun standartı əsasında müəyyən edilən təlim məqsədi dərsin məhələlərini bir-birilə əlaqələndirir.

Fənnin planlaşdırılması ardıcıllığı aşağıdakı kimidir:

1. Tədris ediləcək tədris vahidlərinə uyğun məzmun standartlarının müəyyən edilməsi;
2. Hər tədris vahidinin əhəmiyyəti və mürəkkəblik səviyyəsi nəzərə alınaraq dərs saatlarının müəyyənləşdirilməsi;
3. Konkret sinfin şagirdlərinin bilik , bacarıq səviyyəsinin, maraqlarının nəzərə alınması;

İllik planlaşdırmada mövzular, reallaşdırılacaq altstandartlar, fənlərarası inteqrasiya, strategiyalar (metodlar, iş formaları) resurslar, qiymətləndirmə üsul və vasitələri, eləcə də vaxt qeyd edilir.

İllik plan əsasında gündəlik dərs planının hazırlanması müəllimdən yaradıcı münasibət tələb edir. Planın tərtibi zamanı müəlllim təhsil proqramı (kurikulum) üzrə məzmun və qiymətləndirmə standartlarına, dərslik və müəllim üçün metodik vəsaitə əsaslanmalıdır. Düzgün tərtib edilmiş plan dərsin strukturunu, mövzusunu, məqsədlərini, iş formalarını və onun məzmununu dəqiq izləməyə imkan verir.

Müəllim plan üzrə dərsin hər mərhələsində görüləcək işləri aydın təsəvvür etməli, nəyin, necə tədris ediləcəyini, təlim şəraitini, qiymətləndirmənin necə aparılacağını dəqiq müəyyənləşdirməlidir.

Gündəlik dərs planının tərtibinə verilən tələblər:

- mövzu üzrə reallaşdırılacaq altstandartların müəyyənləşdirilməsi;
- dərsdə qarşıya qoyulan təlim, tərbiyə, inkişaf məqsədlərinin müəyyənləşdirilməsi;
- təlim metodları və iş formalarının dəqiqləşdirilməsi;
- əlavə mənbələr və resurslardan istifadə imkanlarının dəqiqləşdirilməsi;
- mövzu üzrə sual və tapşırıqlar, qiymətləndirmə vasitələri hazırlanması;
- Dərsin hər mərhələsi üzrə vaxt bölgüsü aparılması.

**Gündəlik dərs planı nümunəsi:**

**Mövzu:** Ə.Məmmədxanlının "Qızıl qönçələr" hekayəsinin təhlili (VII sinif)

Altstandartlar:

1.4.1. Xarakterindəki başlıca cəhətlərə əsaslanmaqla obrazları səciyyələndirir.
1.4.2. Əsərin başa düşülməsində zaman və məkanın rolunu izah edir.
1.4.7. Əsərin ideyasını şərh edir.
1.4.9. Bədii nümunələrlə bağlı yozumlar edir.

**Dərsin məqsədləri:** Şagird əsrdə təsvir edilən hadisənin baş verdiyi zaman və məkan haqqında mülahizələrini əsaslandırır, obrazları səciyyələndirir, bədii əsərin ideyasını müəyyənləşdirir, obrazlar, müəllif niyyəti ilə bağlı yozumlar edir.

**Köməkçi vasitələr:**Əsərlə bağlı illüstrasiyalar, iş vərəqləri, bədii oxu ustasının ifasının səsyazısının dinlənilməsi.

**Dərsin mərhələləri və görüləcək işlər:**

1. **Maraqoyatma (motivasiya, cəlbetmə):**

- Əsərdən bir parçanın ifadəli oxusunun dinlənilməsi və ifanın müzakirəsi. https://www.youtube.com/watch?v=oCEKI_bk8Fs
- Bir qızcığazın taleyindən bəhs edən əsər nə üçün " Qızıl qönçələr" adlanır?
- Ağır uşaq əməyi, talesia uşaqların həyatı haqqında bildikləriniz sizdə hansı hiss və düşüncə yaradır?

**2.Araşdırma (fəaliyyət, tədqiqat):** Şagirdlər kiçik qruplarda əsərin təhlili ilə bağlı suallara cavab hazırlayır.

**Araşdırın. Fikirləşin. Cavab verin**

2. Süreyyanın xarakterindəki mühüm cəhətləri aydınlaşdırın. Aşağıdakı cədvəldən istifadə etməyiniz faydalıdır.

| Obrazın adı: **Süreyya** | |
|---|---|
| Xarakterindəki mühüm cəhətlər | Əsərdən nümunələr |
| | |

3. Əsərdən nümunələr göstərməklə yazıçının baba və nəvə obrazlarına münasibətini aydınlaşdırın. Cədvəldən istifadə edin.

| № | Obrazların adı | Yazıçının münasibəti |
|---|---|---|
| 1 | Firuz baba | |
| 2 | Süreyya | |

4. Əsərin maraqlı olmasına yazıçı necə nail olmuşdur? Fikrinizi hekayədən seçdiyiniz nümunələrlə əsaslandırın. Müvafiq cədvəldən istifadə edin.
5. Hekayədə yazıçını düşündürən, narahat edən başlıca problem, sizcə, nədir? Müvafiq cədvəldən istifadə edin.
6. Əsərdəki başlıca fikri – ideyanı necə izah edərsiniz?

3. **İzahetmə (öyrənmə).** Dərslikdəki "Əsərlə bağlı açıqlamalar" mətninin təqdimatı və müzakirəsi.

4.**Möhkəmləndirmə (tapşırıq):** Dərslikdəki tapşırıqların fərdi qaydada yerinə yetirilməsinə nəzarət.

5.**Qiymətləndirmə (formativ qiymətləndirmə).** Fəaliyyət, tapşırıqlar və sual-cavab əsasında şagirdlərin əsərin təhlili üzrə bacarıqları qiymətləndirilir.